Xalqın qəzeti!

# Xalq qəzeti

№ 256 (30372) 24 noyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Ölkəmiz Şərqi Qərbə qovuşduran geosiyasi və iqtisadi məkandır

## Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçanı qəbul edib.**

Azərbaycanın 1993-cü ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasına üzv qəbul olunmasından etibarən ölkəmiz ilə bu təsisat arasında sıx əlaqələrin qurulduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan bu Komissiya ilə ətraf mühitin mühafizəsi, nəqliyyat, gömrük, enerji, Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və digər sahələrdə uğurlu əməkdaşlıq edir.

Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının nümayəndə heyətlərinin ölkəmizdə Azərbaycanın sədrliyi ilə təşkil olunan beynəlxalq tədbirlərdə iştiraklarını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) Zirvə görüşündə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katiblərinin iştirakını SPECA çərçivəsində əməkdaşlığa verilən əhəmiyyətin nümunəsi kimi qiymətləndirdi.

Azərbaycan Prezidenti SPECA yarananda üzv ölkələrin müstəqilliklərinin ilk mərhələsində, fərqli geosiyasi və coğrafi mühitdə olduqlarını xatırladı, ötən müddət ərzində üzv ölkələrin müstəqil dövlətlər olaraq uğurlu inkişaf yolu keçdiklərini vurğuladı.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında iqtisadi körpüdür

*Bakı daha bir nüfuzlu beynəlxalq məclisə – SPECA-nın zirvə görüşünə evsahibliyi edir*

**BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) 1998-ci ildə yaradılıb. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.**




Azərbaycan SPECA-ya 2002-ci ildə qoşulub və fəal üzvlərdəndir. Belə ki, Proqramın İdarəetmə Şurasının və İqtisadi Forumunun 1-ci iclası Bakıda keçirilib. 2016-cı ildə isə Azərbaycan quruma sədrlik edib. Həmin ilin noyabr ayında Gəncə şəhərində İdarə Heyətinin 11-ci iclası və İqtisadi Forum keçirilib. Müvafiq dövlət orqanları, o cümlədən İqtisadiyyat Nazirliyi SPECA-nın İşçi qruplarında fəal iştirak edir. 2023-cü ildə də SPECA-ya sədrliyi Azərbaycan Respublikası həyata keçirir.

*(ardı 12-ci səhifədə)*

# Sülh sazişində şərik olmur



**“Qafqaz evi”nin daxili məsələləri elə qafqazlıların özləri tərəfindən həll olunmalıdır. Artıq bölgədə silahların susması ilə soyuq başla bu münaqişənin son nöqtəsinin qoyulacağı məqam yetişib. Vaxt itkisi Ermənistan üçün daha böyük itkilərə səbəb ola bilər. Ara-sıra səsləri eşidilən revanş çağırışçıları unutmamalıdırlar ki, bu, Hayastanın düşdüyü uçurumdan qurtulmağın yeganə yolu, bəlkə də son şansıdır.**

İrəvan qüvvələr balansını tarazlaşdırmaq cəhdlərini kənara qoymalı, sülh, yoxsa hərb arasında seçim etməlidir. Erməni xalqı başa düşməlidir ki, bölgədə sülh və sabitlik bərqərar olmasa, daha da geri gedəcək, inkişaf və tərəqqi yoluna çıxa bilməyəcək.

Bu gün Azərbaycan sülh istəməklə kifayətlənmir, həm də sülhü təbliğ edir. Bakı təkcə iki ölkə arasında deyil, bütövlükdə, Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olmasını istədiyini ən yüksək səviyyələrdə dəfələrlə bəyan edib. Kənardan edilən davamlı və çeşidli təzyiqlərin altında sülh yolunda əngəllər yaratmaq üçün axırıncı “barıtını” da xərcləyən Ermənistan hakimiyyəti, nəhayət, yönə gələnə oxşayır. Bakıdan İrəvana ünvanlanan xoşməramlı çağırışların əks-sədası eşidilməkdədir. Brüssel, Vaşinqton kimi əcnəbi “sekundantlardan” bir fayda görməyən, Moskvanın vasitəçiliyindən imtina edən Paşinyan iqtidarı sülhə gəlməyin Bakı ilə birbaşa dialoqdan daha səmərəli yolunun qalmadığını etiraf etməkdədir.

*(ardı 4-cü səhifədə)*

## Qarabağ və Şərqi Zəngəzurda Böyük Qayıdışa təminat yaradılır



Səhifə ⇨ 7

## Qərb təsisatlarının qrant maxinasiyaları

Səhifə ⇨ 12

## Kibertəhlükəsizlik virtual məkanın siperidir



Səhifə ⇨ 14

## Naxçıvanda Qərbi Azərbaycana Qayıdış hərəkatına dəstək

Səhifə ⇨ 11

# İrəvan seçim etməlidir: silahlanma, yoxsa sülh?



**Ermənistanın Hindistan və Fransadan silah-sursat almasının regional sülh və sabitliyə təhdid yaratdığı fikri təkcə Azərbaycanın rəsmi şəxsləri tərəfindən dilə gətirilmir. Son vaxtlar Rusiyanın rəsmi şəxsləri və ekspertləri də İrəvanın bu addımından narahatlıq ifadə edirlər.**

Məsələn, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova noyabrın 22-də keçirdiyi mətbuat konfransında bildirib ki, Fransanın “Bastion” zirehli nəqliyyat vasitələrinin Ermənistana tədarükünün faydalı olması barədə arqumentlər səsləndirməsi sadəlövhlükdür. Onun sözlərinə görə, Ukraynada real döyüş şəraitində həmin nəqliyyat vasitələrinin effektivliyinin xeyli aşağı olduğu sübut edilib: “Həmin texnika, sadəcə meydana nümayişə çıxarılsa, bəlkə bir mənası olar. Lakin onun effektivliyinə baxmaq istəyirsinizsə, o zaman Rusiyaya gəlin. Bizim hərbçilərimiz sizə məlumat verərlər. Fransa Ermənistana başqa istiqamətlərdə reallaşdıra bilmədiyi tam yararsız texnika satıb”.

*(ardı 4-cü səhifədə)*

# Asiyanın Avropaya ən qısa yolu ölkəmizdən keçir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) icraçı katibi xanım Armida Salsiya Alişahbananı qəbul edib.**

Armida Salsiya Alişahbanan BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25-ci ildönümündə Azərbaycanda Zirvə görüşünün keçirilməsinin əlamətdar hadisə olduğunu vurğulayaraq, bu münasibətlə ev sahibi və sədr qismində Azərbaycan Respublikasına təbriklərini çatdırdı.

Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz 1992-ci ildə BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına üzv olub və Azərbaycanın bu təsisatın əksər üzv dövlətləri ilə yüksək səviyyədə siyasi münasibətləri var.

Xüsusilə nəqliyyat, rəqəmsallaşma, enerji sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq üçün UNESCAP-ın vacib platforma olduğunu bildirən Prezident İlham Əliyev UNESCAP və SPECA regionları arasında gələcək əməkdaşlıq imkanlarının da mümkünlüyünə toxundu, nəqliyyat sahəsində işbirliyini xüsusilə qeyd etdi.

Dövlətimizin başçısı region ölkələri ilə birlikdə, xüsusən də Orta Dəhliz, Xəzər və Qara dənizləri birləşdirən nəqliyyat dəhlizlərinin inkişaf konsepsiyası haqqında məlumat verdi, nəqliyyat daşımalarının rəqəmsallaşdırılması, vahid tarif və standartların tətbiq edilməsinin vacibliyini diqqətə çatdırdı.

Söhbət zamanı ölkəmizin UNESCAP çərçivəsində Trans-Asiya dəmir yolu Sazişi şəbəkəsi, Asiya quru limanları üzrə hökumətlərarası Saziş və digər hökumətlərarası sazişlərdə iştirakı məsələsi qeyd edildi.

Görüşdə ölkəmizlə UNESCAP arasında əlaqələrin genişləndirilməsi və bu təsisatın müvafiq iclaslarının Azərbaycanda keçirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti: Ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq

**Biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz, demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə də biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm: bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir.**

"İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 129-cu kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı söyləyib.

Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin may-iyul aylarını əhatə edir. Bu kitaba Prezident İlham Əliyevin Türkiyəyə işgüzar səfərinə, Prezident Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirakına, həmçinin Azərbaycana dövlət səfərinə gəlmiş Prezident Rəcəb Tayyib Ərdoğanla görüşünə, liderlərin mətbuata bəyanatlarla çıxışlarına, Bakıda Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılış mərasimində iştirakına dair materiallar daxil edilib.

Prezident İlham Əliyevin Pakistan Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə, Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşləri haqqında informasiya və mətbuata bəyanatlarının mətnləri də yeni kitabda verilib.

Bu nəşrdə Azərbaycan Prezidentinin "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısında iştirak etmək üçün Moldovaya işgüzar səfəri, Kişineuda keçirdiyi görüşlər, Belçika Krallığına işgüzar səfəri haqqında materiallar da yer alıb.

Çoxcildliyin 129-cu kitabında dövlətimizin başçısının Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində 28-ci Beynəlxalq Xəzər Neft və Qaz – "Caspian Oil&Gas" və 11-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgilərinin açılış mərasimində iştirakı haqqında materiallarla da tanış olmaq mümkündür.

Yeni nəşrdə Prezident İlham Əliyevin Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə birgə Zəngilan rayonuna səfərinə, Cəbrayılda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin açılış mərasimində iştirakına dair informasiyalar da verilib.

Dövlətimizin başçısının Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə çıxışının mətni də oxuculara 129-cu kitabda təqdim edilib.




Prezident İlham Əliyev, həmçinin Cəlilabad, Füzuli rayonlarına səfər edib, Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığınaq kəndlərini ziyarət edib, Şuşa şəhərinə gedib, 90 çarpayılıq Şuşa şəhər xəstəxanasının, 1 nömrəli tam orta məktəbin binalarında tikinti işlərinin gedişi ilə tanış olub, habelə "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edib və jurnalistlərin suallarını cavablandırıb. Yeni kitaba bununla bağlı materiallar daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 129-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri,

Zəfər Günü münasibətilə Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün bizə Azərbaycan xalqının doğma Vətənin müdafiəsi uğrunda qəhrəmancasına mübarizəsini xatırladır. Sizin güclü liderliyiniz sayəsində qazandığınız bu strateji Qələbə nəticəsində təkcə Azərbaycan Respublikasının ərazi bütövlüyü deyil, həm də tarixi ədalət bərpa olundu. Builki bayram xüsusi əhəmiyyət daşıyır, belə ki, Azərbaycan qanuni ərazisi olan Qarabağ üzərində tam nəzarəti bərpa edib.

Pakistan Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə bundan sonra da davamlı dəstək göstərəcək. Qoy, bu Zəfər regionda sülhü, sabitliyi, inkişafı və rifahı dönməz etsin!

Uzun illərdən bəri yüksələn xətlə inkişaf edən qardaşlıq münasibətlərimizin son vaxtlarda keçirilmiş yüksək səviyyəli görüşlər və xalqlar arasında təmaslar nəzərə alınmaqla çoxşaxəli əməkdaşlıq vasitəsilə gücləndirilməsi istiqamətində Sizinlə birgə işləməyə ümidvaram.

Zati-aliləri, Sizə olan ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

# Şahin Mustafayevin Çin səfiri ilə görüşü

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 23-də Çin Xalq Respublikasının ölkəmizdəki səfiri xanım Qo Min ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan–Çin dostluq və əməkdaşlıq əlaqələrinin siyasi, iqtisadi, ticarət, qarşılıqlı investisiyalar, nəqliyyat-logistika, energetika, kənd təsərrüfatı, humanitar və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, dövlətlərarası münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığı bildirilib.

Həmçinin nəqliyyat-tranzit sahəsində qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsi, xüsusilə də "Bir kəmər, bir yol" təşəbbüsünün, eləcə də Orta Dəhlizin ən vacib hissəsi olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun birgə təşviqinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə hüquq-müqavilə bazasının təkmilləşdirilməsi, eləcə də əməkdaşlıq mexanizmlərinin genişləndirilməsi məqsədilə yaxın zamanlarda imzalanması nəzərdə tutulan bir sıra sənəd layihələri müzakirə olunub.

***XQ***

# İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə xüsusi əhəmiyyət verir və Təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin tərəfdarıdır. 2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin sahəvi nazirlərinin bir çox iclaslarına ev sahibliyi etmişdir. Bugünkü konfrans da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə səylərin gücləndirilməsi baxımından böyük önəm daşıyır.

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Təşkilatın səylərini davamlı olaraq dəstəkləyir. Qlobal böhranların, bəşəriyyət qarşısında duran yeni sınaq və çətinliklərin, islamofobiyanın geniş yayıldığı dövrdə müsəlman dövlətlərinin bir-birinə qarşılıqlı dəstək göstərməsi, İslam birliyinin gücləndirilməsi olduqca vacibdir.

2023-cü il Azərbaycan üçün xüsusilə əlamətdar il oldu. Otuz il ərzində ərazilərimizdə mövcud olan "boz" zonanı aradan qaldıraraq və separatizmə son qoyaraq ölkəmizin suverenliyini, konstitusiya quruluşunu bərpa etdik, bununla da beynəlxalq hüququn və ədalətin təntənəsini özümüz təmin etdik.

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycana qarşı otuz il davam edən təcavüzünü və işğalçı siyasətini hər zaman pisləmiş, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə Azərbaycanın haqq işini, ərazi bütövlüyünü daim və ardıcıl şəkildə dəstəkləmişdir. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə minnətdarlığımızı bildiririk.

Təəssüflər olsun ki, işğal illərində şəhər və kəndlərimiz Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, mədəni və dini abidələrimiz məhv edilmişdir. Bundan başqa, Ermənistan işğal altında saxladığı ərazilərimizdə ilkin qiymətləndirmələrə görə bir milyona yaxın mina basdırmış, burada urbisid, kultursid və ekosid törətmişdir. Xalqımızın mədəni irsinə qarşı soyqırımı törətmiş ermənilər məscidlərimizi yerlə-yeksan edərək yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir etmişlər. İslam Əməkdaşlıq Təşkilatı əvvəllər işğal altında olmuş ərazilərimizdə İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının Ermənistan tərəfindən dağıdılmasını və talan olunmasını qəti şəkildə pisləmiş, məscidlərin təhqir olunmasını şiddətlə qınamışdır. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə və Təşkilatın Baş Katibliyinə bir daha təşəkkürümüzü bildiririk.

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, vacib infrastruktur layihələri həyata keçirilir. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər artıq dədə-baba yurdlarına – Laçın və Füzuli şəhərlərinə, o cümlədən üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura geri dönməsi nəzərdə tutulur.

Əlamətdar haldır ki, on il əvvəl də Bakıda İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransı keçirilmişdir. Burada qəbul edilən "Çərçivə sənədi"nə əsasən əmək, miqrasiya və sosial müdafiə sahələrində təcrübə mübadiləsinə dair gələcək prioritetlər müəyyən olunmuşdur. Konfrans çərçivəsində, mənzil-qərargahı Bakıda olmaqla İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılması təşəbbüsü tərəfimdən irəli sürülmüşdü və bu təşəbbüsü üzv ölkələr yekdilliklə dəstəkləmişlər. Ötən dövrdə İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Mərkəzin üzv ölkələr arasında əməkdaşlığın daha da güclənməsində vacib rol oynayacağına əminəm.

Bugünkü tədbirin mövzusu innovativ həllərə, eyni zamanda, əmək və məşğulluq xidmətlərinin rəqəmsallaşdırılmasına həsr edilib. Müzakirə olunacaq məsələlər hər bir ölkə, o cümlədən, Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda son illər ərzində sosial sahədə rəqəmsallaşma üzrə mühüm işlər görülmüşdür. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin formalaşdırılması sosial islahatlar proqramının əsas hədəflərindən biridir. Bu istiqamətdə "ASAN xidmət" modeli, DOST konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı həyata keçirilmişdir.

Əmək, məşğulluq və sosial müdafiə sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, bu sahələrdə əhaliyə 140-dan artıq elektron xidmətin göstərilməsi və vahid əmək münasibətləri platforması əhaliyə ciddi dəstək mexanizmini formalaşdırıb. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar nəticəsində məşğulluq imkanları artmış, işsizlik və yoxsulluğun səviyyəsi ciddi şəkildə azalaraq 5,5 faizə düşmüş, sosial ödənişlərdə dəfələrlə artımlar edilmişdir. Təkcə son dörd ildə qəbul edilmiş 4 sosial islahat paketi ilə əhalimizin 40 faizi əhatə olunmuş, minimum əməkhaqqı 2,7 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, median əməkhaqqı 2,1 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya isə 2 dəfə artmışdır.

Əminəm ki, bugünkü konfrans İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsinin yeni imkanları ətrafında faydalı fikir mübadiləsi aparmaq və səyləri əlaqələndirmək üçün əhəmiyyətli platforma olacaq, qarşılıqlı faydalı tərəfdaşlığın yeni məzmunla zənginləşməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 noyabr 2023-cü il**

## "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabətqabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yüklərin cəlb olunması məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı" (bundan sonra – Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

2.1. Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Fəaliyyət Planının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 noyabr 2023-cü il**

# Macarıstan Azərbaycanın Avropaya açılan qapısıdır



**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.**

Macarıstanın Baş naziri Viktor Orban SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O, Macarıstan xalqının ən xoş arzularını və Azərbaycanın suverenliyinin bərpası, regionda vəziyyətin sabitləşməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycan ilə Macarıstan arasında əlaqələrin və dostluq münasibətlərinin hərtərəfli inkişafından məmnunluğunu ifadə etdi, ölkələrimizin ikitərəfli əsasda və Türk Dövlətləri Təşkilatı çərçivəsində yaxından əməkdaşlıq etdiyini, həmçinin SPECA-nın işbirliyi üçün yeni format yaratdığını vurğuladı.

Viktor Orban Macarıstanın Türk ailəsinə yaxınlaşmasında və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərin inkişaf etdirilməsində Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri siyasi, iqtisadi, geosiyasi baxımdan vahid məkanı özündə əhatə edir. Ölkələrimiz arasında iqtisadi inteqrasiya daha da dərinləşir, Mərkəzi Asiyanı Xəzər dənizi və Qara dəniz ilə birləşdirən nəqliyyat, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə yeni əməkdaşıq layihələri və platformaları inkişaf etdirilir.

Azərbaycanın işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasiminin Macarıstanla birgə həyata keçirilməsinin böyük əhəmiyyətə malik olduğu qeyd edildi, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı vurğulandı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq etdiyi qeyd olundu. Azərbaycan ilə Macarıstan arasında iqtisadi-ticari, investisiya əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Bu baxımdan ölkələrimiz arasında enerji sahəsində icra olunan layihələrin önəmi xüsusi vurğulandı, turizm, əczaçılıq, nəqliyyat-logistika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

# Prezident İlham Əliyev BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibini qəbul edib

(əvvəli 1-ci səhifədə)

SPECA Zirvə görüşünün Bakıda keçirilməsinin Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın hərtərəfli və dinamik surətdə inkişafının bariz nümunəsi olduğunu deyən Prezident İlham Əliyev son illər ərzində Azərbaycan ilə region ölkələri arasında siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişlənməsini məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı vurğuladı ki, SPECA-nın üzvü olan dövlətlər sıx əməkdaşlıq nəticəsində uğurlu regional model təqdim edirlər. Bu, həmçinin Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid siyasi, iqtisadi və geosiyasi bir məkanı ifadə etmələrinin bariz təzahürü, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı daha da genişləndirmək əzminin və niyyətinin nümunəsidir.

Dəvətə görə təşəkkürünü bildirən Tatyana Molçan Azərbaycanın SPECA-ya uğurlu sədrliyini vurğuladı və ilk dəfə bu formatda Zirvə görüşünün keçirilməsinin mühüm nailiyyət olduğunu dedi.

Azərbaycanın sədrliyi ilə bu çərçivədə əməkdaşlığın daha böyük perspektivlərinin olduğunu qeyd edən qonaq Sammitin SPECA-nın yaranmasının 25-ci ildönümünə təsadüf etməsini və bu xüsusda, BMT Baş Assambleyasında SPECA-nın təsis edilməsinə dair qətnamənin qəbul olunmasının əhəmiyyətini vurğuladı.

Tatyana Molçan SPECA-nın Sammitində BMT Baş katibini təmsil etməsindən məmnunluq duyduğunu bildirdi. O, bu Sammitin SPECA-ya üzv ölkələr arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, prioritetlərin və eyni zamanda, çağırışların müzakirəsi baxımından böyük əhəmiyyət daşıdığını bildirərək BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının Sammit çərçivəsində aparılacaq müzakirələrdə həmsədr qismində iştirakının məmnunluq doğurduğunu dedi.

Görüşdə nəqliyyat dəhlizləri, urban-meşə konsepsiyası və şəhərlərdə yaşıllaşdırmanın artırılması, Azərbaycanın tarazlaşdırılmış və uğurlu şəkildə bərpaolunan və yaşıl enerji konsepsiyasına keçidi, bu istiqamətdə ölkəmizin irəli sürdüyü təşəbbüslər ilə bağlı fikir mübadiləsi aparıldı.

Mərkəzi Asiya ölkələri ilə nəqliyyat imkanlarının artırılması, Orta Dəhlizin əhəmiyyəti, Azərbaycanın ölkəmizdə və qonşu ölkələrdə nəqliyyat infrastrukturunun inkişafına yatırdığı investisiyalar məmnunluqla qeyd edildi. Bu baxımdan BMT-nin Avropa üzrə İqtisadi Komissiyası ilə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olundu.

Söhbət zamanı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya" - Espo Konvensiyasının əhəmiyyətinə toxunuldu, bu Konvensiyanın regionda təşviqinin, bölgədə su hövzələrinin və çayların ekoloji təmizliyinin təmin olunmasının, sərhədyanı zonalarda, xüsusilə də mədən sənayesi ilə əlaqədar işlərin aparılmasında qonşu dövlətlərin narahatlıqlarının nəzərə alınmasının vacibliyi qeyd edildi.

# İƏT-in əmək nazirləri Bakıda

**İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin Bakıda keçirilən 5-ci konfransının Nazirlər Sessiyası keçirilib.**




Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İƏT-ə üzv dövlətlərin əmək nazirlərinin Bakıda keçirilən 5-ci konfransının iştirakçılarına ünvanladığı müraciət səsləndirilib. Müraciətin mətnini Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov oxuyub.

Sessiyada İƏT əmək nazirlərinin 4-cü konfransının sədri kimi Səudiyyə Ərəbistanı Krallığının insan resursları və sosial inkişaf nazirinin müavini Adnan Abdulla Al Nuaimin çıxışı dinlənilib. Sonra konfransın sədri və bürosunun tərkibi seçilib.

Konfransın sədri seçilmiş Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev İƏT-in bu konfransının üzv ölkələrin əlaqələrinin genişlənməsinə, fəal təcrübə mübadilələrinə imkan yaratdığını vurğulayıb.

Sahil Babayev Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanda vətəndaş rifahının təminatı sahəsində aparılan islahatları, ölkəmizdə son 5 ildə sosial ödənişlərdəki ciddi artımları, DOST Konsepsiyasının və sosial sahədə geniş elektronlaşdırma proqramının nailiyyətlərini diqqətə çatdırıb.

İƏT-in Baş katibi Hissein Brahim Taha bu konfransın üzv ölkələr üçün önəmindən bəhs edib, müzakirə olunan məsələlərin həllində əməkdaşlığın genişlənməsinin vacibliyini qeyd edib.

İƏT Əmək Mərkəzinin Nizamnaməsinin 6 ölkə tərəfindən imzalanıb. Bununla da Nizamnaməni imzalayan ölkələrin sayı 16 olub.

Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Qilbert Hungbonun konfrans iştirakçılarına videomüraciəti təqdim edilib. O, İƏT-in Bakıda Əmək Mərkəzinin açılması münasibətilə təbrikini ifadə edib.

*XQ*

# Delimitasiya üzrə komissiyaların görüşü olacaq

**Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyaların növbəti görüşü noyabrın 30-da keçiriləcək.**

Əldə olunan razılaşmaya əsasən, həmin gün iki ölkə arasındakı sərhəd bölgəsində Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyasının Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın növbəti 5-ci iclası keçiriləcək.

# XİN-də xarici diplomatlarla görüşlər



**Noyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı həftəsi çərçivəsində ölkəmizdə səfərdə olan BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçan ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə UNECE arasında əməkdaşlıq gündəliyi və perspektivləri, eləcə də SPECA daxil olmaqla, ölkəmizin Orta Asiya ilə əlaqələri və bu çərçivədə UNECE-nin mümkün rolu müzakirə olunub.

Nazir Ceyhun Bayramov UNECE-nin əhatə dairəsinə daxil olan ətraf mühit, enerji, şəhər planlanması və s. istiqamətlərdə birgə səylərin artırılmasının vacibliyini vurğulayıb. SPECA-nın əsasının qoyulmasından etibarən ölkəmizin bu platforma çərçivəsində fəaliyyətə fəal töhfə verdiyini, bu istiqamətdə, xüsusilə Mərkəzi Asiya ölkələri ilə üçtərəfli əməkdaşlıq formatlarının mövcudluğunun birgə uğurlu layihələrin həyata keçirilməsinə daha böyük təkan verdiyini diqqətə çatdırıb.

2023-cü ildə SPECA-ya sədrliyimiz dövründə bu platforma çərçivəsində əməkdaşlığın gücləndirilməsi, habelə SPECA ölkələrinin ikitərəfli, regional və beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində Azərbaycanın səylərindən bəhs edən nazir Ceyhun Bayramov, Bakıda keçirilən SPECA həftəsi çərçivəsində baş tutacaq SPECA Sammitinin bu səylərin vacib nəticələrindən biri olduğunu qeyd edib.

Tatyana Molçan, Azərbaycanın SPECA-ya sədrliyi dövründə onun müasir dövrün çağırışlarına uyğun platformaya çevrilməsi istiqamətində göstərdiyi səylərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə növbəti gün Bakıda keçiriləcək SPECA Zirvə görüşünün regional və beynəlxalq çağırışların fonunda Proqram çərçivəsində əməkdaşlığın gücləndirilməsində əhəmiyyətli rol oynayacağına dair ümidvarlıq ifadə olunub.

***

**Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə də görüşüb.**

Görüşdə Azərbaycan və Macarıstan arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, sülh gündəliyinin irəli aparılması istiqamətində Azərbaycan tərəfindən atılmış son addımlar, ölkəmizin mövqeyi barədə qonağa məlumat verib.

Nazir Peter Siyarto Macarıstanın Azərbaycanla strateji xarakter daşıyan münasibətlərin daha da inkişafında maraqlı olduğunu, bu xüsusda mövcud potensialdan istifadənin zəruriliyini qeyd edib.

*XQ*

# Özbəkistan Prezidentinin Azərbaycana işgüzar səfəri



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Şavkat Mirziyoyevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Macarıstanın Baş naziri Azərbaycanda



**Macarıstanın Baş naziri Viktor Orban noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Viktor Orbanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# İrəvan seçim etməlidir: silahlanma, yoxsa sülh?

## Paşinyan hökuməti uzaq ölkələrdən imdad diləməkdən əl çəkib Azərbaycanla ikitərəfli danışıqlara başlamalıdır

(əvvəli 1-ci səhifədə)

Rusiyalı hərbi ekspert Ruslan Puxov isə Ermənistanın Hindistandan və Fransadan aldığı silahlar barədə deyib ki, İrəvanın bu addımı daha çox siyasi gedişdir. O, "Nyus.am" saytına bildirib ki, Ermənistanın bu addımı Fransa və Hindistana təşəkkürün ifadəsidir. İrəvan bununla beynəlxalq platformalarda Paris və Nyu-Dehlinin dəstəyinə ümid edir.

Hərbi ekspert qeyd edib ki, Ermənistan Hindistandan silah alan ilk dövlətdir və həmin silahların reallıqda – hərb meydanında nə dərəcədə səmərəli olacağı məlum deyil. Bu isə Ermənistan üçün ciddi risklər yaradır. Yeni silahları Ermənistan–Rusiya vahid müdafiə sisteminə inteqrasiya etmək də çətin olacaq. O, İrəvanın Nyu-Dehlidən silah almasının daha çox siyasi qərara bənzədiyini bildirib və Hindistandan silah alınmasının riskləri barədə xəbərdarlıq edib: "Hindistan, sözsüz ki, hərbi texnologiya sahəsində son zamanlar kəskin sıçrayış edən ölkədir, lakin başa düşmək lazımdır ki, ixracatın ilk müştərisi olmaq risklidir".



Ruslan Puxov hesab edir ki, bu qərar Ermənistan üçün əhəmiyyətli risklər daşıyır: "Güman edirəm ki, hindistanlı tərəfdaşlar Ermənistanın belə bir riskinə görə ona endirim ediblər".

Hərbi ekspert deyib: "Bir məqamı yadda saxlamaq lazımdır ki, sülh və müharibə dövründə silah-sursat almaq arasında fərqlər var. Sülh dövründə silah almaq planlı alış-veriş həyata keçirmək deməkdir. Müharibə zamanı silah almaq isə başqa işdir. Həmin silahı istənilən an istifadə etmək lazımdır. Sülh dövründə Hindistan silahlarını almaq yaxşı addımdır, çünki silahlarla yanaşı beynəlxalq təşkilatlarda sizə dəstək, lehinizə səs verə biləcək Nyu-Dehlinin mövqeyini alırsınız və sair. Ona görə də Ermənistanın Hindistan silahı alması daha çox siyasi qərardır. Ancaq hansısa anda "xam" silahdan istifadə etmək lazımdırsa və əgər Rusiya onu təmin etmək iqtidarında deyilsə, işlənmiş Amerika analoqunu almaq daha yaxşıdır".

Ruslan Puxov qeyd edib ki, Ermənistan antidronlarla yanaşı, tamamilə digər çaplı haubitsalar və yaylım atəşi sistemləri də alır: "Bütün atəş sistemlərinin uyğunluğunu təmin etmək olduqca çətin məsələdir. Bundan əlavə, sənədlər ingilis dilindədir, bu da tətbiqi çətinləşdirir. Bununla yanaşı, atəş sistemlərindən fərqli olaraq, eyni fransız radarları Hindistan antidronları ilə asanlıqla uyğunlaşır. Ancaq məndə belə bir təəssürat yaranır ki, Ermənistan müharibə üçün silah almır, Fransa və Hindistana siyasi təşəkkür edir. Texniki məsələlərə baxılıb? Yoxsa artıq döyüşə ehtiyac qalmadığı, amma silah-sursat alınması hesabına Ermənistanın Hindistan və Fransa ilə dost olacağı ehtimalından çıxış ediblər?"

Qeyd edək ki, oktyabrın 23-də Parisdə Ermənistan və Fransa müdafiə nazirləri – Suren Papikyan və Sebastyan Lekornyu "Thales" şirkətinin istehsalı olan üç ədəd "GM 200" radarının alqı-satqısına dair müqavilə və gələcəkdə Fransanın "Mistral" qısamənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu imzalayıblar.

Fransa da artıq Ermənistana "ACMAT Bastion" zirehli nəqliyyat vasitələrini tədarük edib. Noyabrın 11-dən 12-nə keçən gecə Gürcüstanın Poti limanında Ermənistan ordusuna çatdırılması üçün nəzərdə tutulan həmin çoxməqsədli zirehli maşınlar və müxtəlif hərbi avadanlıqlar yüklənərək göndərilib.

Bundan əvvəl isə media subyektləri Ermənistanın Hindistanla ZADS (Zen Anti-Drone System) adlanan anti-dron sisteminin alınması məqsədilə 41,5 milyon dollarlıq müqavilə imzaladığını yazmışdı. Hindistan tərəfdən sazişə "Zen Technologies" şirkətinin Heydərabaddan olan nümayəndələri imza atıblar. Şirkət həm sistemin özünü təmin edəcək, həm də operatorlara ondan istifadə etməyi öyrədəcək. Media yazır ki, "Zen Anti-Drone System" etibarlılığını sübut etmiş və artıq Hindistan Hərbi Hava Qüvvələri tərəfindən istifadə edilən sistemdir. Bundan əlavə, Ermənistan Hindistandan "MArG 155" adlanan təkərli özüyeriyən haubitsalar və "Pinaka" reaktiv yaylım atəşi sistemləri də alıb.

Noyabrın 15-də yayılan xəbərdə Hindistanın Ermənistana iki cür qumbara tədarük edəcəyi bildirilib. Qeyd edilib ki, "Munitions India Limited" şirkəti tərəfindən Ermənistana 30 və 40 mm kalibrli 150 min ədəd qumbara çatdırılacaq. Mənbə yazır ki, "MIL" şirkəti isə iki ay əvvəl Ermənistana 5 milyon ədəd 7,62 millimetrlik patron tədarük edib.

Azərbaycanın hərbi gücü qarşısında Ermənistanın aldığı silahların bölgədə yaranmış yeni reallıqları dəyişə biləcəyinin mümkünsüz olduğu yerli və xarici hərbi ekspertlər tərəfindən dəfələrlə qeyd olunmuşdur. Ancaq indi rusiyalı ekspertin dedikləri məsələyə başqa rakursdan yanaşmağa imkan verir. Məlum olur ki, İrəvan bununla Hindistan və Fransanın siyasi dəstəyini qazanmağa çalışır. Ancaq görünür, Nikol Paşinyan hökuməti Azərbaycanın siyasi-diplomatik cəhətdən də mövqelərinin güclü olduğunu nəzərə almır. Ölkəmiz beynəlxalq birliyin fəal üzvü olmaqla dünya ölkələri və beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır.

Küncə sıxışdırılmış, hətta son zamanlar strateji müttəfiqi Rusiya ilə münasibətlərdə ciddi problemlər yaşayan Ermənistan isə Fransa və Hindistandan mədəd ummaqdadır. Amma Ermənistan rəhbərliyi bölgədən kənarda yerləşən ölkələri buradakı proseslərə cəlb etməyə çalışmaqdansa, sülh danışıqlarındakı durğunluğun regionda sabitliyə və firavanlığa töhfə vermədiyini anlamalı, sülh müqaviləsinin mümkün qədər tez tamamlanması üçün ölkəmizlə ikitərəfli əsasda birbaşa danışıqlara başlamalıdır.

### Ekspert rəyi



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

– Ermənistanın Hindistandan antidronlar alması faktı var. Amma Azərbaycanda həmin silahlar hələ Vətən müharibəsindən öncə də var idi. Burada təəccüblü bir şey yoxdur. Hindistanın Ermənistana satdığı silahlar ölkəmizə ciddi təsir edə biləcək gücə malik deyil. Ordumuzda həmin antidronlara qarşı radioelektron mübarizə vasitələri mövcuddur. Radioelektron mübarizə vasitələri həmin antidronların işini poza bilirlər.

Fransanın Ermənistanı silahlandırması barədə də son zamanlar çoxlu məlumat yayılır. Mən deyərdim ki, bu da daha çox siyasi xarakter daşıyır. Azərbaycanda belə bir ifadə var: "Yağmasa da guruldamaq". Fransanın Ermənistanı silahlandırması bu ifadəyə uyğundur. Birincisi, bu qədər söhbət getməsinə baxmayaraq, Fransa Ermənistana indiyədək cəmi iki radiolokasiya stansiyası və "Bastion" zirehli nəqliyyat vasitəsi göndərib. İkincisi, Fransa başda olmaqla kollektiv Qərbin Ermənistana silah satışı ətrafında səs-küy yaratmasında məqsədləri var. Əsas məqsəd bölgədə Rusiyanın maraqlarını məhdudlaşdırmaq və Moskvanı buradan çıxarmaq üçün ab-hava, şərait yaratmaqdır. Digər məqsəd isə İrandır. ABŞ da daxil olmaqla, Qərbin İran sərhədləri yaxınlığında yerləşməsi üçün Ermənistana vermədiyi vəd qalmayıb. Digər tərəfdən, Qərb Türkiyənin burada mövcudluğuna sevinmir. Ermənistanın silahlandırılması Türkiyənin regionda maraqlarını məhdudlaşdırmaq və təsirini azaltmaq üçün atılan addımdır.

Bundan əlavə, regionda çox böyük gələcəyi olan tranzit-logistika layihələri ətrafında iş gedir. Avropa, xüsusilə Fransa qıraqda qalmaq istəmir və öz maraqlarını təmin etməyə çalışır. Ancaq düşünmürəm ki, onların planları hansısa şəkildə həyata keçirilə bilsin. Belə düşünmək üçün əsaslar var. Birincisi, Fransa, ABŞ uzaqdadır. İkincisi, Rusiya və İran Avropanın, ABŞ-ın burada mövcudluğuna qarşıdırlar.

Rəsmi İrəvan dərk etməlidir ki, iki ölkə gələcək münasibətləri barədə qərarı hansısa uzaq ölkələrin iştirakı ilə yox, birlikdə verməlidirlər. Ermənistan silahlanma marafonundan əl çəkməli, sülh masası ətrafında əyləşərək Azərbaycanla konstruktiv danışıqlar aparılmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Sülh sazişində şərik olmur

## Nə Azərbaycanın vasitəçiyə ehtiyacı var, nə də Ermənistanın



(əvvəli 1-ci səhifədə)

### Vasitəçilərsiz dialoqa start

Azərbaycan Xarici İşlər Nazirliyindən dünən verilən açıqlamaya əsasən, sərhədlərin delimitasiyası üzrə hökumətlərarası komissiyanın növbəti görüşü noyabrın 30-da Azərbaycan və Ermənistan arasındakı sərhəd bölgəsində keçiriləcək. Bunu İrəvan–Bakı birbaşa dialoqunun bərpası, vasitəçilərsiz sülhə nail olmanın ismarıcı kimi də qəbul etmək olar. Deyəsən, ikitərəfli dialoqun "buzu" əriməyə başlayıb. Göründüyü kimi, şərqli və qərbli dəstəkçilərinin təhriki ilə baş vurduğu diplomatik vurnuxmalardan yorulmuş Ermənistan hakimiyyəti sülhə vasitəçilərsiz də gəlməyin mümkünlüyünə inanıb. Görüşün harada keçiriləcəyi deyilməsə də, əsas müzakirə mövzusunun anklavlar məsələsi olacağı şəksizdir. Düzdür, baş nazir Paşinyan bir müddət əvvəl anklavlar məsələsinin sülh danışıqları zərfinə salınmasının tərəfdarı olmadığını bildirmişdi. Amma o da məlumdur ki, Azərbaycan tərəfi Qazaxın 7, Naxçıvanın 1 kəndinin qaytarılması tələbini danışıqların bütün platformalarında irəli sürüb.

Avropada və ABŞ-da alternativ sülh platformaları təşkil edənlərin özləri də son vaxtlar Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanmasının "tet-a-tet" formatının alternativsiz olduğunu açıq şəkildə dilə gətirirlər. Elə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin bir neçə gün əvvəl brifinqdə dedikləri bunun əyani təzahürü sayılmalıdır. "Vaşinqton Ermənistanla Azərbaycan arasında birbaşa müzakirələrə başlanılmasının tərəfdarıdır" – deyən Ağ Evin diplomatı iki ölkə arasında uzunmüddətli razılaşmanın əldə edilməsi üçün üzbəüz danışıqların aparılmasının vacibliyini önə çəkib.

"Bölgədə sülh və sabitliyin uzunmüddətli nizamlanmasına nail olmaq üçün Ermənistan və Azərbaycan arasında birbaşa sülh danışıqlarına təcili ehtiyac var". Bu sözləri Bakıya və İrəvana səfər edən Böyük Britaniyanın Avropa naziri Leo Dokerti deyib. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri kimi Böyük Britaniyanın Azərbaycana çoxdankı və etibarlı tərəfdaşı kimi dəstək verməsi təqdirəlayiq haldır.

### Əsas meyar ədalətli olmaqdır

44 günlük Vətən müharibəsində, eləcə də 24 saatlıq antiterror tədbirində Azərbaycan sadəcə özünün ərazi bütövlüyünü, suverenliyini təmin etmədi, həm də ədaləti bərpa elədi. Prezident İlham Əliyev Qarabağa səfərində bu barədə belə deyib: "Biz Ermənistanın ərazi bütövlüyünü tanıyırıq və bunda səmimiyik. Niyyətimiz başqa olsaydı, sentyabrın 20-də əməliyyat dayanmazdı. Bunu hamının bilməsini istəyirəm. Ermənistan rəhbərliyi və onların arxasında duranlar bunu bilməlidirlər. Mən bu mesajı Azərbaycana qarşı qəbuledilməz planlar quran tərəflərə verirəm, səbrimizlə oynamayın. Biz səbirliyik, amma qətiyyətliyik. Haqlı olduğumuzu sübut edə bilərik və bunu edirik. Bunu güclü olduğumuza görə yox, ədalətin bizim tərəfimizdə olduğuna görə edirik".

Bəli, Azərbaycan ədalətli və şəriksiz sülhün tərəfdarıdır. Onun əldə olunmasından ötrü qarşı tərəflə şəffaf dialoqa hazır olduğunu bildirib. Qalır sülh müqaviləsinin mətnində ortaya çıxan suallara bir yerdə cavab tapmaq.

**Sülh müqaviləsinin mətninin artıq razılaşdırıldığını, tərəflər arasında onlayn formatda işin davam etdiyildiyini söyləyən Milli Məclisin deputatı Rasim Musabəyov artıq təklif və düzəlişlərin mübadiləsinin aparıldığını vurğuladı:** "Bu proses artıq altıncı dəfədir baş verir. Yəni, Ermənistan və Azərbaycan xarici işlər nazirlikləri bu fəaliyyəti həyata keçirirlər. Elə məsələlər var ki, ortaq məxrəcə gəlməkdən ötrü üzbəüz əyləşib müzakirə edilməlidir. Bundan ötrü Brüsselə, yaxud Vaşinqtona getməyə ehtiyac yoxdur. Moskvanı ikitərəfli görüş yeri kimi ermənilər qəbul etmirlər. Həmin danışıqları şərti sərhəddə görüşən işçi qrupu apara bilər. Təxminən otuz il bundan əvvəl belə bir təcrübə Qazax və İcevanda sınaqdan keçib. O zaman Prezident Aparatının müşaviri qismində görüşlərin təşkilində iştirak edirdim. Bu, indi də mümkündür. Əsas maneə odur ki, İrəvan belə görüşlərə "daydayısız" gəlməkdən çəkinir. Fransa, Avropa İttifaqı, ya da ABŞ-ın yanında olmasını arzulayan ermənilər özlərinin yersiz iddialarının arxasında dura bilməyəcəyini başa düşürlər. Geri çəkilmək də istəmirlər. Amma reallıq onları buna sövq edəcək".



Tərəflərin iki-üç gün ərzində sülh mətninin razılaşdırılmış variantını əldə edə biləcəyinə inandığını deyən deputat bunun sadəcə çərçivə sazişindən ibarət olacağına diqqəti çəkdi: "Həmin sazişin imzalanması, əslində, Ermənistan və Azərbaycan arasında otuz il davam edən hərbi münaqişəyə son qoyacaq. O cümlədən, ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanmasının hüququ bazasını yaratmış olacaq. Hələlik sərhədin müəyyənləşdirilməsi məsələsinin müzakirəsi üçün iki ölkənin baş nazirlərinin müavinləri səviyyəsində görüş və danışıqlar planlaşdırılır. Ardınca xarici işlər nazirlərinin nümayəndələrinin də prosesə qoşulması variantı razılaşdırılarsa prosesin müsbət sonluğa çatacağına ümidləri artırır. İkitərəfli danışıqlar formatının mütəmadi olmasını arzulayır və təqdir edirəm".

### Sərhəddə, ya da Tbilisidə...

Sülh danışıqlarının son raundunun gerçəkləşəcəyi məkan kimi Tbilisinin də adı hallanmaqdadır. Bu ideyaya dəstək verən platforma olaraq "3+2" formulu da arsenalda saxlanılır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, hazırda Vaşinqtonun və Londonun birbaşa danışıqlarla bağlı mövqeyi rəsmi Bakının mövqeyi ilə üst-üstə düşür: "Azərbaycan Prezidenti İlham Əliyev də Ermənistanla birbaşa danışıqlar ideyasını dəstəkləyir. Danışıqları uzaq Vaşinqtonda, Brüsseldə və ya Moskvada davam etdirməyə ehtiyac qalmayıb. Çünki bu danışıqlarda nəticə yoxdur. İki variant var. Birinci variant – Azərbaycanla Ermənistan rəsmiləri arasında danışıqlar iki ölkənin sərhədində aparılır. Azərbaycanın sabiq Prezidenti Heydər Əliyev 2000-ci illərin əvvəllərində erməni həmkarı Robert Köçəryanla Naxçıvanla sərhəddə görüşüb müzakirə aparmışdılar. Bu təcrübəyə dönməyə ehtiyac var. İkinci variant – Azərbaycan və Ermənistan rəsmiləri danışıqları Cənubi Qafqazın üçüncü dövləti Gürcüstanda aparırlar. Bu da tərəflər üçün faydalıdır".

E.Şahinoğlunun fikrincə, Azərbaycan və Ermənistan hər tərəfdən 5 və ya 10 mütəxəssisdən formalaşan birgə qrup yaratmalı və bu qrup Tbilisidə daimi əsasda müzakirələrə başlamalıdır: "Azərbaycan və Ermənistan sərhəddə, və ya Tbilisidə danışıqlara başlayarlarsa və bu, davamlı hal alarsa nəticə əldə etmək mümkündür. Azərbaycan hökuməti təklifləri İrəvana göndərir, Ermənistan hökuməti aylar sonra təkliflərini Bakıya göndərir. Bu da nəticə vermir. Birbaşa danışıqları genişləndirməyə ehtiyac var. Daimi komissiya sülh sazişi, sərhədlərin müəyyənləşdirilməsi və dəhliz mövzusunda müzakirələr aparmalı, yekun sənədi iki ölkənin liderinə təqdim etməlidir. Sülh sazişinin qısa zamanda imzalanması Azərbaycan və Ermənistan üçün əhəmiyyətlidir. Bu, baş verməsə böyük dövlətlərin Cənubi Qafqaz uğrunda rəqabəti sərtləşəcək. Ermənistanın Qərbə yaxınlaşmaq siyasəti Azərbaycana qarşı müxtəlif istiqamətlərdən təzyiqi artırıb. ABŞ və Avropa İttifaqında anti-Azərbaycan açıqlamaların sayı artıb. Halbuki, Azərbaycanla əməkdaşlığı davam etdirməkdə maraqlı olan Vaşinqton və Brüssel Bakı münasibətləri gərginləşdirməməlidir. Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanarsa bu təzyiqlər də azalacaq".



### Heç vaxt olmadığı qədər real

"Azərbaycan və Ermənistan otuz il ərzində vasitəçilik prosesində iştirak ediblər. Onlar indi elə bir səviyyəyə çatıblar ki, ölkə liderlərinin dediyi kimi, ərazi bütövlüyünü qarşılıqlı tanımaqla 5 əsas prinsip üzrə razılığa gəliblər və sülh sazişini imzalamağa hazırdırlar".

**Bu sözlərin müəllifi, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Mettyu Brayza** hesab edir ki, daha İrəvanın və Bakının vasitəçiyə ehtiyacı yoxdur: "İkitərəfli dialoq prosesinə mane olan yeganə səbəb Qarabağdakı separatçı rejim və qeyri-qanuni silahlı birləşmələr idi. Bu problem aradan qaldırıldı və iki liderin sülh sazişi üzrə razılığa gəlməsi üçün real şərait yaranıb. Hazırda bu razılaşma heç vaxt olmadığı qədər real görünür. Prosesin qarşısını Nikol Paşinyanın əleyhdarı olan erməni radikal millətçilərinin, habelə ABŞ-dakı diasporları nümayəndələrinin siyasi sabotaja əl atmaları ala bilər".



Paşinyan başa düşür ki, nəqliyyat kommunikasiyaları bərpa olunacağı təqdirdə bu xətt Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirməklə yanaşı, eyni zamanda, Ermənistan iqtisadiyyatının regional iqtisadiyyata reinteqrasiyası üçün şərait yaradacaq.

Bundan ötrü isə bölgədə möhkəm və uzunmüddətli sülh olmalıdır. Bakı öz qapılarını sülhün üzünə çoxdan açıb. İndi İrəvanın oxşar addımı atacağı vaxtı gözləyir. Vaxt isə hamıdan çox Ermənistan üçün qızıldır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan diasporasının formalaşması Heydər Əliyevin müstəsna xidmətlərindəndir

**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.**

**(əvvəli qəzetin 21 noyabr 2023-cü il tarixli sayında)**



**– Dünyada Azərbaycan diasporası və onun gənc müstəqil ölkəni dəstəkləməsi 1990-cı illərin əvvəllərində şirin bir arzu olsa belə, əslində bir xəyal idi. Dünyaya səpələnmiş azərbaycanlılar haqqında az-çox məlumatlı olsaq da, onların təşkilatlanması, deyək ki, erməni diasporu kimi fəaliyyət göstərməsini deyə bilmərik. Müstəqilliyin ilk illərində buna cəhdlər edildimi? Heydər Əliyevin qayıdışından sonra diaspora quruculuğu işi hansı səviyyədə idi?**

– Etiraf etmək lazımdır ki, dünyada Azərbaycan diasporasının yaranması, təşkilatlanması və ciddi işlər görməyə başlaması bilavasitə ümummilli lider Heydər Əliyevin müstəsna xidmətidir. İstərdim məsələnin tarixinə bir ekskurs edək ki, bu fikrimin nəyə əsaslandığını oxucularımız da aydın görsünlər.

Əvvəla, ötən əsrin 70-80-ci illərində Heydər Əliyev qətiyyəti, müdrikliyi və cəsarəti sayəsində Azərbaycanın bütün dünyada tanınmasına yönəlmiş çox mühüm addımlar atılmışdı. Əlbəttə, qırmızı imperiyanın amansız təqibləri üzündən diaspor quruculuğu ilə açıq və sistemli şəkildə məşğul olmağa imkan yox idi. Amma mədəniyyət, incəsənət, elm sahəsində ciddi işlər aparılır və respublikanın nailiyyətləri təbliğ olunur, açıq-gizli dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək imkanlardan istifadə etməyəyə çalışırdılar. Bu işdə, təbii ki, Heydər Əliyevin təşəbbüsü və ideyası ilə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti, sonradan adı "Vətən" cəmiyyəti olan qurum yaradıldı və bu qurum soydaşlarımızın birliyinə və Vətənlə əlaqələr qurmalarına yol acdı.



İkinci mühüm məsələ, Heyrdər Əliyev hakimiyyətinin ilk dövründə – 1970-ci illərdə azərbaycanlı tələbələrin kütləvi şəkildə SSRİ-nin ayrı-ayrı şəhərlərinə, çox yüksək təhsil verən institut və universitetlərinə göndərilməsi idi və həmin illər yəqin ki, sizin yeniyetməlik, gənclik dövrünüzə təsadüf etdiyindən, siz də yaxşı xatırlayarsınız. Qısaca, bir faktı deyim: O illərdə SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı qazanmış 20 minə yaxın azərbaycanlı gənc Sovet İttifaqının 50-dən çox böyük şəhərinin 170-dən artıq ali təhsil ocağında Azərbaycanda zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə təhsil alıb. Təbii, bunların bir çoxu ali məktəbi bitirəndən sonra təhsil aldıqları şəhərlərdə qalıb əmək fəaliyyətinə başlayırdılar. Bir çoxu gəlib Azərbaycanda evlənib ailəsini götürüb gedirdi.

Üçüncü, Heydər Əliyevin Moskvada SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, nəhəng dövlətin hökumətinin ikinci şəxsi kimi fəaliyyəti nəinki SSRİ-nin bütün respublikalarına səpələnmiş azərbaycanlılar, hətta dünya azərbaycanlıları arasında milli təfəkkürün güclənməsində xüsusi rol oynadı. Heydər Əliyev artıq Azərbaycanın simvoluna çevrilmişdi və xaricdə yaşayan gənclərimiz bu adla qürur hissi yaşayırdılar.

Dördüncü, artıq Heydər Əliyev Vətənə qayıdıb Naxçıvanda siyasi fəaliyyətə başlayanda 1991-ci ildə Muxtar Respublikanın Ali Məclisində məsələ qaldırıb 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi haqqında qərar qəbul olunmasına nail oldu. Bununla da kifayətlənməyib, bu tarixi günün bütün Azərbaycanda bayram kimi qeyd olunması ilə bağlı ölkə parlamenti qarşısında məsələ qaldırdı. Bütün bunlar onu göstərirdi ki, Ulu öndər Azərbaycan diasporasının formalaşmasına çox vacib bir məsələ kimi baxıb və davamlı olaraq, bu məsələni diqqətdə saxlayıb.

Qaldı müstəqilliyimizin ilk illərinə, bu məsələ AXC hakimiyyəti illərində gündəmə gətirildi. O zaman bu məsələni milli siyasət məsələləri üzrə dövlət müşaviri kimi fəaliyyətə başlayandan az sonra mən qaldırdım. Buna qədər belə bir məsələ ümumiyyətlə kimsənin yadına düşmürdü. İndi deyirlər, xarici ölkələrdə 50 milyon azərbaycanlı var, amma sizi inandırım, heç 50 nəfər tapmaq olmurdu ki, bir tədbirə cəlb edə bilək. Çünki əlaqələr yox idi.

Bu məsələnin vacibliyini nəzərə alaraq Əbülfəz Elçibəylə diaspora barədə söhbətimiz oldu və ona Dünya Azərbaycanlılarının I Qurultayının çağırılması haqqında təkliflərimi söylədim. İnsafən, təkliflərimi qəbul etdi və qurultayın keçirilməsinə razılıq verdi. Amma bu şifahi həll ediləsi bir məsələ deyildi. Ona görə mənim rəhbərliyimlə Dünya Azərbaycanlılarının birinci qurultayının çağrılması ilə bağlı sərəncam layihəsi hazırladıq və mən onu Prezidentin katibliyinə təqdim etdim. Burada Təşkilat Komitəsinin heyəti, sədr, iştirak edəcək müvafiq nazirliklər və sair məsələlər əksini tapmışdı.

Bir neçə günlük ölkəmizin şimal regionlarına səfərə getdim. Şəkidən qayıdıb Qəbələyə çatanda məni qarşılayan rayon icra hakimiyyətinin başçısı dedi: "Hidayət müəllim, təbrik edirəm. Radioda indicə məlumat verildi ki, prezident Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi ilə bağlı sərəncam imzalayıb, sizi təşkilat komitəsinin sədr müavini təyin edib". Bu mənim üçün gözlənilməz idi, çünki bu vəzifə Baş nazirə, dövlət katibinə həvalə ediləsi bir vəzifə idi. Tədbiri keçirmək üçün yüksək səalhiyyəti olan məmur lazım idi ki, təçkilatı məsələləri həll etsin. Qayıdandan sonra Əbülfəz Elçibəylə görüşdüm və dedim: "Bəy, üstümə çox böyük yük qoymusunuz". Dedi: "Onu, ancaq siz edə bilərsiniz".

Müşavirliyi səfərbər edib çox ciddi şəkildə təşkilatçılıq işlərinə, xaricdə yaşayan tanınmış soydaşlarımız, onların yaratdıqları təşkilatlarla əlaqələr qurmağa başladıq. Sonra mənə müxtəlif yerlərdən təsirlər göstərməyə başladılar ki, qurultayı tez keçirək. O zaman Prezidentin mədəniyyət üzrə Nihat Çətinqaya adlı bir müşaviri var idi. Əvvəla, humanitar məsələlər üzrə dövlət müşaviri varsa, mədəniyyət üzrə müşavir kimə lazım idi, bilmirəm. Təbii ki, bu artıq bir qurum idi. Bu adamı Türkiyədən gətirmişdilər, o da dövlət idarəçiliyindən, prinsiplərindən tamam xəbərsiz idi. Yeri gəlmişkən, Əbülfəz Elçibəyin hərbi məsələlər üzrə müşaviri də türk idi. Bakıdan gedəndə mənim yanıma gəlib ağladı ki, Rəhim Qazıyev məni işləməyə qoymadı. Hətta bir dəfə Əbülfəz Elçibəy məndən soruşdu ki, "Bu Nihat bəy niyə istəyir ki, qurultay tez keçirilsin?" Dedim: "O, kiçik iş adamıdır 20-30 iş adamını başına toplayıb, onlarla yeyib-içir və istəyir ki, onların iştirakı ilə bu tədbiri yola verək".

Məsələni qəti şəkildə qoydum ki, qurultayı yəqin ki, bu il keçirə bilməyəcəyik. Çünki biz hələ yeni-yeni dünyadakı Azərbaycan cəmiyyətləri, təşkilatları ilə əlaqələr yaradır, onlara məktublar yazır, belə bir tədbirin keçirilməsi ilə bağlı təkliflər verməyi, münasibətlərini bildirməyi xahiş edirdik. Qurultayın keçirilməsinə hazırlıq üçün azı bir il vaxt lazımdır. Amma bu tədbiri keçirmək AXC hakimiyyətinə nəsib olmadı və çox keçmədi ki, Heydər Əliyev Bakıya gəlib haqqı çatan yerdə – Prezident kürsüsündə oturdu.

İlk dövrlər təbii ki, ölkədəki gərginlik, ağır iqtisadi durum və Ermənistanın Azərbaycana qarşı işğalçı müharibəsi davam etdiyindən bu məsələ arxa plana keçdi. Vəziyyət nizama düşəndən, atəşkəs əldə ediləndən sonra məsələni Ulu öndərə məruzə etdim. Yəni biz baxdıq ki, prezident bütün xarici ölkələrə hər hansı səfəri zamanı mütləq o ölkədəki azərbaycanlılarla görüşür. Heydər Əliyev etiraz etmədi, dedi: "Baxarıq".

**– Hidayət müəllim, Ümummilli liderin ilk xarici ölkəyə – Fransaya rəsmi səfəri zamanı mən də bunun canlı şahidi olmuşam. O zaman "Xalq qəzeti"nin əməkdaşı kimi Prezident Heydər Əliyevi müşayiət edən jurnalislər qrupunda təmsil olunurdum. Yadımdadır, Ulu öndər iş qrafikinin gərgin olmasına baxmayaraq, Avropada söz sahibi olan bu dövlətin azərbaycanlı vətəndaşları ilə çox maraqlı bir görüş keçirdi. Hamı heyrət və sevinc dolu baxışlarla müstəqil Azərbaycanın dövlət başçısını dövrəyə alıb, sanki Azərbaycanın müstəqilliyinin gerçək olduğuna arxayınlaşmaq üçün ciddi cəhdlə məhz Azərbaycan Prezidentinin əlini sıxmağa şans arayır, bunu qazanandan sonra isə bir çoxlarının, bəlkə də həsrəti uzun çəkənlərin gözündən sevinc yaşları gilələnirdi. Doğrusu, o zaman Ulu öndərin də səsində bir kövrəklik duydum.**

– Bəli, tamamilə doğru qeyd edirsiniz. Ümumiyyətlə, Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın – bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla hər hansı şəkildə bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin milli birlik simvoluna və milli ideologiyasına çevirmək üçün ən adi görüşdən belə istifadə edirdi.

Belə görüşlər sonrakı səfərlərdən çox böyük miqyas almağa başladı. Məsələn, Heydər Əliyev Almaniyaya rəsmi dövlət səfəri zamanı orada yaşayan azərbaycanlılarla o vaxtkı paytaxt Bonn şəhərində çox möhtəşəm bir görüş keçirdi. İnanın, Almaniyanın ucqar şəhərlərindən belə axışıb bu görüşə gəlmişdilər. Hotelin konfrans salonunda ayaqda durmağa yer yox idi. Gürcüstanda azərbaycanlılarla görüş Rustaveli adına teatrın böyük salonunda keçirildi. Eləcə də dünyanın başqa ölkələrində. Artıq biz də Ulu öndərin yaratdığı bu ənənəni davam etdirir, hara gedirdiksə azərbaycanlılarla sıx görüşlər keçirirdik.

İlk məruzəmdən sonra da iki dəfə də qurultay barədə ulu öndərə məruzəm oldu. Hardasa ilyarım ərzində müxtəlif vaxtlarda. Yenə eyni cavabları verdi ki, "baxarıq..." Sonra artıq dayandım və özlüyümdə düşündüm ki, Heydər Əliyev yəqin bunun vaxtının çatmadığını bilir. Hətta sonralar Heydər Əliyevin Milli Qəhrəmanlarla, həlak olan Milli Qəhrəmanların ailə üzvləri, din xadimləri, milli azlıqların nümayəndələri ilə ayrı-ayrılıqda keçirilən görüşlərində hiss etdim ki, ulu öndərin belə tədbirləri ləngitməsi heç də təsadüfi deyil. Çünki görüşlər, tədbirlər keçiriləndə özüm də dərk etməyə başlayırdım ki, bu görüşün vaxtı elə indi imiş, prezident bunu bilib bu vaxta salıb.

Vaxtın uzanmasına baxmayaraq, diaspora quruculuğu istiqamətində iş gedirdi. Məsələn, 1998-ci ilin mayında Heydər Əliyev məni ABŞ-a göndərdi, orada Amerika Azərbaycanlılarının Konqresində iştirak və çıxış etdim, Ulu öndərin konqresə təbrikini çatdırdım. Belə tədbirlərə Azərbaycanın yüksək vəzifəli rəsmi dövlət adamının gəlməsi oradakı soydaşlarımızı daha da ruhlandırır və bu işin ölkəmiz üçün nə qədər vacib olduğunun əhəmiyyətini çatdırırdı.

2001-ci ilin yazında Prezident Heydər Əliyev bizi topladı və onun göstərişi əsasında sərəncam hazırlandı. 23 may 2001-ci ildə sərəncam imzalandı və 1-2 noyabr Dünya Azərbaycanlılarının Birinci Qurultayının keçirilməsi tarixi bəyan edildi. Yəni, nə əvvəlki sərəncamı xatırladı, nə ad çəkdi, nə də bu barədə danışdı, sadəcə qurultayın keçirilməsi ilə bağlı təşkilatı məsələlər barədə tapşırıqlarını verdi. Hətta təşkilat komitəsi belə yaradılmadı, sadəcə bir müddət sonra Prezident Aparatının rəhbərinin sərəncamı ilə işçi qrupu yaradıldı. Təbii ki, mən də qrupun üzvü idim.

Doğrusu, bu işçi qrup bir iki dəfə toplandı, amma real olaraq elə bir iş görmədi. Əsas iş bizim müşavirliyin və onun rəhbəri kimi mənim üzərimdə idi. Dünyanın elə bir ölkəsi qalmadı ki, orada yaşayan azərbaycanlılarla əlaqə qurmayaq, məktub göndərməyək, izahat işləri aparmayaq. Başqa cür ola bilməzdi, çünki artıq sərəncamda konkret vaxt göstərilirdi və bu vaxta hər şey hazır olmalı idi.

Açığını deyim ki, bu işçi qrupun bəzi üzvləri ciddi cəhdlə bu işləri siyasiləşdirməyə başladılar. Guya bunlar Heydər Əliyevə sədaqət nümayş etdirmək istəyirlər deyə, təklif etdilər ki, ölkədən kənarda hakimiyyətə qarşı müxalifət olan diaspor üzvləri qurultaya dəvət edilməsin. Bu adamlar başa düşmürdülər ki, söhbət dünya azərbaycanlılarından gedir, nə müxalifət, nə qeyri-müxalifət. Onlara izah etməyə çalışdım ki, sonra soydaşlarımız bunu ciddi qəbul etməzlər, qurultay haqqında mənfi rəy formalaşar, belə etmək, Azərbaycan övladlarını dosta-düşmənə bölmək olmaz. Yenə mənə qarşı çıxdılar...

Soydaşlarımızın böyük bir hissəsi əsasən Rusiyada yaşayır, amma orda demək olar heç bir təşkilatlanma filan yox idi. O vaxta qədər müəyyən işlər görmüşdük, Moskvada səfirlikdə Rusiyaya yaşayan tanınmış azərbaycanlı soydaşlarımızla çox sıx görüşlərimiz olmuşdu. Orada bütün Rusiyanı əhatə edə biləcək bir təşkilat yaradılmalı idi. Prezident məni Moskvaya göndərdi və biz orda Rusiya Azərbaycanlıları Konqresini yaratmağa nail olduq. Rusiyanın çox hörmətli azərbaycanlı akademiki, məşhur həkim Məmməd Əliyev Konqresin sədri oldu. İndi Prezidentin köməkçisi vəzifəsində çalışan Zeynal Nağdəliyev Konqresin məsul katibi, aparatın rəhbəri oldu. Bir müddət sonra Moskvada "Prezident" hotelinin böyük konqres salonunda Rusiya Azərbaycanlılarının birinci qurultayı keçirildi. Rusiya hökumətinin yüksək vəzifəli məmurları, tanınmış dövlət xadimləri dəvət olunmuşdular və hamısı gəlib iştirak etdilər. Mən orda Ulu öndərin təbrik məktubunu oxudum və çıxış etdim. Hamı heyrət içində idi ki, "Allaha çox şükür, biz də belə yerdə rəsmi toplaşdıq". Bunlar çox böyük hadisə idi.

Biz əsasən səfirlər, konsullarla işləyirdik. O zaman müxalifət, iqtidar adamları söhbəti qalxanda, ABŞ-da fövqəladə və səlahiyyətli səfirimiz işləyən Hafiz Paşayevdən başqa heç kim məni müdafiə etmədi. Hafiz müəllimlə telefonla danışanda o, birmənalı mövqe nümayiş etdirdi və dedi, "doğru düşünürsünüz, bu məclisə ya hamı çağrılmalıdır, ya da heç kimi dəvət olunmamalıdır".

Bu məsələni tam hazırlayandan sonra Prezident Heydər Əliyevə məruzə etdim. Heydər Əliyev bununla bağlı bir-iki sual verdi. Soruşdu: "Sən əminsən ki, tədbirdə onlar bir insident törətməzlər?" Dedim: "Bəli, tam arxayınam. Orda başqa heç bir şey ola bilməz". Dedi: "Get hamısını dəvət et. O adamlara da mənim adımdan de, qərarım belədir".

Bundan sonra biz qurultaya nümayəndə seçməyi buraxdıq xaricdə yaşayanların öz ixtiyarına. Bu tam bir demokratik seçim oldu. Əlbəttə elə nüfuzlu və tanınmş azərbaycanlılar var idi ki, onların iştirakı çox vacib idi və onları biz özümüz dəvət etmişdik. Amma əsas seçimi onların ixtiyarına buraxmağımızın özü çox yaxşı təşəbbüs oldu.

Qurultay ərəfəsində Heydər Əliyev təkrar işçi qrupunun əsas üzvləri kimi bizi yanına dəvət etmişdi. Bu tədbirdə mən bir az çox danışdım. Məsələn, Mirzə Fətəli Axundovun 150 illik yubileyində də Ulu öndər onun kötükçəsini Yaponiyadan Bakıya gətizdirmişdi. Qəbulda Axundovun kötükcəsindən, özündən, Mirzə Fətəlinin valideynlərinin ayrılmasından, Axundovun atası anasının üstünə günü gətiriməsindən, anasının Fətəlinin atasından ayrılmasından danışdım. Fətəli qalmalıymış atasının yanında, amma çılğınlıq edib, anasıyla getmək istəyib. Böyük bacısı qoymayıb. Sonra Mirzə Fətəli özü yazır ki, "Mirzə Fətəli Axundov olmağıma görə bacıma borcluyam". İndi Mirzə Fətəlinin kötükcəsini tapa bilməməyimizdən ətraflı danışdım. Bu söhbətlər bir az uzun çəkdi. Əslində gördüm Prezidentin özü çox maraqla buna qulaq asır, deyə təfsilatı ilə söhbət etdim. Görüşdə iştirak edən yüksək vəzifəlilərdən biri sonra mənə telefon açıb dedi: "Prezident sənə çox hörmətlə yanaşır. Ayrı adam onun yanında o qədər danışa bilməzdi. Sən az qala bir saat danışdın".

Qurultay öz işinə başladı və həmin dövr üçün həqiqətən möhtəşəm keçdi. Təsəvvür edin ki, həmin ərəfədə dünyanın əksər ölkələrində 300-dən artıq azərbaycanlı icması və təşkilatı fəaliyyət göstərirdi və onların, demək olar hamısından nümayəndələr dəvət etmişdik. Ümumilikdə Qurultaya dünyanın 36 ölkəsindən 403 nümayəndə gəlmişdi, iştirakçıların sayı isə 1105 nəfər idi.

**– Ulu öndər qurultayın keçirilməsi, gedişindən razı qaldımı?**

– Qurultay çox yüksək səviyyədə keçdi. Ulu öndərin çıxışı elə ilk dəqiqədən bütün salonda iştirak edənlərin vətənpərvərlik duyğularını ehtizaza gətirdi, Vətən həsrətlilərinin qəlbini kövrəltdi. Xüsusilə Heydər Əliyev elə ilk sözündə deyəndə ki, "Sizdən çox şey tələb olunmur. Sadəcə, siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik. Azərbaycanlı həmvətənlərimiz, həmyerlilərimiz gərək yaşadığı hər yerdə digər xalqlara, millətlərə, yaşadıqları ölkənin vətəndaşlarına daim çatdırsınlar ki, bu gün Azərbaycan nədir, Azərbaycanın keçmişi nə olubdur, Azərbaycanın bu günü nədir, Azərbaycanın gələcəyi nədir?!"

Salonda oturanlar, ömrü boyu Vətən məsuliyyətinin nə demək olduğunu bilməyən qurultay iştirakçıları da bu sözlərin sehrindən uzun müddət çıxa bilmədilər. Siyasi ritorikadan uzaq və gerçək mənzərəni canlandıran Ulu öndərin müdrik sözləri, içində azacıq vətəndaşlıq hissi olan bir azərbaycanlını belə rahat buraxa bilməzdi və buraxmırdı da.

"Gülüstan" Sarayında verilən möhtəşəm ziyafət başa çatanda xeyli nümayəndə Ulu öndərin başına toplaşmışdı və heyranlıqla ona baxırdı. Yaxında durub bu mənzərəni seyr edir, ləzzət alır, həm də Prezidentin mənə bir sözü olacağını düşünüb gözləyirdim.

Qurultayın ertəsi günü ayrı-ayrı yerlərdə panel iclasları keçirildi. Hamısına baş çəkdim. İnanın, zallar dolu idi, hamı iştirak edirdi. Nümayəndələr son dərəcə məmnun idilər.

Sonra yekun iclası oldu və hamı öz razılığını ifadə etdi. Axşam qonaqlar üçün Prezidentin adından ziyafət təşkil edildi. İnanın elə bil milli bayrama toplaşmışdılar. Onların çöhrəsindəki sevinci görmək lazım idi...

10 il Ulu öndərin rəhbərliyi altında işlədim. Qurultaya qədər bir çox beynəlxalq miqyaslı, respublika əhəmiyyətli tədbirlər keçirmişdik. Heç bir tədbirdən sonra işçi qrupunu yığıb təşəkkür etməmişdi. Qurultay keçirilən günün səhəri Ulu öndər işçi qrupunu topladı və hamıya təşəkkür etdi. Sonra dedi: "Mənə bir çox nümayəndə heyətlərindən müraciətlər olub ki, onları qəbul edim. Hidayət, siz onları bir-bir qəbul edin. Baxın, kimlər sizin qəbulunuzla kifayətlənməyib, mənimlə görüşməkdə maraqlı olsa, deyin, mən onları qəbul edim. Yox, sizin qəbul etməyinizlə qane olarlarsa, onda ehtiyac yoxdur". Dedim: " Aydındır cənab Prezident!" Qonaqların əksəriyyəti "Avropa" hotelində qalırdı, onlara da bir rəhbər nümyəndə seçilmişdi. Siyahı tərtib edib mənə təqdim etdilər. Baxdım, çoxlu adamlar var. Onların hoteldə qalma vaxtı bizim hesaba bir həftə də uzadıldı. Səhər saat 10-dan axşam saat 8-ə qədər Prezident Aparatında bir-bir onları qəbul etdim.

İnanın, o qədər razılıq etdilər, Prezidentlə bağlı o qədər gözəl fikirlər söylədilər, minnətdarlıqlarını bildirdilər özümüz də məətəl qalmışdıq. Heyranlıqlarını gizlətmədən söyləyirdilər ki, indi biz Vətəndən arxası, dayağı olan bir azərbaycanlı kimi gedirik. Bir qonaq narazı getmədi və bir nəfər də təkid etmədi ki, prezident onu qəbul etsin. Çünki başa düşürdülər ki, dövlət başçısının daha vacib işləri var.Həm də dövlət başçısından heç bir xahişləri yox idi. Yalnız minnətdarlıq edirdilər.

Bundan bir neçə gün sonra Prezidentin qəbulunda oldum, gündəlik məsələlər haqqında məruzə edəndən sonra dedim: "Cənab Prezident, qurultaya gələn qonaqlar Sizə böyük minnətdarlıqlarını çatdırmağı xahiş etdilər və Azərbaycandan çox məmnun getdilər". Dedi: "Ayrı bir istəkləri, problemləri yox idi?" Dedim: "Yox. Bəzi xırda məsələlər vardı, onları da özüm yoluna qoydum".

Birinci qurultaydan sonra azərbaycanlılar dünyanın hər yerində səfərbər olmağa başladılar, təşkilatlandılar. Artıq başa düşürdülər ki, onların Azərbaycan müstəqilliyinin qorunmasına böyük faydaları dəyə bilər.

Qurultaydan sonra xaricdə yaşayan azərbaycanlıların təşkilatlanmasında yeni bir bir mərhələ başladı. Prezident Heydər Əliyev bu sahədə dövlət siyasətinin həyat keçirilməsini təmin etmək məqsədi ilə 2002-ci ildə "Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərman imzaladı. Daha sonra "Azərbaycan diasporu" anlayışı elə həmin ildə Milli Məclis tərəfindən qəbul olunmuş "Xaricdə yaşayan azərbaycanlılara münasibətdə dövlət siyasəti haqqında" , eyni zamanda "Xaricdə yaşayan soydaşlarımıza dövlət qayğısı haqqında" qanunlar qəbul olundu ki, bu da xaricdə yaşayan həmvətənlərimizə dövlət qayğısının hüquqi əsaslarını müəyyənləşdirdi.

Bir müddət sonra Ümummilli lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" məşhur kəlamı bütün dünya azərbaycanlılarının ən sevimli ifadəsinə çevrildi.

**– Hidayət müəllim, maraqlı söhbətə görə sizə təşəkkürünüzü bildirirk. Çox sağ olun ki, yorulmadan bizim suallara kifayət qədər müfəssəl cavab verdiniz.**

***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***
***XQ***

# Qazaxıstan, Qırğızıstan və Tacikistan prezidentlərinin Azərbaycana işgüzar səfəri




**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

* * *

Qırğız Respublikasının Prezidenti Sadır Japarov noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sadır Japarovu hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

* * *






Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon noyabrın 23-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Tacikistan Prezidenti Emoməli Rəhmonu hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 423** **Bakı şəhəri, 21 noyabr 2023-cü il**

***"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma xidmətinə görə ödəniş məbləğinin hesablanmasına dair metodologiya"nın təsdiq edilməsi haqqında***

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 fevral tarixli 2020 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulma xidmətinə görə ödəniş məbləğinin hesablanmasına dair metodologiya" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 425** **Bakı şəhəri, 22 noyabr 2023-cü il**

***"Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"nin 14-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 269 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1108; 2014, № 8, maddə 1006; 2017, № 4, maddə 638; 2018, № 9, maddə 1912) 1-ci hissəsinin "Kollegiyanın üzvləri:" bölməsi aşağıdakı redaksiyada verilsin:

**"Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisinin müavini

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Arxiv işinin təşkili, monitorinq və beynəlxalq əlaqələr şöbəsinin müdiri

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Milli Arxiv Fondu sənədlərinin komplektləşdirilməsi, qeydiyyatı və idarə arxivləri ilə iş şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Arxivinin direktoru

Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin direktoru.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Rəsmi İrəvan anti-Rusiya ritorikasında nələrə ümid edir?

**Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyanın ardınca ölkənin xarici işlər naziri Ararat Mirzoyan və müdaifə naziri Suren Papikyan noyabrın 21–23-də Minskdə keçirilmiş Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammiti çərçivəsindəki iclaslarda iştirakdan imtina etdilər. İrəvan – KTMT ziddiyyətləri fonundakı bu məsələ, heç şübhəsiz, Ermənistan – Rusiya münasibətlərindəki hazırkı gərgin fazanı müəyyənləşdirməkdədir. Mövcud durumda meydana bir sıra suallar çıxmaqdadır. Həmin suallardan ən vacibləri isə bunlardır: İrəvan KTMT ilə münasibətləri pozmağa nə qədər davam edəcək? Digər tərəfdən, Ermənistan bu strukturdan çıxmaq üçün rəsmi ərizə verəcəkmi?**

Qeyd edək ki, siyasi müşahidəçilər hazırda hər iki halın baş verə bilməsinin mümkünlüyü üzərində dayanmaqdadırlar. Nəzərə alaq ki, indi İrəvan de-fakto KTMT-dəki üzvlüyünə xitam vermiş vəziyyətdədir. Beləki, Ermənistanın qurumdakı nümayəndəsi geri çağırılıb, onun kəmlənməsinə töhfə vermir. Əvəzində avropalı parlamentarilərin alqışları və Qarabağdan köç etmiş ermənilərə yardım göstərmək üçün Ermənistanın büdcəsinə axan vəsait var. Yeri gəlmişkən, USAID rəhbəri Samanta Pauer rəhbərlik etdiyi qurumun bu yaxınlarda Ermənista-




yerinə yeni təyinat yoxdur. Ölkədə KTMT təlimləri keçirilmir, erməni iqtidarının təmsilçiləri təşkilatın digər üzv ölkələrində düzənlənən təlimlərə qatılmırlar, habelə İrəvan rəsmiləri mövcud platformadakı hadisə və proseslərə məhəl qoymur, ən əsası isə KTMT müşahidəçilərinin Azərbaycan – Ermənistan sərhədində müşahidə missiyası göndərmək təşəbbüsünü rədd edirlər. Bu mənzərəni tamamlayan isə Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyanın açıqlamasıdır.

E.Marukyan ötən həftə bir qədər də ultimativ formada bəyan edib ki, KTMT ilə bağlı yekun qərarlar təşkilatın ötən ilin sentyabrında yaşanmış (Azərbaycanın Ermənistana təcavüzü kimi qiymətləndirilmiş – red.) olayın rəsmən qınanıb-qınanmamasından asılı olaraq veriləcək. Yəni, İrəvan müəyyənləşdirəcək ki, qurumda qalacaq, ya yox. Hər halda erməni iqtidarı yaxşı fərqindədir ki, KTMT müstəvisində indiyədək Azərbaycana qarşı hər hansı addım atılmayıbsa, indən belə də heç nə dəyişməyəcək. Deməli, Marukyanın danışdıqlarının heç bir əsası yoxdur.

Bəli, hazırda Ermənistanın Rusiyanın hakim rol oynadığı KTMT-yə üzvlüyü yalnız proforma xarakteri daşıyır. Əslində, baş nazir Nikol Paşinyanın quruma heç vaxt isti münasibəti olmayıb. O, hələ müxalifətdəykən, bu struktura üzvlüyü tənqid edib. Hakimiyyətə gəldikdən sonra isə KTMT-nin baş katibi Yuri Xaçaturova qarşı cinayət işinin açılmasına nail olub. Qeyd edək ki, həmin vaxt məsələ, bir növ, bomba effekti yaratmışdı. Nikol indi, necə deyərlər, finişə yaxınlaşmaq üzrədir. O, təşkilatın nüfuzuna ciddi zərbə vurmaqla məşğuldur. Əsas olan isə bütövlükdə, Rusiyanın Ermənistandakı nüfuzunun zədələnməsidir.

Bəs, Ermənistan bunun müqabilində nə əldə edir? Sual ritorik səslənir. Çünki İrəvanın hazırda əldə edəcəyi elə bir şey yoxdur. Üstəlik, Paşinyan iqtidarının mövqeyi ölkənin təhlükəsizliyinin möhna daha 4 milyon dollar ayırmağa hazır olduğunu açıqlayıb.

Daha bir sual: Moskva İrəvana zərbə vuracaq hansı addımları ata bilər? Yaxud Rusiya Ermənistana qarşı hansı addımları atmaqla ona cavab verə bilər? Şübhəsiz ki, məsələnin reallaşması tam mümkündür. Bu barədə Kremlin xatırlatması da var. Söhbət Moskvanın İrəvana Ermənistanın Rusiya və KTMT ilə sıx əməkdaşlıqdan qazandığı üstünlükləri yada salmasından gedir. İrəvanda Vaşinqtondan və Brüsseldən gələn nağd pul vəsaitlərinin Moskvanın sərt cavab tədbirləri nəticəsində dəyə biləcək ziyanı qarşılamayacağını gözəl bilsələr də, KTMT-dən ayrılma kursu götürürlər.

Bununla belə, Paşinyan iqtidarı ümid edir ki, Moskva sərt addımlar atmayacaq. Nikol və tərəfdarları düşünürlər ki, Rusiyada Ermənistanın sadə vətəndaşları ilə ölkənin hakimiyyət orqanlarının maraqları arasındakı fərqin başa düşülməsinə sərmayə yatıranlar var. Təxminən belə: rusların fikirlərinə görə, erməni iqtidarı hələ erməni əhalisi deyil və bu səbəbdən, obrazlı desək, Şimaldan "sərt küləklər" əsməz.

Ola bilər ki, Paşinyanın komandasının hesablanması özünü doğruldur. Ancaq bu mənzərə qıraqdan çox miskin görünür. Məsələ burasındadır ki, Ermənistan hakimiyyəti özünün bacarıqsızlığını və səriştəsizliyini, xüsusən də beynəlxalq siyasətdəki naşılığını bütünlüklə Rusiyanın boynuna yıxmaqla məşğuldur. Belə bir yanaşma, o cümlədən anti-KTMT ab-havası Qərbdən Ermənistana yeni pul vəsaitlərinin, ianələrin axınını şərtləndirir. Necə deyərlər, ikili oyun gedir. Rusiyanın Ermənistana qarşı sərt tədbirlərə getməyəcəyinə hesablanmış anti-Rusiya oyunu. Ancaq Nikol və komandası odla oynayır. Axı, pişik də bəzən balasını istədiyindən yeyir.

***R.ƏVƏZ***
***XQ***

# Zatulindən növbəti blef

## Rusiyanın Ermənistan itkisi ilə bağlı elegiya əvəzi

**Sən demə, Ermənistanda 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri zamanı ölkə müxalifəti dəstək üçün Rusiyaya müraciət edibmiş. Lakin Moskva kömək etməyib. Bu fikri "Qovorit Moskva" radiostansiyasına müsahibəsində Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası və həmvətənlərlə işləri üzrə komitə sədrinin birinci müavini, qatı ermənipərəst Konstantin Zatulin dilə gətirib. Baş nazir Nikol Paşinyanı tənqid edən Zatulin onun 2020-ci ilin Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra seçkilərə getməyə məcbur olduğunu bildirib.**

Rusiyalı parlamentari ölkəsinin Ermənistan müxalifətinə nə üçün kömək göstərməkdən imtinasına da aydınlıq gətirib. Onun sözlərindən belə çıxıb ki, N.Paşinyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı imzalayanlardan biridir və belə bir şəxsin hakimiyyətdən uzaqlaşması bölgədə yenidən hərbi əməliyyatlar riskini artıra bilərdi. Guya, Moskva bu səbəbdən 2021-ci ilin növbədənkənar parlament seçkilərinə qarışmamaq barədə qərar verib.

Əlbəttə, Zatulin danışıb gedir və heç bir dəlil-sübut təqdim etmir. Ancaq ümumən son dövrlər Ermənistanda baş verən prosesləri incələsək, onun sözlərinin həqiqətlə bir o qədər uzlaşmadığını söyləmək mümkündür. Yada salaq ki, 2021-ci il parlament seçkiləri zamanı Ermənistanın sabiq prezidenti Robert Koçaryan özünü Rusiyanın siyasi sahədə yeganə müttəfiqi kimi göstərirdi. Onun rəhbərlik etdiyi müxalifətin mitinqində Rusiya bayraqları dalğalanırdı. Koçaryan Ermənistanın təhlükəsizliyini ancaq Moskva vasitəsilə görürdü. O və komandası bu günə kimi Paşinyanı Kreml ilə münasibətləri korlamaqda ittiham edir.

Məlum olduğu kimi, R.Koçaryan Rusiya vasitəsilə pul qazanmış adamdır. Onun son vaxtlaradək idarə heyətinin üzvü olduğu Rusiyanın "Sistema" şirkətində payı olub. 2021-ci il seçkilərindən əvvəl isə şirkətdən çıxmaq qərarına gəlib. Belə bir ehtimal var ki, parlament seçkilərindəki məğlubiyyətdən sonra yenidən "Sistema"ya qayıdıb.

2022-ci ilin əvvəllərində Rusiya–Ukrayna müharibəsi başlamazdan əvvəl R.Koçaryan keçirdiyi mətbuat konfransında Ermənistanın Rusiya ilə münasibətlərini dərinləşdirməli olduğunu bəyan etmişdi. Hətta, Rusiya–Belarus İttifaq Dövlətinə qoşulmağı məqbul saydığını da açıqlamışdı. Lakin aylar sonra Rusiya müharibədə uğursuzluq zolağına düşəndə, Koçaryan bildirdi ki, ittifaq dövlətinə qoşulmaq üçün doğru zaman deyil.

Ümumən, Ermənistan parlamentindəki Rusiya yönümlü müxalifət birbaşa Moskvanın maraqlarına xidmət etməsi ilə seçilir. Onlar Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan tərəfində fəaliyyət göstərən Avropa İttifaqının müşahidəçilərinin işini səmərəsiz hesab edirlər. Bu qüvvələr Ermənistanın gələcəyini Aİ ailə-



sində, bütövlükdə, Qərb platformasında görmürlər, üstəlik, təhlükəsizlik sahəsində ABŞ və Fransa ilə dərin əməkdaşlığın qurulmasını rədd edirlər.

Ermənistandakı ruspərəst müxalifət, həmçinin ölkənin gələcəyini İran və Rusiya müstəvisində gördüyünü də bəyan edir. Bu qütbün nümayəndələri İrəvanın Azərbaycana və Türkiyəyə qarşı Rusiyanın qalasına çevrilməli olduğu fikrini bölüşürlər. Lakin onlar istər 2021-ci ildə, istərsə də ondan sonra Moskvanın dəstəyi ilə hakimiyyəti ələ keçirməyə ümid etsələr də, cəhdləri uğursuzluqla nəticələndi. Hazırda bir çox siyasi müşahidəçilər Rusiyanın Ermənistanda tamamilə nüfuzdan düşdüyünü və özünü rusiyapərəst mövqedən təqdim etməyə çalışacaq bütün qüvvələrin hakimiyyətə alternativ ola bilməyəcəyi fikrini qabardırlar.

Siyasi müşahidəçilər, eyni zamanda, Ermənistanın parlament müxalifəti ilə Kreml arasında əlaqənin olmasını 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə əlaqələndirirlər. Onlar həmin tədbirlər zamanı müxalifətin fəallaşması və iqtidarı istefaya çağırması üzərində dayanırlar. Lakin, məlum olduğu kimi, müxalifətin istəyi yenə də alınmamışdı. Baxmayaraq ki, küçələrə çıxmış, etiraz aksiyaları təşkil etmişdilər.

Haşiyə çıxaq ki, həmin vaxt Kremlin başlıca təbliğat maşınları sayılan Rusiyanın RTR telekanalının baş redaktoru Marqarita Simonyan və Vladimir Solovyov ermənilərə müraciət edərək, onları müxalifətin mitinqlərinə qoşulmağa çağırmışdılar. Erməni siyasilər Kremlin lokal xarakterli antiterror tədbirləri zamanı anti-Paşinyan təbliğatında başlıca məqamın Rusiyanın baş naziri Dmitri Medvedyevin sosial şəbəkə profilində paylaşdıqlarını göstərirlər. Qeyd edək ki, Medvedyevin hədə-qorxu və hiddət ruhlu paylaşımı Nikolun Rusiyaya qarşı çıxdığı üçün cəzalandırıldığına dair son dərəcə açıq eyham xarakteri daşımışdı.

Onu da bildirək ki, ruspərəst qüvvələrin aktivləşməsi fonunda Ermənistanda iqtidarın istefasını tələb edən nümayiş və aksiyalara Rusiyanın dəstəyi məntiqi bu addımların iflasa uğramasını şərtləndirən başlıca məqam rolunda çıxış etməkdədir. Siyasi müşahidəçilər bunu illərlə ölkəni talan etmiş Koçaryan–Sarkisyan rejiminə xalqın pataloji nifrəti ilə əsaslandırırlar. Nəzərə alaq ki, bu xunta birbaşa Moskvanın direktivlərini yerinə yetirirdi və məhz bu xuntaya görə Ermənistanda ciddi anti-Rusiya təmayülü indi də qalmaqdadır. Mövcud tendensiya isə ölkədə Paşinyan əleyhinə çıxanları dişsizləşdirir.

Deyilənləri nəzərə alaraq, belə qənaətə gəlmək mümkündür ki, K.Zatulinin söylədikləri gedən qatarın arxasınca baxmaqdan başqa bir şey deyil. Ermənipərəst parlamentari fikirləri ilə elə görüntü yaradır ki, sanki Rusiya istəsəydi, nə isə edərdi. Amma reallıq budur ki, Moskva istəyib, amma, əlindən heç nə gəlməyib. Və indiki durum həm də onu göstərir ki, Rusiya Ermənistanı itirib.

Yeri gəlmişkən, Moskvanın digər aktiv ermənipərəstləri kimi, K.Zatulinin də Ermənistana girişi qadağandır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Yaşıl sərvət”in əhatə dairəsi genişlənir

## 2030-cu ildə ölkəmizin ümumi güc istehsalında bərpaolunan enerjinin payı üçdə birə çatdırılacaq

**Hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istehsal edilən güc 1688 meqavat təşkil edir ki, bu da ümumi gücün, təqribən, 20 faizinə bərabərdir. Bununla belə, regionun alternativ və bərpaolunan enerji potensialının zənginliyi ilə seçilən ölkəmizdə bu göstəricinin artırılması üçün imkanlar çox yüksəkdir. Belə ki, təsdiqlənmiş proqnozlara görə, Azərbaycanın quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.**



Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz ölkəmizdə bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının hazırkı göstərici ilə müqayisədə daha 50 faiz artırılması, eləcə də, istixana qazı emissiyalarının 2050-ci ilə qədər 40 faizədək azaldılması nəzərdə tutulur. Eyni zamanda, yaxın illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerjinin 80 faizinin ixracı planlaşdırılır. Bu da ölkəmizin davamlı iqtisadi inkişafına mühüm töhfələr verəcək.

Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı (SPECA) həftəsi çərçivəsində keçirilən iqtisadi forumun “SPECA regionun qlobal bağlantı qovşağına çevrilməsi” mövzusunda baş tutan iclasında Azərbaycanın energetika nazirinin müavini Samir Vəliyev bildirib ki, 2030-cu ilə qədər ölkəmizdə ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payının 30 faizədək artırılması planlaşdırılır. Bununla belə, nazir müavini hesab edir ki, 2027-ci ilin sonunadək 1870 meqavat həcmində “yaşıl güc”lərin ölkənin enerji sisteminə inteqrasiyası nəticəsində bərpaolunan enerjinin payı proqnozlaşdırılmış hədəfdən daha çox, yəni 33 faizə çatdırıla bilər. Bu məqsədlərə nail olmaq üçün isə ölkəmizin energetika sektorunda islahatlar davam etdirilir.

Azərbaycanın Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (AREA) şöbə müdiri vəzifəsini icra edən Cəbrayıl Əliyev isə SPECA 2023 iqtisadi forumunda çıxışı zamanı deyib ki, 2030-cu ilədək ölkəmizdə 7 qiqavat həcmində bərpaolunan enerji üzrə layihələrin reallaşdırılması planlaşdırılır. Onun dediyinə görə, həmin layihələrdən əldə olunan enerjinin 2 qiqavatı daxili istehlaka sərf olunacaq, 4 qiqavatı Xəzər dənizindən Avropa İttifaqına ötürülücək, 1 qiqavatı isə Türkiyə və Avropaya yönəldiləcək.

Məlum olduğu kimi, ölkəmizin ümumi bərpaolunan enerji potensialının bir hissəsi işğaldan azad edilmiş ərazilərin payına düşür. Mütəxəssislərin araşdırmalarına görə, Qarabağ və Şərqi Zəngəzurda 4 min meqavatdan artıq günəş və 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızın bərpaolunan enerji potensialını nəzərə alaraq həmin əraziləri “yaşıl enerji" zonası elan edib.

Qarabağ və Şərqi Zəngəzurun əlverişli coğrafi şəraiti və iqlim xüsusiyyətləri, burada alternativ və bərpaolunan enerji mənbələrindən, o cümlədən günəş, külək və su resurslarından geniş istifadəyə münbit zəmin yaradır. Artıq həmin potensialın hərəkətə gətirilməsi istiqamətində konkret tədbirlərin həyata keçirilməsinə başlanılıb. Elə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri çərçivəsində “yaşıl enerji” layihələrinə üstünlük verilməsi də bunu deməyə əsas verir.

Yeri gəlmişkən, C. Əliyev deyib ki, işğaldan azad edilmiş ərazilərdə gerçəkləşdiriləcək layihələrdə “yaşıl texnologiya”ların və enerji səmərəliliyinin tətbiqi nəzərdə tutulur. Onun dediyinə görə, burada istər günəş panellərinin, istərsə də müasir tipli avtomobil dayanacaqlarının, elektrik avtomobillərinin təşviqi ilə bağlı hədəflər var.

Ölkəmizin aşağı karbonlu sənayenin inkişafı üçün böyük potensiala malik olduğunu bildirən “Boston Consulting Group”un nümayəndəsi Stanislav Yankeleviç isə Bakıda keçirilən SPE Xəzər texniki konfransında çıxışı zamanı bildirib ki, Azərbaycanda istehsal ediləcək “yaşıl enerji”nin əsas satış bazarı Avropadır. Artıq bərpaolunan mənbələrdən enerji tədarükü üzrə konkret layihənin də mövcudluğunu vurğulayan S.Yankeleviç ötən il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Gürcüstanın Qara dəniz sahillərindən Rumıniyanın Qara dəniz sahillərinədək elektrik kabelinin çəkilməsi haqqında sazişi xatırladıb. O deyib ki, saziş çərçivəsində Gürcüstan və Rumıniya arasında min meqavatadək gücə malik 1195 kilometr uzunluqda elektrik ötürmə xətti Azərbaycanda istehsal olunan 4 qiqavata qədər “yaşıl” elektrik enerjisinin Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniyaya, oradan isə Avropanın digər hissələrinə nəqli üçün nəzərdə tutulub.

Azərbaycanın bərpaolunan enerji potensialı beynəlxalq ekspertlər, eləcə də bu sahədə fəaliyyət göstərən mütəxəssislər tərəfindən də yüksək dəyərləndirilir. Məsələn, BP şirkətinin nümayəndəsi Christopher Meyer Bakıda keçirilən Xəzər Texniki Konfransı və Sərgisində deyib ki, Abşeron yarımadasının şelfində külək enerjisinin sıxlığı hər kvadratmetrə, təxminən, 9 min kilovat-saat təşkil edir. Bu da, ümumiyyətlə, Şimal dənizinin cənubu, Avropa və hətta ABŞ-ın şərq sahilləri ilə müqayisə oluna bilər. Şirkət nümayəndəsi ölkəmizin günəş enerjisi potensialının da yüksək olduğuna diqqət çəkib. Onun sözlərinə görə, Abşeronda günəş radiasiyasının sıxlığı hər kvadratmetrə, təqribən, 1500-2000 kilovat-saat təşkil edir ki, bu da Türkiyənin və İspaniyanın şimalında müşahidə ediləndən fərqlənmir. “Hazırda irimiqyaslı günəş enerjisi layihələrinə investisiyalar yatırılır. Hesab edirəm ki, Xəzər regionunun, xüsusən də Azərbaycanın bərpa olunan enerji mənbələrindən istifadə etməklə karbohidrogenlərin, eləcə də aşağı intensivliyi olan karbohidrogenlərin – neft və qaz boru kəməri vasitəsilə tədarükünü davam etdirmək üçün hər cür imkan var. Azərbaycan bu sahədə xüsusi rol oynayır”, – deyə o əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Azərbaycan Respublikasının Qırğız Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov bu ölkənin nüfuzlu vb.kg agentliyinə müsahibə verib. XQ aktuallığını nəzərə alaraq həmin açıqlamanı təqdim edir:**

# Azərbaycan “Bir kəmər-bir yol” layihəsində önəmli ölkədir

***–Cənab səfir, siz Çində 5 il səfir işləmisiniz və bu ölkəni yaxşı tanıyırsınız. Sizin fikrinizcə, “Bir kəmər-bir yol” layihəsi digər ölkələr üçün nə dərəcədə faydalıdır?***

–Azərbaycan qeyd etdiyiniz bu layihəni tam dəstəkləyir. Hələ 1998-ci ildə xalqımızın Ümummilli lideri Heydər Əliyev tarixi İpək yolunun bərpası təşəbbüsü ilə çıxış etdi. Dahi şəxsiyyətin səyləri ilə Azərbaycanda İpək yolunun bərpası və inkişafı ilə bağlı Bakıda keçirilən beynəlxalq forumda dünyanın 42 ölkəsinin nümayəndəsi iştirak etdi, onlardan səkkizi dövlət başçıları idi. Beləliklə, Azərbaycan Şərqin Qərblə birləşməsinə tam imkan verən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başladı.



Çin tərəfinin “Bir kəmər - bir yol” təşəbbüsü də Azərbaycanın maraqlarına tam cavab verir. Mən özüm də vaxtilə Çində işləmişəm və buna görə də əminliklə deyə bilərəm ki, “Bir kəmər - bir yol”, ilk növbədə, məhsulların birgə istehsalı, ümumi inkişaf və fayda deməkdir. Bu layihə yolun ətrafında olan bütün dövlətlərin inteqrasiyasını təmin edir. Bu marşrut Şərqi Çindən başlayır və Qərbi Avropanın son nöqtəsinə qədər uzanır. Bu isə xalqların iş qüvvəsi, istehsal amilləri hesabına inteqrasiyasını mümkün edir. Həmçinin Azərbaycanın bu layihəni dəstəkləməsinin əsas səbəblərindən biri yolun ölkəmizdən keçməsidir.

Ola bilsin ki, gələcəkdə bu beynəlxalq marşrutun ikinci istiqaməti– Zəngəzur dəhlizinin də işə düşməsi mümkün olsun. Zəngəzur dəhlizinin açılması ilə Qazaxıstan və Azərbaycanı Xəzər dənizi üzərindən birləşdirən Orta Dəhliz qurudan keçəcək və aradakı məsafə xeyli qısalacaq. Beləliklə, biz Avropa, Afrika və Yaxın Şərqə doğru başqa bir marşrut qazanacağıq.

***–Cənab səfir, belə bir mülahizə də yürüdürlər ki, “Bir kəmər-bir yol” layihəsi bir növ Qərb hegemonluğuna qarşı tarazlıq yaradır. Bu fikirlə razısınızmı?***

–Qeyd edim ki, heç bir yol başqa bir yola qarşı deyil. Bu cür layihələr yalnız bir-birini tamamlayır. Dünya hər kəs üçün kifayət qədər genişdir, sadəcə olaraq bir-birimizin maraqlarına hörmət etməliyik. Logistika imkanları nə qədər çox olarsa, dünya iqtisadi əlaqələri də bir o qədər inkişaf edər. Bu, o deməkdir ki, inteqrasiya proseslərinə getdikcə daha çox ölkə cəlb olunacaq.

Azərbaycan müstəqilliyinin ilk günlərindən dünyaya açıqdır, xüsusən də ulu öndərimiz Heydər Əliyev bu ideyanı irəli sürüb, ölkəmiz bu layihəni dəstəkləyib. Eyni zamanda, Qərbə doğru bir neçə layihə də həyata keçirmişik. Bunlar sonradan Trans-Adriatik və Trans-Anadolu layihələrində öz davamını tapmış Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləridir. Ona görə də Azərbaycan “Kəmər və Yol” layihəsinə tam şəkildə daxil olub və onun ən fəal iştirakçılarından biridir. Bizim Çinlə sıx əlaqələrimiz var və maraqlarımız, baxışlarımız tamamilə üst-üstə düşür.

# 10 ayda 416 milyon manat ipoteka krediti verilib

**Cari ilin yanvar-oktyabr aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 415,8 milyon manat kredit verilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 17,2 faiz çoxdur.**



Azərbaycan Mərkəzi Bankının məlumatına görə, hesabat dövründə fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 23,8 faiz artaraq 396,4 milyon manata çatıb. İlin ötən dövrü ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği isə 16,4 faiz artaraq 320 milyon manata çatıb. Bununla belə, fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği 8 faiz azalaraq 87,6 milyon manata düşüb.

***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda Böyük Qayıdışa təminat yaradılır

## Bu məqsədlə indiyədək 7 milyard dollar vəsait ayrılıb

**Son 10 il ərzində respublika iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə səmərəli inteqrasiya edib. Azərbaycan 4-cü Sənaye İnqilabının fəal mərkəzlərindən biri olmaqla xarici investorlar üçün böyük fürsətlər məkanına çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri-neft/qaz Ümumi Daxili Məhsul (ÜDM) isə 1,4 dəfə artıb. 2011-ci illə müqayisədə qeyri-neft/qaz ixracının 78,3 faiz artmasına nail olunub. Bu dövrdə həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişib, qeyri-neft sektorunun payı xeyli yüksəlib.**



Xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyib. Qeydiyyatda olan kiçik və orta sahibkarlıq subyektlərinin sayı 3,1 dəfə artıb, qeyri-neft/qaz ÜDM-də payı isə 23,7 faiz təşkil edib. Qeyri-neft/qaz ixracın 25,5 faizi kiçik və orta sahibkarlıq subyektləri tərəfindən həyata keçirilib.

SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə Azərbaycanın xüsusi təşəbbüsü ilə təşkil olunan sərginin stendlərində nümayiş etdirilən dövlət müəssisələri və özəl şirkətlər tərəfindən buraxılan məhsullarının nümunələri də yuxarıda vurğulanan göstəricilərin əyani ifadəsidir. Yeri gəlmişkən, Milli Stend iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf və innovasiyalar, nəqliyyat infrastrukturu və tranzit, energetika, müdafiə sənayesi, turizm, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı kimi istiqamətləri əhatə edir.

Sərginin İqtisadi inkişaf blokunda ölkəmizin zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modeli, rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində görülən işlər, iqtisadi-ticari əlaqələrə dair məlumatlar əksini tapıb. Blokda, həmçinin davamlı makroiqtisadi sabitliyi şərtləndirən amillərlə yanaşı, ölkə iqtisadiyyatına cəlb edilən investisiyalar, dövlətin dəstək mexanizmləri və reallaşdırılan dövlət proqramları barədə məlumatlar öz əksini tapıb. Burada qeyd edilib ki, son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı (ÜDM) 6,2 milyard dollardan 78,7 milyard ABŞ dollarına çatıb, yəni ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin gəlirləri isə 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib.

Sənaye blokunda isə ölkədə aparılan uğurlu sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, zəngin xammal resursları, sənaye istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi, sənayenin inkişaf istiqamətləri, eləcə də sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı barədə məlumatlar əks olunub. Belə ki, 2002-2023-cü illərdə ölkədə 4 min 95 sənaye müəssisəsinin yaradılması, 2002-ci ildə sənayedə istehsal həcminin 1,6 milyard dollar olduğu halda, ötən il bu rəqəmin 10,4 milyard dollara çatması diqqətə çatdırılıb.

Yeri gəlmişkən, bu göstəricilərin əldə olunmasında paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları önəmli rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması da dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir.

2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb, əhalinin nominal gəlirləri isə 10,5 dəfə artıb. 2004-cü ildən bəri bölgələrdə 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisi istehsalının 76 faizi regionların payına düşüb. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən respublikaya çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94 faizi ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9 faizdən 73 faizə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir.

Azad edilmiş torpaqlarımızın dirçəlişi və reinteqrasiyası iqtisadi potensialımızın artmasına geniş imkanlar vəd edir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 10 min kvadrat kilometrdən çox ərazidə bərpa-quruculuq işləri aparılıb.

Prezident İlham Əliyev noyabrın 22-də Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı– SPECA həftəsi çərçivəsində keçirilən sərgidə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiya, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində reallaşdırılan genişmiqyaslı tədbirlərdən də bəhs edilib. 2021-2023-cü illər ərzində 10 min kvadratkilometrdən çox ərazidə bərpa-quruculuq işlərinin həyata keçirilməsinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrıldığı bildirilib.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilməsi diqqətdə saxlanılır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri keçirilir, hazırda burada fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılır.

İşğaldan azad edilən ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət (gəlir), torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması məqsədilə kreditlərə dövlət zəmanətinin verilməsi və faizlərin subsidiyalaşdırılması ilə bağlı elektron platformanın hazırlanmasına başlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün fəaliyyət planı

### 1. Qısa xülasə

Azərbaycan Respublikasında nəqliyyat və logistika sahələrinin inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması, Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialından tam istifadənin təmin edilməsi ilə bağlı tədbirləri özündə ehtiva edən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" və 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022−2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq edilmişdir.

Son dövrlər regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi marşrutlarda yaranmış problemlər Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlər üzrə tranzit yükdaşımaların həcmində kəskin artıma səbəb olmuşdur. Belə ki, 2021-ci illə müqayisədə 2022-ci ildə Azərbaycan Respublikasının ərazisindən keçən tranzit yükdaşımaların (dəmir yolu, dəniz və avtomobil) ümumi həcmi 75 faiz artaraq 10.7 milyon tona çatmışdır. Artan tələbatın qarşılanması, Azərbaycan Respublikasının tranzit potensialının daha da gücləndirilməsi, eləcə də Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün qısa və orta müddətli perspektivdə həyata keçiriləcək tədbirləri özündə ehtiva edən sənədin hazırlanmasına ehtiyac yaranmışdır. Bununla əlaqədar hazırlanmış "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı" (bundan sonra − Fəaliyyət Planı) nəqliyyat sahəsində, xüsusilə tranzit yükdaşımalarında qlobal trendləri nəzərə almaqla mövcud vəziyyətin təhlilini və Azərbaycan Respublikasının tranzit potensialının daha da artırılması üçün hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri və tədbirlər planını özündə ehtiva edir.

### 2. Qlobal trendlər

Beynəlxalq iqtisadi əməkdaşlığın və ticarətin əsas aparıcı elementlərindən biri olan nəqliyyat və logistika əməliyyatları xüsusilə son illərdə yeni istiqamətdə inkişaf edir. Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi, yüksək texnologiyaların geniş tətbiqi ilə xarakterizə olunan müasir beynəlxalq ticarət sistemləri bütövlükdə milli iqtisadiyyatın, eləcə də ayrı-ayrı sahələrin qarşısında müəyyən vəzifələr qoyur ki, bu vəzifələrin uğurlu icrasını inkişaf etmiş nəqliyyat şəbəkəsi olmadan təsəvvür etmək mümkün deyil.

Dünyanın ən böyük məsləhətçi şirkətlərinin bu sahədə apardığı araşdırmaya görə, dünya ticarəti 2031-ci ilə qədər illik 2,3 faiz artımla böyüməyə davam edəcəkdir. Milli iqtisadiyyat dəyişən geosiyasi və iqtisadi dinamikaya, o cümlədən inflyasiyaya və yaxın müddətdə potensial tənəzzülə uyğunlaşdıqca, yeni qlobal reallıqlar yaradacaqdır. Belə ki, ABŞ və Çin arasında ticarətin 2031-ci ilə kimi 63 milyard ABŞ dolları azalacağına baxmayaraq, Avropa İttifaqı və Çin arasında ticarət həcmləri qlobal göstəricidən daha yavaş sürətlə olsa da artacaqdır. Bu tendensiyalar Cənub−Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN), Hindistan və Meksika ilə ticarətin böyüməsinə təkan verəcək.

Ümumiyyətlə, hazırda ticarət qlobal ÜDM-in artım tempindən daha sürətlə inkişaf edir. Bu da beynəlxalq ticarətin gələcək inkişafına istiqamət vermək səlahiyyətinin dövlətlərdən tədricən istehsal prosesinin daha səmərəli təşkilində maraqlı olan transmilli şirkətlərə keçdiyini göstərir. Dövlətlər isə, öz növbəsində, milli maraqların müdafiəsi ilə yanaşı, xarici ticarət iştirakçılarının artan gözləntilərini və müasir çağırışlarını diqqət mərkəzində saxlayırlar.

Beynəlxalq nəqliyyat sistemləri ticarətin ayrılmaz parçası olmaqla bu proseslərin təsiri ilə yeni keyfiyyət əldə edir. Son illərdə qlobal təchizat zəncirində fasiləsizliyin təmin edilməsi, ölkələr arasında ticarətin asanlaşdırılması, malların daşınması zamanı nəqliyyat vasitələrinin sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, risk qiymətləndirilməsi əsasında fiziki yoxlamaların minimuma endirilməsi, eləcə də aidiyyəti dövlət orqanları (qurumları) arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə əməliyyatların optimallaşdırılması tranzit potensialının inkişafı üçün xüsusi əhəmiyyət daşıyır. Dinamik dəyişən dünyanın tələb və gözləntiləri ilə uzlaşmaq üçün bir sıra logistik trendləri, o cümlədən regional qovşaqlar, çevik təchizat zənciri, özəl sərmayələrin dövlət infrastrukturunda iştirakı, eləcə də şəffaf və izləniləbilən tranzit dövriyyəsinin yaradılması kimi trendləri diqqət mərkəzində saxlamaq zəruridir. Bu məqsədlə tranzit daşımaların müasir, avtomatlaşdırılmış və məlumat əsaslı prosesə transformasiyası üçün yüksək texnologiyalardan istifadənin geniş yayılacağı gözlənilir.

Qlobal tədarük zəncirində Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və regional qovşağa çevrilməsi perspektivinin reallaşdırılması istiqamətində hədəflərə nail olmaq üçün güclü infrastrukturun yaradılması, innovativ logistik həlləri təmin edən zonaların inkişaf etdirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılması xüsusi önəm daşıyır.

Bununla yanaşı, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi üçün nəqliyyat infrastrukturlarının müasirləşdirilməsi, logistika mərkəzlərinin və azad iqtisadi zonaların yaradılması, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi tənzimləmə alətlərinə (konvensiyalara, çoxtərəfli beynəlxalq sazişlərə və s.) uyğunlaşdırılması, həmçinin nəqliyyatda təhlükəsizliyin gücləndirilməsi tədbirləri xüsusi əhəmiyyət kəsb edir. Qlobal trendlərin yaxından izlənilməsi və görülən tədbirlərin bu trendlərə uyğunlaşdırılması ilə Azərbaycan Respublikasının nəqliyyat sisteminin beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsinə nail olmaq, etibarlı, təhlükəsiz, səmərəli və regional sistemlərə inteqrasiya edilmiş tranzit nəqliyyat şəbəkəsi ilə həm Şərq-Qərb, həm də Şimal-Cənub istiqamətində həyata keçirilən beynəlxalq yükdaşımaların aktiv iştirakçısına çevrilmək hədəfini reallaşdırmaq olar.

### 3. Mövcud vəziyyətin təhlili

Azərbaycan Respublikasında nəqliyyat infrastrukturunun müasir tələblərə uyğunlaşdırılması və tranzit potensialının daha da gücləndirilməsi məqsədilə iri infrastruktur layihələri reallaşdırılmış, Azərbaycan Respublikasının regionun nəqliyyat-logistika mərkəzinə çevrilməsi istiqamətində mühüm işlər görülmüşdür. Bu sahədə düşünülmüş məqsədyönlü dövlət siyasətinin aparılması nəticəsində uğurlu layihələr, o cümlədən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində vacib infrastruktur obyektləri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakı−Tbilisi−Qars dəmir yolu xəttinin, Astara dəmiryol terminalının, Astaraçay üzərində dəmir yolu və avtomobil yolu körpülərinin, eləcə də Rusiya Federasiyası ilə dövlət sərhədində Samur çayı üzərində avtomobil yolu körpüsünün və beynəlxalq əhəmiyyətli avtomobil yollarının yenidən qurulması tədbirləri həyata keçirilmişdir. Bu addımlar isə, öz növbəsində, Azərbaycanın regionda etibarlı və təhlükəsiz tranzit ölkəsinə çevrilməsinə zəmin yaratmışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası beynəlxalq tranzit daşımalarının tənzimləndiyi "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya (Yenilənmiş Kyoto Konvensiyası), "BYD Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında" Gömrük Konvensiyasına, "Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyaya, "Konteynerlərə dair Gömrük Konvensiyası"na, "Beynəlxalq yük daşınması müqaviləsi haqqında" Beynəlxalq Konvensiyaya və "Beynəlxalq Dəmir Yolu Yükdaşımalarına dair Saziş"ə qoşulmuşdur.

Azərbaycan Respublikasında dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması sahəsində sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 655 nömrəli Fərmanı ilə Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası (bundan sonra – Koordinasiya Şurası) yaradılmışdır. Ötən dövr ərzində Koordinasiya Şurası tərəfindən Azərbaycan Respublikasının mühüm regional əhəmiyyətli logistika və ticarət qovşağına çevrilməsi və əsas ticarət marşrutlarından biri kimi beynəlxalq miqyasda etimad qazanması, infrastruktur və əməliyyatlarda təkmilləşdirmə işlərinin mütəşəkkil və səmərəli icrası istiqamətində strategiyanın həyata keçirilməsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi sahəsində bir sıra xüsusi əhəmiyyətli tədbirlər görülmüşdür. Belə ki, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən "Tranzit yüklərin daşınması zamanı əməliyyatların idarəedilməsi üzrə Prosedur Qaydalar" qəbul edilmişdir. Bu prosedur qaydaları beynəlxalq tranzit daşımaları zamanı ayrı-ayrı əməliyyatlar üzrə yerli operatorların üzərinə düşən vəzifələrin beynəlxalq standartlara uyğun şəkildə çevik və operativ icrası, proseslərlə bağlı məlumatların effektiv ötürülməsi kimi vacib məsələləri ehtiva etməklə, əməliyyatların sürət və keyfiyyətində böyük irəliləyişə səbəb olmuşdur. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (BBDTL) ərazisində, həmçinin Azərbaycan Respublikasının digər dövlət sərhədindən buraxılış məntəqələrində tətbiq edilən prosedurların sadələşdirilməsi, sürətləndirilməsi, şəffaflaşdırılması və avtomatlaşdırılması, tranzit əməliyyatlarının birgə planlaşdırılması və vahid dispetçer mərkəzindən idarəedilməsinin təşkili məqsədilə "Əməliyyat Qərargahı" yaradılmışdır. 2022-ci ilin ikinci yarısından aktiv fəaliyyətə başlayan Əməliyyat Qərargahının gördüyü işlər sayəsində 2022-ci ilin 1-ci rübü ilə müqayisədə BBDTL-də qeyri-əməliyyat vaxtının 60 faiz azaldılması, bərələrin orta körpü və emalı vaxtının 50 faiz azaldılması, BBDTL və Poti (Batumi) limanları arasında vaqonların geridönüş vaxtının 50 faiz azaldılması, Xəzər dənizinin Azərbaycana, Qazaxıstana və Türkmənistana məxsus limanlarında (müvafiq olaraq, BBDTL, Aktau, Kurık və Türkmənbaşı limanları) konteyner sıxlığının aradan qaldırılması, yük axınlarının intensivliyi və hərəkət vektorunun öncədən müəyyən edilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikasının dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı özündə yükdaşımaların vahid tariflərini, sərhədkeçmə prosedurlarını, yükdaşımalar üzrə daşıma qaydalarını və şərtlərini, o cümlədən müqavilələrin şərtlərini və bağlanma qaydasını, Azərbaycan Respublikasının dövlət sərhədindən keçmə zamanı inzibati prosedurlara dair elektron müraciətlərin qəbulu və yüklərin daşınması sahəsində müqavilələrin elektron üsullarla bağlanması imkanlarını, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələləri əks etdirən elektron portalın yaradılması vəzifəsinin icrası üçün vacib ilkin addımlar atılmışdır. İlk növbədə, Koordinasiya Şurası üzvlərinin təmsil olunduğu İşçi qrup yaradılmış, müxtəlif kateqoriyadan olan məhsulların tranziti üçün tələb olunan icazə və lisenziyalar müəyyən edilmiş, tranzit və ticarət üçün zəruri prosedurları özündə cəmləşdirən proseslər xəritəsi hazırlanmışdır. Həmçinin, milli elektron portaldan qlobal logistika və ticarət iştirakçıları tərəfindən potensial istifadənin təmin edilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bir sıra xarici təşkilat və şirkət nümayəndələri ilə görüşlər keçirilmişdir. Bu görüşlər nəticəsində beynəlxalq platformaya inteqrasiya tələbləri, sənədləşmə prosedurlarının beynəlxalq normalara uyğunlaşdırılması və müxtəlif qlobal portalların hazır şəkildə qoşulmasını ehtiva edən "Platformaların Platforması" konsepsiyasına uyğun elektron portalın hazırlanması üçün əsas parametrlər müəyyən olunmuşdur. Bu istiqamətdəki növbəti addım kimi iştirak edən qurumların sistemlərinin diaqnostikası, inteqrasiya imkanlarının dəyərləndirilməsi və elektron portalın texniki-iqtisadi funksionallıqlarının müfəssəl təsvirini əhatə edən texniki şərtlər toplusu da hazırlanır.

Tranzit yüklərin həcminin və ötən illərlə müqayisəli izlənməsi məqsədilə Koordinasiya Şurasının Katibliyi tərəfindən rüblük və illik olmaqla, elektron və kağız formada hesabatlar hazırlanır və ildə iki dəfə məlumatların Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi təmin olunur.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən, tranzit daşıma və logistika işinin təkmilləşdirilməsi üçün rəqəmsal texnologiyadan istifadənin genişləndirilməsi məqsədilə müvafiq tədbirlər görülməsinə başlanılmışdır.

### 4. Hədəf göstəriciləri

Fəaliyyət Planının hədəf göstəriciləri mövcud infrastrukturun təkmilləşdirilməsi, tranzit əməliyyatları zamanı inzibati prosedurların optimallaşdırılması, aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın yaxşılaşdırılması və vahid platforma üzərindən tətbiqi, tranzit daşımalar zamanı sərhədkeçmə müddətinin minimuma endirilməsi, eləcə də sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi yolu ilə Azərbaycan Respublikasının ərazisindən daşınan tranzit yükdaşımalarının həcminin 2024−2026-cı illər ərzində 2022-ci ilə nisbətən 27 faiz artırılaraq 10.7 milyon tondan 13.6 milyon tona çatdırılmasıdır.

### 5. Məqsədlər

5.1. Fəaliyyət Planının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. mövcud nəqliyyat infrastrukturunun yükötürmə qabiliyyətinin artırılması;

5.1.2. tranzit əməliyyatlar zamanı Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd, gömrük, o cümlədən nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə sürətli keçidin təmin edilməsi;

5.1.3. tranzit yükdaşımalar üzrə əməliyyatların optimallaşdırılması üçün yüksək texnologiyaların və innovativ həllərin tətbiqi;

5.1.4. tranzit daşımalar zamanı dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

5.1.5. müvafiq sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi;

5.1.6. tranzit yüklərin daşınması sahəsində fəaliyyət göstərən dövlət orqanları (qurumları) ilə operator və daşıyıcılar arasında əlaqələndirmənin gücləndirilməsi;

5.1.7. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərindən aktiv istifadənin təşviqi.

### 6. Prioritet istiqamətlər

6.1. Azərbaycanın tranzit potensialından tam istifadənin reallaşdırılmasına təsir edən çatışmazlıqların aradan qaldırılması məqsədilə aşağıdakı prioritet istiqamətlər üzrə işlər həyata keçiriləcəkdir:

6.1.1. fiziki infrastrukturun təkmilləşdirilməsi:

6.1.1.1. əsaslandırma:

6.1.1.1.1. Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərin rəqabətqabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə əlavə tranzit yük axınlarını cəlb etmək üçün mövcud nəqliyyat xidmətləri və infrastrukturunun yaxşılaşdırılması ilə yanaşı, yeni infrastrukturun yaradılmasına, eləcə də tranzit daşımalar zamanı sərhəd keçid prosedurlarının müddətinin minimuma endirilməsi və buraxılış qabiliyyətinin artırılmasına zərurət vardır;

6.1.1.2. görüləcək tədbirlər:

6.1.1.2.1. "Qırmızı Körpü", "Mazımqara", "Samur", "Biləsuvar", "Astara" və "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, eləcə də sərhəd və gömrük nəzarətinin effektiv şəkildə aparılmasının təmin edilməsi istiqamətində infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.2. "Qırmızı Körpü", "Samur", "Mazımqara", "Biləsuvar" dövlət sərhədindən buraxılış məntəqələrinin yaxınlığında yerləşən mövcud terminalların infrastrukturunun təmiri, bərpası və "Qırmızı Körpü" və "Samur" gömrük postlarının yaxınlığında yeni gömrük terminalların (ticarətin asanlaşdırılması mərkəzlərinin) inşası;

6.1.1.2.3. "Şirvanlı" dövlət sərhədindən buraxılış məntəqəsinin potensialından tam istifadənin təmin edilməsi;

6.1.1.2.4. "Yalama", "Böyük Kəsik" və "Astara" dəmiryol dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd mühafizə və gömrük orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsi məqsədilə infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.5. Gürcüstanla birlikdə birgə gömrük nəzarətinin həyata keçirilməsi üçün yeni dövlət sərhədindən buraxılış məntəqələrinin inşası;

6.1.1.2.6. İran İslam Respublikası ilə yeni dövlət sərhədində buraxılış məntəqələrinin inşası;

6.1.1.2.7. Ələt−Osmanlı−Astara dəmir yolunun yenidən qurulması;

6.1.1.2.8. Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri;

6.1.1.2.9. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin, eləcə də tranzit yüklərin rəsmiləşdirilməsinin səmərəli qaydada aparılmasını təmin etmək məqsədilə infrastrukturun təkmilləşdirilməsi;

6.1.1.2.10. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması;

6.1.1.2.11. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurlarının tətbiqi;

6.1.1.2.12. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Dübəndi terminalında dibdərinləşdirmə işlərinin aparılması;

6.1.1.2.13. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmiryol xəttinin və konteyner terminalının tikintisi;

6.1.1.2.14. Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri;

6.1.1.2.15. Biləcəri−Yalama dəmiryol xətti üzrə kontakt şəbəkə və mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Bakı−Böyük Kəsik dəmiryol xəttinin elektrik təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərin başa çatdırılması, Ucar−Bakı hissəsinin mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Yevlax−Böyük Kəsik sahəsində 38 yoldəyişənin və 7 qəbul-göndərmə yolunun əsaslı təmiri;

6.1.1.2.16. magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmiri;

6.1.1.2.17. qida məhsullarının idxal-ixrac əməliyyatları və tranziti zamanı nəzarətin operativ həyata keçirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması;

6.1.1.2.18. gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi üçün məntəqələr yaradılması;

6.1.1.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.1.3.1. dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti effektiv şəkildə təmin ediləcək və onların buraxılış qabiliyyəti artırılacaqdır;

6.1.1.3.2. malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən keçidi zamanı sıxlıq aradan qaldırılacaqdır;

6.1.1.3.3. yüklü nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması yolu ilə Rusiya Federasiyası ilə sərhəddəki digər gömrük sərhəd buraxılış məntəqələrində sıxlıq azaldılacaq, mövsümlə əlaqədar qeyd olunan istiqamətlərdə nəqliyyat vasitələrinin keçidi zamanı yaranan növbə sıxlığı aradan qaldırılacaqdır;

6.1.1.3.4. sərhəd buraxılış məntəqələrində nəzarət gücləndiriləcək və qatarlara baxış vaxtı qısaldılacaqdır;

6.1.1.3.5. dövlət sərhədindən yeni buraxılış məntəqələri tikiləcək və "Orta dəhliz" üzrə alternativ keçid imkanları yaradılacaqdır;

6.1.1.3.6. Zəngilan rayonunun Ağbənd qəsəbəsində, Naxçıvan Muxtar Respublikasının ərazisində və Astara rayonunda dövlət sərhədində yeni buraxılış məntəqələrinin inşasına dair İran İslam Respublikası ilə razılaşdırıldıqdan sonra tikinti işlərinə başlanılacaqdır;

6.1.1.3.7. Ələt−Osmanlı−Astara dəmir yolu yenidən qurulacaqdır;

6.1.1.3.8. Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri işləri başa çatdırılaraq, çeşidləmə parkının buraxılış qabiliyyəti və hərəkət tərkibinin təhlükəsizliyi təmin ediləcəkdir;

6.1.1.3.9. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaqdır;

6.1.1.3.10. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaqdır;

6.1.1.3.11. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal, ixrac rejimli yüklər üzrə genişfunksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində Şərq−Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq, habelə yük avtomobil nəqliyyat vasitələrinin bir mərkəzdə cəmləşməsi (regional qovşaq konsepsiyasına uyğun) təmin ediləcəkdir;

6.1.1.3.12. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Dübəndi Terminalında dibdərinləşdirmə işlərinin aparılması nəticəsində limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişi təmin ediləcəkdir;

6.1.1.3.13. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmiryol xəttinin və konteyner terminalının tikintisi nəticəsində yüklərin çeşidlənməsində operativlik təmin ediləcəkdir;

6.1.1.3.14. Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri nəticəsində stansiyanın yükötürmə qabiliyyəti artırılacaqdır;

6.1.1.3.15. Biləcəri−Yalama və Bakı−Böyük Kəsik dəmiryol xətlərində infrastrukturun təkmilləşdirilməsi nəticəsində dəmir yollarının qatarburaxma, eləcə də yükdaşıma qabiliyyəti artırılacaqdır;

6.1.1.3.16. magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmirinin həyata keçirilməsi və nəticədə dəmiryol nəqliyyatı vasitəsilə daşınan tranzit yüklərin həcmi artırılacaqdır;

6.1.1.3.17. dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması nəticəsində sənədləşmə və sertifikatlaşdırma prosesi səmərəli və sürətli şəkildə həyata keçiriləcəkdir;

6.1.1.3.18. gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi nəticəsində ərzaq, qida məhsullarının (heyvan və bitki mənşəli), heyvanların, həmçinin yem və yem əlavələrinin daşınması zamanı xəstəlik törədicilərinin yayılmasının qarşısı alınacaqdır;

6.1.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.1.4.1. infrastruktur təminatının yaxşılaşdırılması üçün kifayət qədər maliyyə vəsaitinə və digər texniki təchizata ehtiyac vardır ki, həmin ehtiyacların qarşılanması zamanı müəyyən çətinliklər yarana bilər. Həmçinin, dövlət sərhədindən buraxılış məntəqələrində infrastrukturun yenilənməsi prosesində həyata keçiriləcək layihələrin aidiyyəti dövlət orqanları (qurumları) arasında razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar, zərurət olduğu təqdirdə, müvafiq işçi qruplar yaradıla, eləcə də Fəaliyyət Planının 7-ci hissəsində qeyd olunan mənbələr hesabına maliyyələşdirilmənin aparılması üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.2. koordinasiya işinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi:

6.1.2.1. əsaslandırma:

Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərinin rəqabətqabiliyyətinin və səmərəliliyinin artırılması üçün logistika mərkəzlərinin yaradılmasına, habelə yerli və xarici investisiyaların cəlb edilməsinə zərurət vardır;

(ardı 9-cu səhifədə)

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün fəaliyyət planı

**(əvvəli 8-ci səhifədə)**

Azərbaycan Respublikasında nəqliyyat sahəsində görülmüş işlərin və əldə edilmiş nailiyyətlərin ümumiləşdirilərək Azərbaycan Respublikasının tranzit potensialının və imkanlarının beynəlxalq səviyyədə təşviq olunması üçün mütəmadi tədbirlərin həyata keçirilməsi, həmçinin mediada məlumatlandırma işinin təşkili zəruridir;

6.1.2.2. görüləcək tədbirlər:

6.1.2.2.1. logistika mərkəzlərində əsas dövlət xidmətlərinin (gömrük, dövlət fitosanitar, baytarlıq) təşkili;

6.1.2.2.2. beynəlxalq tədbirlərdə, habelə xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlik və konsulluqlarının nümayəndələri ilə görüşlərdə Azərbaycan Respublikasının tranzit potensialının təqdimatı və alternativ marşrutlara münasibətdə üstünlüklərinin təbliği yolu ilə Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərdən istifadənin təşviqi, mütərəqqi islahatların və uğurlu addımların təbliği;

6.1.2.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.2.3.1. görülən tədbirlər özəl sektor tərəfindən logistika mərkəzlərinin yaranmasına, yerli və xarici investisiyaların cəlb edilməsinə, eləcə də logistika mərkəzlərində yaradılan əlavə dəyərin həcminin artmasına şərait yaradacaqdır;

6.1.2.3.2. aparılmış uğurlu təbliğ və təşviq nəticəsində Azərbaycan Respublikasının nəqliyyat sisteminə beynəlxalq arenada inam və güvənin artması, Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinə əlavə yüklərin cəlb edilməsi və Azərbaycan Respublikasının tranzit potensialının artırılması təmin ediləcəkdir;

6.1.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.2.4.1. logistika infrastrukturunun lazımi dərəcədə təkmilləşdirilməməsi, habelə yerli və xarici investorlarla əlaqələrin qurulmaması tranzit daşımalar üçün müəyyən edilmiş hədəflərə nail olunmasında ləngimələrə səbəb ola bilər. Regional miqyasda əməkdaşlığa və təhlükəsizliyə töhvə verilməsi baxımından qarşılıqlı faydalı əməkdaşlıq platformaları və mexanizmlər yaradıla bilər;

6.1.2.4.2. təbliğat və təşviqat işinin aktiv şəkildə aparılmaması Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərə əlavə yük həcminin cəlb olunmasına mənfi təsir göstərə bilər. Bu risklərin qarşısının alınması məqsədilə beynəlxalq tədbirlərdə, ikitərəfli və çoxtərəfli görüşlərdə, habelə hökumətlərarası komissiyaların iclaslarında Azərbaycan Respublikasının tranzit potensialının və imkanlarının təşviq olunması zəruridir;

6.1.3. normativ hüquqi bazanın təkmilləşdirilməsi:

6.1.3.1. əsaslandırma:

6.1.3.1.1. tranzit yükdaşımaların həcminin artırılması üçün milli qanunvericiliyin beynəlxalq təcrübəyə uyğunlaşdırılması, sənədləşmə qaydalarının tranzit dəhlizləri boyu unifikasiyası, tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların, həmsərhəd dövlətlərlə nəzarət prosedurlarının sürətləndirilməsini təmin edəcək beynəlxalq müqavilələrin, eləcə də tranzit yüklərə münasibətdə tarif metodologiyasının hazırlanması zəruridir;

6.1.3.2. görüləcək tədbirlər:

6.1.3.2.1. tranzit daşımalar zamanı prosedurların sadələşdirilməsi məqsədilə normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına dair təkliflərin hazırlanması;

6.1.3.2.2 tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların hazırlanması;

6.1.3.2.3. tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf qiymət siyasətinin müəyyən edilməsi;

6.1.3.2.4. tranzit yük daşımaları ilə və nəqliyyatla bağlı nəqliyyat-yol sənədlərinin təkmilləşdirilməsi;

6.1.3.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.1.3.3.1. normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi təmin ediləcəkdir;

6.1.3.3.2. tranzit yüklərə münasibətdə tarif metodologiyasının tətbiqi nəticəsində dəhlizlər üçün ölkə üzrə vahid, çevik və şəffaf tariflərin tətbiqinə nail olunacaqdır;

6.1.3.3.3. nəqliyyat və sərhəd buraxılış əməliyyatlarına sərf edilən vaxtın minimuma endirilməsini və Azərbaycan Respublikasının tranzit daşımaları üzrə potensialının artırılmasını təmin edəcək normativ hüquqi aktlar qəbul ediləcəkdir;

6.1.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.3.4.1. aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində çətinliklər yarana bilər. Texniki tənzimləmənin şamil olunacağı mallara dair müvafiq münasibətlərin hüquqi tənzimlənməsi sahəsində aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətləri nəzərə alınmaqla, bir sıra layihələrin razılaşdırılmasında gecikmələr baş verə bilər. Bununla əlaqədar müvafiq işçi qruplar yaradıla bilər.

**7. Fəaliyyət Planının maliyyələşdirilməsi**

Fəaliyyət Planında nəzərdə tutulan tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün ayrılan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**8. Fəaliyyət Planının həyata keçirilməsi üzrə**

**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı | Digər icraçılar | İcra müddəti (illər üzrə) | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticə | aralıq nəticə | yekun nəticə |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | **8.1. Fiziki infrastrukturun təkmilləşdirilməsi** | | | | | | |
| 8.1.1. | “Qırmızı Körpü”, “Mazımqara”, “Samur”, “Biləsuvar”, “Astara” və “Şirvanlı” dövlət sərhədindən buraxılış məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, eləcə də sərhəd və gömrük nəzarətinin effektiv şəkildə aparılmasının təmin edilməsi istiqamətində infrastrukturun təkmilləşdirilməsi | DGK | DSX , İN, RİNN, “ADY” QSC | 2024-2026 | “Qırmızı Körpü”, “Mazımqara”, “Samur”, “Biləsuvar”, “Astara” və “Şirvanlı” dövlət sərhədindən buraxılış məntəqələrində infrastrukturun yenilənməsi üzrə layihə-smeta sənədlərinin hazırlanması və aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylər alınması | infrastrukturun yenilənməsinə dair layihələrin icrasına başlanılması | dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin effektiv şəkildə təmin edilməsi və onların buraxılış qabiliyyətinin artırılması |
| 8.1.2. | “Qırmızı Körpü”, “Samur”, “Mazımqara”, “Biləsuvar” dövlət sərhədindən buraxılış məntəqələrinin yaxınlığında yerləşən mövcud terminalların infrastrukturunun təmiri, bərpası və “Qırmızı Körpü” və “Samur” gömrük postlarının yaxınlığında yeni gömrük terminallarının (ticarətin asanlaşdırılması mərkəzlərinin) inşası | DGK | İN, RİNN | 2024-2026 | layihə-smeta sənədlərinin hazırlanması və aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylər alınması | mövcud infrastrukturun yenilənməsi və yeni gömrük terminallarının inşasına dair layihələrin icrasına başlanılması | malların və nəqliyyat vasitələrinin dövlət sərhədindən buraxılış məntəqələrindən keçidi zamanı sıxlığın aradan qaldırılması |
| 8.1.3. | “Şirvanlı” dövlət sərhədindən buraxılış məntəqəsinin potensialından tam istifadənin təmin edilməsi | DGK | DSX, İN, RİNN | 2024-2025 | yüklü nəqliyyat vasitələrinin buraxılışı ilə əlaqədar “Şirvanlı” dövlət sərhədindən buraxılış məntəqəsinin infrastrukturunun yenidənqurulması ilə bağlı Rusiya Federasiyası tərəfi ilə danışıqların aparılması və nəticədən asılı olaraq təkliflər hazırlanması | danışıqların nəticəsinə uyğun olaraq, dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyətinin gücləndirilməsi üçün müvafiq işlərin həyata keçirilməsi | yüklü nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması yolu ilə Rusiya Federasiyası ilə sərhəddəki digər gömrük sərhəd buraxılış məntəqələrində sıxlığın azaldılması, mövsümlə əlaqədar qeyd olunan istiqamətlərdə nəqliyyat vasitələrinin keçidi zamanı yaranan növbə sıxlığının aradan qaldırılması |
| 8.1.4. | “Yalama”, “Böyük Kəsik” və “Astara” dəmiryol dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd mühafizə və gömrük orqanları tərəfindən səmərəli nəzarətin həyata keçirilməsi məqsədilə infrastrukturun təkmilləşdirilməsi | DGK | DSX, “ADY” QSC, RİNN, İN | 2024-2026 | infrastrukturun təkmilləşdirilməsi ilə bağlı zəruri işlərin müəyyən edilməsi və layihə-smeta sənədlərinin hazırlanması | infrastrukturun təkmilləşdirilməsi ilə bağlı işlərin həyata keçirilməsi | sərhəd buraxılış məntəqələrində nəzarətin gücləndirilməsi və qatarlara baxış vaxtının qısaldılması |
| 8.1.5. | Gürcüstanla birlikdə birgə gömrük nəzarətinin həyata keçirilməsi üçün yeni dövlət sərhədindən buraxılış məntəqələrinin inşası | DGK | DSX, İN, RİNN | 2024-2026 | yeni dövlət sərhədindən buraxılış məntəqələrinin tikintisi ilə bağlı təkliflər hazırlanması, maliyyə və smeta xərclərinin müəyyənləşdirilməsi, layihələndirilmə işlərinin aparılması | yeni dövlət sərhədindən buraxılış məntəqələrinin tikintisi üzrə işlərə başlanılması | tranzit daşımalar zamanı alternativ keçid imkanının yaradılması |
| 8.1.6. | İran İslam Respublikası ilə yeni dövlət sərhədində buraxılış məntəqələrinin inşası | DGK | DSX, İN, RİNN, “ADY” QSC | 2024-2026 | | | |
| 8.1.7. | Ələt−Osmanlı−Astara dəmir yolunun yenidən qurulması | “ADY” QSC | RİNN, İN | 2024-2026 | tikinti işləri ilə bağlı təkliflərin, layihə-smeta sənədlərinin və icra qrafikinin hazırlanması | Ələt−Osmanlı− Astara dəmir yolunun tikinti işlərinə başlanılması | Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin buraxılış qabiliyyətinin artırılmasına imkan yaradılması |
| 8.1.8. | Biləcəri stansiyasının çeşidləmə parkında<br>3-cü dəstənin dartı yollarının və yoldəyişənlərin əsaslı təmiri | “ADY” QSC | RİNN, İN | 2024-2025 | | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun olaraq tikinti işlərinə başlanılması | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun tikinti işlərinin başa çatdırılması və çeşidləmə parkının buraxılış qabiliyyətinin, həmçinin hərəkət tərkibinin təhlükəsizliyinin təmin edilməsi |
| 8.1.9. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Hövsan Limanında<br>dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarətinin, eləcə də tranzit yüklərin rəsmiləşdirilməsinin səmərəli qaydada aparılmasını təmin etmək məqsədilə infrastrukturun təkmilləşdirilməsi | BBDTL, BHBTDL | RİNN, İN, DSX, DGK | 2024-2025 | müvafiq infrastrukturun təkmilləşdirilməsinə dair aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə təkliflər hazırlanması | təkliflər əsasında müəyyən edilmiş işlərin icrasına başlanılması | müvafiq limanlarda dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastrukturun yaradılması |
| 8.1.10. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması | BBDTL | İN, RİNN | 2024-2025 | ağır yüklər terminalında konteynerlərin aşırılması üçün infrastrukturun genişləndirilməsi ilə bağlı layihələndirmə işlərinin həyata keçirilməsi | layihənin hazırlanması və avadanlıqların alınması ilə bağlı müqavilələr imzalanması | ağır yüklər terminalına mobil konteyner kranı, terminal traktorları və digər avadanlıqların quraşdırılması |
| 8.1.11. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurlarının tətbiqi | DGK | RİNN, BBDTL | 2024-2025 | BBDTL-in ərazisində tranzit yüklərin həcminin və idxal, ixrac rejimli yüklər üzrə əməliyyat imkanlarının artırılması üçün təkliflər hazırlanması | Şərqdən Qərbə daşınan açıq yüklərin Qərb ölkələrinə çatdırılmasında konteynerlərin rolunun artırılması və eləcə də yerli daşıyıcıların Gürcüstanın Poti və Batumi şəhərləri istiqamətində yükdaşımalarda (xüsusən də konteyner yüklərinin daşınmasında) payının artması | limanda idxal, ixrac rejimli yüklər üzrə genişfunksiyalı əməliyyat imkanlarının yaranması, konteyner, habelə yük avtomobil nəqliyyat vasitələrinin vahid mərkəzdə cəmləşməsinin (regional qovşaq konsepsiyasına uyğun) təmin edilməsi |
| 8.1.12. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işlərinin aparılması | BBDTL | İN, RİNN, SOCAR, ASCO | 2024-2026 | dibdərinləşdirmə işlərinin aparılması üçün layihə-smeta xərclərinin müəyyənləşdirilməsi, layihələndirmə işlərinin aparılması | Dübəndi Neft Terminalının maneəsiz giriş-çıxışı üçün imkan yaradılması və Ələt qəsəbəsində yerləşən BBDTL-in giriş kanalına gəmilərin ikitərəfli təhlükəsiz giriş-çıxışının təmin edilməsi məqsədilə dibdərinləşdirmə işlərinin aparılması | limanın və terminalın akvatoriyasına suya oturumu daha yüksək olan gəmilərin girişinin təmin edilməsi;<br>limanın və terminalın yükaşırma qabiliyyətinin artırılması |

**(ardı 10-cu səhifədə)**

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün fəaliyyət planı

**(əvvəli 9-cu səhifədə)**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.13. | Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində çeşidləmə məntəqəsində əlavə dörd dəmir yolu xəttinin və konteyner terminalının tikintisi | "ADY" QSC | BBDTL, RİNN, İN | 2024-2025 | layihə-smeta sənədlərinin və icra qrafikinin hazırlanması | layihə-smeta sənədlərinə və icra qrafikinə uyğun tikinti işlərinə başlanılması | konteyner terminalının və dəmiryol xətlərinin tikintisinin başa çatdırılması, artan yük həcmlərinin çeşidlənməsinin operativliyinin təmin edilməsi |
| 8.1.14. | Baş Ələt dəmiryol stansiyasının əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2025 | | | stansiyanın yükötürmə qabiliyyətinin artırılması |
| 8.1.15. | Biləcəri–Yalama dəmiryol xətti üzrə kontakt şəbəkə və mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Bakı–Böyük Kəsik dəmiryol xəttinin elektrik təchizatı sisteminin yenidən qurulması ilə bağlı işlərin başa çatdırılması, Ucar–Bakı hissəsinin mikroprosessor əsaslı rabitə-işarəvermə sisteminin yenidən qurulması, Yevlax–Böyük Kəsik sahəsində 38 yoldəyişənin və 7 qəbul-göndərmə yolunun əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2026 | | | Biləcəri–Yalama və Bakı–Böyük Kəsik dəmiryol xətlərində planlaşdırılan işlərin icra qrafikinə uyğun tamamlanması, dəmir yollarının qatarburaxma, eləcə də yükdaşıma qabiliyyətinin artırılması |
| 8.1.16. | Magistral lokomotivlərin əsaslı təmiri və bərpası, yenilərinin alınması, habelə manevr lokomotivlərinin əsaslı təmiri | "ADY" QSC | RİNN, İN | 2024-2026 | 7 ədəd magistral lokomotivin alınması, 6 ədəd magistral elektrovozun, 6 ədəd magistral və 16 ədəd manevr teplovozunun əsaslı təmiri | 4 ədəd magistral elektrovozun, 5 ədəd magistral və 16 ədəd manevr teplovozunun əsaslı təmiri | "ADY" QSC-nin lokomotiv parkının yenilənməsinin (7 ədəd magistral lokomotivin alınması, 10 ədəd magistral elektrovozun, 11 ədəd magistral və 32 ədəd manevr teplovozunun əsaslı təmirinin başa çatdırılması) təmin edilməsi və nəticədə daşınan tranzit yüklərin həcminin artırılması |
| 8.1.17. | Qida məhsullarının idxal-ixrac əməliyyatları və tranziti zamanı nəzarətin operativ həyata keçirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrinə yaxın ərazilərdə qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulması | AQTA | İN, DGK, RİNN | 2024-2026 | qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulmasına dair təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması və layihələrin hazırlanması | qida təhlükəsizliyi nəzarəti məntəqələrinin qurulmasına dair layihələrin icrası | qida təhlükəsizliyi nəzarətinin, habelə sənədləşmə və sertifikatlaşdırma prosesinin səmərəli və sürətli şəkildə həyata keçirilməsi |
| 8.1.18. | Gömrük sərhəd buraxılış məntəqələrində, limanlarda, dəmir yolunda, yükboşaltma stansiyalarında və məntəqələrində nəqliyyat vasitələrinin, yük vaqonlarının, konteynerlərin, gəmilərin dezinfeksiyası, dezinseksiyası və deratizasiyası xidmətlərinin həyata keçirilməsi üçün məntəqələr yaradılması | KTN | DGK,<br>"ADY" QSC,<br>RİNN, DSX,<br>ASCO, BBDTL,<br>AQTA | 2024-2025 | dezinfeksiya, dezinseksiya və deratizasiya xidmətlərinin həyata keçirilməsi məntəqələrinin yaradılması üçün təkliflər hazırlanması | maddi-texniki təchizatının təmin edilməsi və məntəqələrin fəaliyyətə başlaması | çevik baytarlıq xidməti göstərilərək ərzaq, qida məhsullarının (heyvan və bitki mənşəli), heyvanların, həmçinin yem və yem əlavələrinin daşınması zamanı xəstəlik törədicilərinin yayılmasının qarşısının alınması |
| **8.2. Koordinasiya işinin gücləndirilməsi** və **Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi** | | | | | | | |
| 8.2.1. | Logistika mərkəzlərində əsas dövlət xidmətlərinin (gömrük, dövlət fitosanitar, baytarlıq) təşkili | İN | KTN, DGK, AQTA | 2024-2026 | gömrük, dövlət fitosanitar, baytarlıq sahələrində xidmətlərin logistika mərkəzlərində təşkilinə dair təkliflər hazırlanması | müəyyən edilmiş logistika mərkəzlərində dövlət xidmətlərinin təşkil olunması məqsədilə tədbirlərin həyata keçirilməsi | özəl sektorun logistika mərkəzlərinə marağının artırılması, yerli və xarici investisiyaların cəlb edilməsinə zəmin və yeni logistika mərkəzlərinin yaranmasına təkan verilməsi, logistika mərkəzlərində yaradılan əlavə dəyərin həcminin artmasına şərait yaradılması |
| 8.2.2. | Beynəlxalq tədbirlərdə, habelə xarici dövlətlərin Azərbaycan Respublikasındakı səfirlik və konsulluqlarının nümayəndələri ilə görüşlərdə Azərbaycan Respublikasının tranzit potensialının təqdimatı və alternativ marşrutlara münasibətdə üstünlüklərinin təbliği yolu ilə Azərbaycan Respublikasının ərazisindən keçən dəhlizlərdən istifadənin təşviqi, mütərəqqi islahatların və uğurlu addımların təbliği | RİNN | XİN, TYKŞ,<br>"ADY" QSC, ASCO, BBDTL | mütəmadi | Azərbaycan Respublikasında nəqliyyat sahəsində görülmüş işlərin və əldə edilmiş nailiyyətlərin, beynəlxalq nəqliyyat dəhlizləri üzrə əsaslandırıcı məlumatların əks olunduğu broşürlərin və maarifləndirici materialların hazırlanması və dərc olunması | beynəlxalq əhəmiyyətli tədbirlərdə və görüşlərdə Azərbaycan Respublikasının tranzit imkanlarının təbliğ edilməsi, tranzit potensialının beynəlxalq səviyyədə təşviq olunması üçün müvafiq məlumatların beynəlxalq mediada mütəmadi işıqlandırılması və bu məqsədlə tədbirlərin təşkil edilməsi | Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri barədə müfəssəl məlumatların hədəf auditoriyaya çatdırılması yolu ilə dəhlizlərin cəlbediciliyinin artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **8.3. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | | | | |
| 8.3.1. | Tranzit daşımalar zamanı prosedurların sadələşdirilməsi məqsədilə normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına dair təkliflər hazırlanması | NK | ƏN, İN, RİNN, DGK, TYKŞ | 2024-2025 | müvafiq sahədə beynəlxalq təcrübənin öyrənilməsi və normativ sənədlərin layihəsinin hazırlanması ilə bağlı aidiyyəti dövlət orqanlarından (qurumlarından) təkliflər alınması | beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı layihələr hazırlanması | normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.3.2. | Tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən qaydaların hazırlanması | İN | RİNN, ƏN, DGK | 2024 | | tranzitinə lisenziya və ya icazə tələb olunan mallara dair müvafiq sənədlərin verilməsini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə layihələrin hazırlanması | normativ hüquqi akt layihələrinin razılaşdırılması və təsdiqi üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.3.3. | Tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf qiymət siyasətinin müəyyən edilməsi | RİNN | İN, MN | mütəmadi | tranzit yüklərin daşınmasında tətbiq edilən qiymət siyasəti ilə bağlı xarici ölkələrin təcrübəsinin araşdırılması, təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması və təhlili | tranzit yüklərə münasibətdə tarif metodologiyasının layihəsinin hazırlanması | yeni tarif metodologiyasının tətbiqi nəticəsində tranzit yüklərə münasibətdə vahid, çevik və şəffaf tariflərin tətbiqinə nail olunması |
| 8.3.4. | Tranzit yükdaşımaları, nəqliyyat və nəqliyyat ekipajları ilə bağlı nəqliyyat-yol sənədlərinin təkmilləşdirilməsi | RİNN | ƏN, "ADY" QSC | 2024-2025 | tranzit yükdaşımaları ilə və nəqliyyatla bağlı tətbiq edilən nəqliyyat-yol sənədləri barədə beynəlxalq təcrübənin araşdırılması və təkliflərin aidiyyəti dövlət orqanlarından (qurumlarından) alınması | təkliflərin təhlili və nəqliyyat-yol sənədlərinin layihəsinin hazırlanması | nəqliyyat və sərhəd buraxılış əməliyyatlarına sərf edilən vaxtın minimuma endirilməsini və Azərbaycan Respublikasının tranzit daşımaları üzrə potensialının artırılmasını təmin edəcək normativ sənədlərin qəbul edilməsi |

AKRONİMLƏR

**NK** – Azərbaycan Respublikasının Nazirlər Kabineti
**RİNN** – Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
**İN** – İqtisadiyyat Nazirliyi
**XİN** – Xarici İşlər Nazirliyi
**KTN** – Kənd Təsərrüfatı Nazirliyi
**ƏN** – Ədliyyə Nazirliyi
**MN** – Maliyyə Nazirliyi
**DGK** – Dövlət Gömrük Komitəsi
**DSX** – Dövlət Sərhəd Xidməti
**AQTA** – Qida Təhlükəsizliyi Agentliyi
**"ADY" QSC** – "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
**ASCO** – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
**BBDTL** – "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
**BHBTDL** – "Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı" Açıq Səhmdar Cəmiyyəti
**SOCAR** – Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
**TYKŞ** – Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası.

# Naxçıvanda Qərbi Azərbaycana Qayıdış hərəkatına dəstək

**Dünən Naxçıvan şəhərində “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” mövzusunda konqres öz işinə başlayıb. Soydaşlarımızın tarixi yurdlarına beynəlxalq hüququn tələbləri əsasında dinc və ləyaqətli qayıdışı hərəkatına ictimai dəstək məqsədi daşıyan elmi-təşviqedici aksiya Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilir.**

Festival-konqresin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanındakı abidəsini ziyarət etdilər. Sonra Heydər Əliyev Muzeyinə gələn iştirakçılara müstəqil Azərbaycan dövlətinin qurucusunun zəngin, çoxşaxəli siyasi irsi və mənalı ömür yolundan bəhs edən eksponatlar barədə məlumat verildi.





## Festival – konqresin açılışı

Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresinin açılış mərasimində əvvəlcə Qərbi Azərbaycanda milli-mənəvi varlığımızı, etnoqrafik yadigarları və folklor yaradıcılığını əks etdirən kompozisiya təqdim edildi, videoçarx nümayiş etdirildi.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “Qərbi Azərbaycana qayıdış” hərəkatına elmi-mədəni dəstək olan festival-konqresin iştirakçılarını salamlayaraq bildirdi ki, bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq, milli özünütəsdiq prosesini yeni mərhələyə yüksəltmək imkanı əldə edib. Uzun illər gizli saxlanılmış, zaman-zaman təhrif edilmiş fakt və hadisələrin əsl mahiyyəti aşkara çıxarılır və ədalətsizliklər aradan qaldırılır.

2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsində xalqımızın 30 illik işğala son qoyaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi, bu ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri isə suverenliyimizin Qarabağın bütün ərazisində təmin olunması nəinki Azərbaycanda, eləcə də Cənubi Qafqaz regionunda yeni geosiyasi gerçəklik yaradıb. Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpasının gündəmə gətirilməsi – Qərbi Azərbaycana qayıdış missiyasının dövlət siyasəti səviyyəsində ümumxalq hərəkatına çevrilməsidir.

Fuad Nəcəfli daha sonra qeyd etdi ki, 2022-ci il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı söylədiyi konseptual mülahizələrə, qarşıya qoyduğu vəzifələrə və verdiyi önəmli tapşırıqlara uyğun olaraq mükəmməl fəaliyyət proqramı olan konsepsiya qəbul olunub. Bir ilə yaxındır ki, ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı sistemli tədbirlərin həyata keçirilir. Qədim türk yurdu, tarix boyu Qərbi Azərbaycanla qonşuluqda eyni milli-mədəni areal olmuş Naxçıvanda “Qərbi Azərbaycana qayıdış” festival-konqresinin təşkili də məhz dövlət başçısının bu istiqamətdə müəyyənləşdirdiyi siyasətin icrasına xidmət edir. Bu aksiya Qərbi Azərbaycanın tarixi, mədəni irsi və azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkəmizdə kütləviləşmiş hərəkatın tərkib hissəsidir.



Səlahiyyətli nümayəndə tarixi faktlara istinad etməklə azərbaycanlıların deportasiyasının tarixin tam açılmamış və beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətini almamış səhifələrindən olduğunu diqqətə çatdırdı: “Təəssüf ki, xalqımıza qarşı erməni millətçilərinin öz havadarlarının himayəsi ilə törətdikləri etnik təmizləmə və deportasiya siyasəti zamanında xəyanətkarlıqla ört-basdır edilib, müstəqilliyin ilk illərində isə bu məsələyə lazımi diqqət vetrilməyib. Yalnız Ümummilli lider Heydər Əliyev ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ilk dəfə azərbaycanlıların deportasiyası və soyqırımı cinayətlərinə hüquqi-siyasi qiymət verib. 1997-ci il dekabrın 18-də “1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Prezident Fərmanı imzalanıb”.

Bu gün dünya birliyində söz sahibinə çevrilən Azərbaycan dövlətinin yeni reallıqlar formalaşdırdığını, hər bir soydaşımızın möhtəşəm tarixi hadisələrə şahidlik etdiyini vurğulayan muxtar respublika rəhbəri çıxışının davamında bildirdi ki, ulu öndər Heydər Əliyevin qüdrətli Azərbaycan dövləti qurmaq, milli haqlarımızı sonadək gerçəkləşdirmək siyasətini inamla davam etdirən Prezident İlham Əliyev ata vəsiyyətinə əməl edərək, torpaqlarımızı işğaldan azad etdiyi kimi, Qərbi Azərbaycana qayıdış missiyasını da qətiyyətlə himayə edir. Artıq Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük yol qət edilib. Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb.

Bildirildi ki, hazırda Qərbi Azərbaycana qayıdış konsepsiyası 3 prinsipə – tarixi faktlara, beynəlxalq hüquqa və dinc mübarizəyə əsaslanır. Ölkə Prezidentinin müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq, ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı gerçəkləşdirilən sistemli tədbirlərin davamı kimi bu gün Naxçıvanda keçirilən festival-konqres də ciddi mövzulara hədəflənib. Məqsəd soyqırımlarında böyük qurbanlar vermiş, kütləvi deportasiyaya məruz qalmış soyadaşlarımızın hüquqlarının bərpası, Qərbi Azərbaycanda etnomədəni terrora məruz qalmış tarixi-mədəni irsimizlə bağlı faktların ortaya qoyulması və dünya elmi ictimaiyyətinə çatdırılmasından ibarətdir.

Fuad Nəcəfli çıxışını dövlət başçısı İlham Əliyevin “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar” fikirləri ilə tamamladı. Səlahiyyətli nümayəndə “Qərbi Azərbaycana qayıdış” festivalının və konqresinin təşkilatçılarına təşəkkürünü bildirdi, iştirakçılara qarşıya qoyulmuş məqsədlərlə bağlı uğurlu fəaliyyət arzuladı.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev mərasimdə bildirdi ki, XX əsr boyu Qərbi Azərbaycanda soydaşlarımızın sivil inkişafı, təhsil hüququnun təmin edilməsi də erməni millətçilərinin davamlı basqısına məruz qalıb. Lakin soydaşlarımız milli varlıqlarını qorumaq üçün ciddi mübarizə aparmış, elm-bilik qazanmaq üçün ana dilli təhsili öz səyləri ilə inkişaf etdiriblər.

Qərbi azərbaycanlılar 1922–23-cü illərdə 36, 1924-cü ildə 62, 1929–30-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbinin fəaliyyətini təmin etməyə nail olublar. 1981–1982-ci tədris ilində Qərbi Azərbaycanda anadilli məktəblərin sayı 155-ə ensə də deportasiya ərəsində 206 azərbaycandilli məktəb fəaliyyət göstərib. Qərbi Azərbaycandakı məktəblərimiz bu coğrafiyada elmi-mədəni inkişafı təmin etməklə yanaşı, Azərbaycan üçün də yüksək ixtisaslı kadrlar hazırlığına layiqli töhfə verib. Həmin təhsil ocaqlarının məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib.

Nazir ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsinin olduqca vacib olduğunu bildirib. O, Azərbaycanın elm, təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi-tarixi nəzəri əsərlərin yaradılması zərurətini də qeyd edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev söylədi ki, Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımıza məxsus tarixi faktlar, ədəbi-mədəni dəyərlər, folklor nümunələri, toponimika məlumatları, o yurd yerlərindəki tarixi-mədəni abidələr barədə məlumatların tədqiq olunması ziyalıların, elm adamlarının qarşısında duran mühüm vəzifələrdir. Bu baxımdan, keçirilən festival-konqres mühüm əhəmiyyət kəsb edir. Konqresdə 200-dək məruzə dinləniləcək və onlar toplanaraq nəşr olunacaq. Naxçıvanda səslənən çağırırışlar və tarixi-mədəni faktlar Qərbi azərbaycanlıların layiqli və ədalətli şəkildə yurdlarına qovuşmasını hədəfə almış Qayıdış Konsepsiyasına mühüm töhfə olacaq.



Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli dedi ki, Prezident İlham Əliyevin Qərbi azərbaycanlıların qaçqınlıq taleyi ilə bağlı nümayiş etdirdiyi prinsipial mövqe, onların hüquqlarının bərpa olunmasına və öz doğma torpaqlarına qayıtmasına qəti və birmənalı dəstək ifadə etməsi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaqla bağlı tapşırıqları tarixi torpaqlarımıza dönüş uğrunda mübarizəyə mütəşəkkil yön və güclü təkan verib.

İcma rəhbəri qeyd etdi ki, 1987–1991-ci illərdə baş vermiş sonuncu deportasiya zamanı Qərbi Azərbaycandakı 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayıb, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edib. Bütövlükdə, 300-ə yaxın yaşayış məntəqəsində tarixən soydaşlarımız məskun olublar: “Lakin təəssüf ki, onların hamısı ermənilərə xas üsul və metodlarla son nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovuldular. Bu prosesdə 200-dən çox soydaşımızı ermənilər vəhşicəsinə qətlə yetiriblər, 400-dən artıq soydaşımıza bədən xəsarəti yetirilib. Qərbi Azərbaycan icmasına 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulub. Beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin məbləğ 700 milyard ABŞ dolları həcmindədir. Yeraltı, yerüstü sərvətlərimizə, tarixi-mədəni abidələrimizə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, müvafiq rəqəm bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə ölçmək olmaz”.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva beynəlxalq hüquqda xalqın tarixən yaşadığı doğma yurdundan zorla çıxarılmasının cinayət əməli hesab olunduğunu diqqətə çatdırdı: “Soydaşlarımızın Qərbi Azərbaycan torpaqlarından zorla çıxarılması və etnik təmizləmə siyasətini yerinə yetirənlər beynəlxalq müstəvidə cinayət məsuliyyətinə cəlb olunmalıdır. Ermənistan tərəfi 4 minə yaxın itkin düşmüş soydaşlarımızla bağlı sorğularımıza cavab və minalanmış ərazilərimizlə bağlı heç bir məlumat vermir. Bu isə işğaldan azad olunmuş ərazilərimizə qayıdış və quruculuq prosesini ləngidir”.

Ombudsman bildirdi ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvan 30 ildir blokada şəraitində yaşayır. Üçtərəfli Bəyanatda öz əksini tapan Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında kommunikasiyaların təmin olunması müxtəlif bəhanələrlə təmin olunmur. Səbinə Əliyeva beynəlxalq təşkilatlara səslənərək, Azərbaycana qarşı ədalətli mövqe göstərməyə, Qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına biganə qalmamağa çağırdı.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova söylədi ki, dəyişdirilmiş toponimləri və mövcud folklor nümunələrini öyrənməklə Qərbi Azərbaycan torpaqlarının tarixən Azərbaycan türklərinə məxsus olduğunu bir daha sübut edən faktlar aşkar edib. Erməni millətçilərinin Qərbi Azərbaycandakı yüzlərlə yer adlarını, tarixi faktları saxtalaşdırması heç nəyi dəyişmir. Çünki Azərbaycan xalqı yaşayır və öz tarixinə sahib çıxır.

Naxçıvanda keçirilən festival və elmi konqresin önəminə diqqət yetirən alim dedi: “bu qədim diyarda təşkil edilən etnoqrafik təqdimatlar, kütləvi tədbirlər və elmi müzakirələr soydaşlarımızın min illərlə məskunlaşdığı, tarixi sərhədlər daxilində yaratdığı böyük maddi-mənəvi dəyərlərin nümunələrini, Qərbi Azərbaycanda xalqımızın son 2 əsrdə keçdiyi faciələrlə dolu yolun əhatəli mənzərəsini ortaya qoyacaq. Elmi tədqiqatların təkzibolunmaz faktlarla ortaya qoyduğu həqiqətlər 2 əsr müddətində soyqırımı və deportasiya dəhşətləri yaşamış xalqımızın tarixi yaddaşı qoruyub saxladığını sübuta yetirəcək. Bütün bunlar Qərbi Azərbaycana qayıdış hərəkatının elmi-hüquqi əsalarını və siyasi diplomatik təminatını möhkəmləndirəcək.

Festival-konqresin açılış mərasimi bədii hissə ilə başa çatdı.

## Qərbi Azərbaycan kulinariyası

**Festival-konqres çərçivəsində “Araz” Dövlət Qəbul Evində Qərbi Azərbaycan kulinariyasının təqdimatı oldu. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev, dövlət və ictimaiyyət xadimləri, media təmsilçiləri iştirak edirdilər.**

Sərgidə İrəvan mətbəxinə aid 40 adda yemək, 50-yə yaxın şirniyyat və mürəbbə, 30-a yaxın şərbət, doşab, xoşab, 100-ə yaxın meyvə, quru meyvə və tərəvəz, 50-dən çox müalicəvi bitki, 20 adda qış tədarükü qidası, 13 növdə müxtəlif çay nümunələri nümayiş etdirilib.

Naxçıvan Dövlət Universitetinin tələbələri Qərbi Azərbaycan ənənələri əsasında hazırladıqları səhnəcikləri təqdim etdilər.



## Festival – konqresin davamı

Sonra Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında öz işini davam etdirən festival-konqresdə Qərbi Azərbaycana həsr olunmuş sərgiyə baxış oldu. Ekspozisiyada bu əzəli yurd yerimizə aid ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri nümayiş etdirilirdi.

AMEA-nın müxbir üzvü, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov “Qərbi Azərbaycana qayıdış” festival-konqresinin davamında çıxış edərək bildirdi: “Bu gün yaşadığımız qürurlu və sevincli günləri görmək üçün xalqımız 200 ildir ki, yaşadı, yaratdı, zəngin adət-ənənələrini qoruyub saxladı. Vətən müharibəsindəki parlaq Qələbəmiz sayəsində bu günləri görmək bizə nəsib oldu. Bu formatda ilk tədbirin məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Ulu öndər Heydər Əliyev başda olmaqla Azərbaycana böyük şəxsiyyətlər bəxş edən Naxçıvan həm də həmin çətin günlərdə Qərbi azərbaycanlı soydaşlarımıza qucaq açıb. Təsadüfi deyil ki, deportasiyaya uğrayan Qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb”.

Türkiyə Respublikasının Hacettepe Universitetinin rektoru, professor Mehmet Cahit Güran çıxışında Qərbi Azərbaycan torpaqlarının yüz illər boyunca azərbaycanlıların yaşadığı ərazilər olduğunu vurğuladı. Rektor qeyd etdi ki, Ermənistan tərəfindən zaman-zaman aparılan deportasiya siyasəti azərbaycanlıları öz torpaqlarından didərgin salıb, hüquqları tapdalanır: “Bu gün “iki dövlət, bir millət, tək yumruq” müstəvisində bölgədə yeni bir güc yaranıb. Bu güc bizi Qarabağ zəfərinə qovuşdurdu. Əminik ki, yeni reallıqlar Qərbi azərbaycanlı soydaşlarımızın da hüququnu bərpa edəcək, onlar öz doğma yurdlarına dönəcəklər”.

Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov bildirdi ki, Prezident İlham Əliyevin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının yaradılması Qarabağ Zəfərindən sonra mühüm mərhələ təşkil edir. İcmanın ötən dövrdəki fəaliyyəti, verilən bəyanatlar, görülən tədbirlər Qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə yurduna qayıtmasına böyük hüquqi və təşkilati dəstək kimi diqqətəlayiqdir.

Türkiyənin Qazi Universitetinin rektoru, professor Musa Yıldız, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Türkiyənin Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu, Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri, Azərbaycan Auditorlar Palatasının sədri Vahid Novruzov, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov və Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti, professor Aygün Attar da çıxış edərək festival-konqresi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına elmi yanaşma kimi yüksək qiymətləndirdilər.

Sonda iştirakçılar bədii kompozisiya təqdim edildi.

## AMEA Naxçıvan bölməsində

**Festival-konqres çərçivəsində AMEA Naxçıvan Bölməsində “Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar” kitabının təqdimatı keçirildi.**

AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli təqdim edilən kitabın elmi-təbliğati önəmini qeyd edərək bildirdilər ki, folklorşünas, dosent Aytən Cəfərova Qərbi Azərbaycandan qaçqın düşmüş, Naxçıvanın müxtəlif güşələrində məskunlaşmış soydaşlarımızla görüşlərindən əldə etdiyi təəssüratları təhlil edərək ümumiləşdirib.

Ölkəmizin və qardaş Türkiyənin görkəmli tədqiqatçılarının iştirak etdiyi festival-konqres bu gün işini davam etdirir. Keçirilən tədbirlərdə Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompozisiyalar, kitab sərgisi, kulinariya və maddi-mədəniyyət nümunələrindən ibarət stendlər, Qərbi Azərbaycana həsr olunmuş mahnı və folklor nümunələrindən ibarət konsert proqramı, Qərbi Azərbaycana həsr edilən filmlərin nümayişi və digər tədbirlər yer alacaq.

Festival-konqresə aid bütün məlumatların ictimaiyyətə daha əlçatan olması məqsədilə **https://qacon23.ndu.edu.az/** saytı yaradılıb.

*Tahir AYDINOĞLU,*
*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan – Bakı**

# Səfirlər Milli Məclisdə



**Dünən Milli Məclisin sədri Sahibə Qafarova Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Yevdokimov ilə görüşüb.**

S.Qafarova iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsində parlamentlərin önəmli rol oynadığını vurğulayıb. O, müxtəlif vaxtlarda Rusiya Federasiyası Federal Şurasının Sədri Valentina Matviyenko və Dövlət Dumasının Sədri Vyaçeslav Volodin ilə qarşılıqlı səfərlər və müxtəlif beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlərin əhəmiyyətindən danışıb.

Səfir Mixail Yevdokimov Rusiya ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin dinamik inkişaf etdiyini, xalqlarımız arasında dostluq münasibətlərinin olduğunu söyləyib. Parlamentlərarası əməkdaşlığın bu əlaqələrin genişləndirilməsində mühüm rol oynadığını qeyd edən səfir diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

***

Həmin gün Milli Məclisin sədri Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri İssambin Saleh əl-Cuteyli ilə də görüşüb.

Xalqlarımızın tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olduğunu deyən S.Qafarova ölkələrimiz arasında yaranan diplomatik münasibətlərin əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə yüksəltdiyini bildirib. O, Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfərləri çərçivəsində keçirilən görüşlərin və ölkələrimiz arasında imzalanmış sənədlərin münasibətlərimizin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirdiyini diqqətə çatdırıb.

Səfir İssambin Saleh əl-Cuteyli iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasını qeyd edib, müxtəlif sahələrdə, o cümlədən qanunverici orqanlar arasında əməkdaşlığın xalqlarımızın maraqlarına uyğun olduğunu vurğulayıb.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Azərbaycan Mərkəzi Asiya ilə Avropa arasında iqtisadi körpüdür

*Bakı daha bir nüfuzlu beynəlxalq məclisə – SPECA-nın zirvə görüşünə evsahibliyi edir*

***(əvvəli 1-ci səhifədə)***

Bakıda Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı (SPECA) çərçivəsində keçirilən indiki iqtisadi forumda regionda ortaq iqtisadi məqsədləri reallaşdırmaq, bərabərsizlikləri azaltmaq və bu coğrafiyada rifahı artırmaq məsələlərinin müzakirəsi zamanı Şərqlə Qərb arasında körpü rolu oynayan ölkəmizin çoxillik transsərhəd ticarət- mədəni mübadilə ənənələri ilə seçildiyi qeyd edilib. Bununla belə, SPECA çərçivəsində ticarət əlaqələri dərinləşdikcə infrastrukturun inkişafına da ciddi ehtiyac duyulduğu, bu sahədə təşəbbüslərin artırılmasının qarşılıqlı faydalı əməkdaşlıqda önəmli rol oynadığı vurğulanıb.




Bütün bunlar statistik göstəricilərdə də öz ifadəsini tapıb. Bununla bağlı əvvəlcə onu deyək ki, hazırda SPECA ölkələrinin dünya iqtisadiyyatında payı 3 dəfədən çox artıb. Son 25 ildə isə proqram iştirakçısı olan ölkələrin ÜDM-i 10 dəfə, qarşılıqlı ticarəti isə 50 faiz yüksəlib.

Ötən il Özbəkistanın SPECA ölkələri ilə ticarət dövriyyəsi 8 milyard dollar təşkil edib. Cari ilin on ayında isə bu göstərici 15 milyard dolları ötüb. Qazaxıstan da bu istiqamətdə fəal iş aparıb. Dost ölkə son dövrdə “vahid pəncərə” prinsipinin tətbiqinin reallaşdırılması ilə bağlı müəyyən layihələrin həllini diqqətdə saxlayıb, baza tarif dərəcələrindən istifadəyə xüsusi əhəmiyyət verib və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə ölkələrin həmin tarif dərəcələrindən səmərəli yararlanmasına çalışıb.

Qeyd edək ki, ölkəmizlə Qazaxıstan arasında mürəkkəb əməliyyat modeli mövcuddur. Belə ki, Qazaxıstan–Belarus–Rusiya yükdaşımaları 2011-ci ildən indiyədək çox kiçik həcmdən milyonlarla konteynerədək yüksəlib və bu, çox müsbət nəticədir. Burada əməliyyat fəaliyyəti dəmir yolları arasında həyata keçirilir. Azərbaycan ilə Qazaxıstan arasında yükdaşımalarında isə Xəzər dənizi və limanlar xüsusi əhəmiyyəti ilə diqqət çəkir. Bu baxımdan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Şərq-Qərb dəhlizlərinin inkişafında əsas rol oynayır və Azərbaycanın coğrafi mövqeyinin unikallığını təsdiqləyir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə bir müddət bundan əvvəl “Qazaxıstan Dəmir Yolu” Milli Şirkəti arasında da əməkdaşlıq barəsində memorandum imzalanıb. Bu sənədə əsasən, Asiya–Avropa transkontinental marşrutlar üzrə multimodal daşımaların daha da artırılması, nəqliyyat və logistika sahəsində innovativ həllərin tətbiq edilməsi ilə sürətli yükdaşımalarının artırılmasında qarşılıqlı işgüzar əməkdaşlığın inkişafı məsələləri barəsində bir sıra razılıqlar əldə olunub.

Bakı Limanı uğurlu ikitərəfli münasibətlər qurmaqla yanaşı, bir sıra beynəlxalq təşkilatların da fəal üzvüdür. Bakıda böyük müvəffəqiyyətlə təşkil olunan “IAPH– 2018” Dünya Limanlar Konfransında beynəlxalq arenada limanın tərəfdaşlıq və dayanıqlılığa sadiqliyinin qlobal iqtisadiyyatın gələcək inkişafına töhfə verəcəyi bir daha vurğulanıb.

Hazırda Ələtdə liman kompleksinin tikintisinin birinci fazasına daxil edilən bərə terminalı, ümumi, “Ro-Ro”, xidmət körpüləri, dəmiryolu xətləri, inzibati bina, gömrük məntəqəsi, açıq saxlama sahəsi, anbarlar, konteyner meydançası, körpülərə dəmir və avtomobil yolu yanaşmaları, ağır yüklərin yerləşmə sahəsi və yük maşınlarının dayanacağı yaradılır.

Xatırladaq ki, Bakı Limanı Ələtdə iki əsas nəqliyyat dəhlizinin– Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşir. Limanın inkişafı 2 mərhələ üzrədir. 2019-cu ildə birinci mərhələnin inkişafı başa çatdırılıb və sonra burada ümumi yükaşırma imkanı artırılaraq 15 milyon ton ümumi yükə və 100 min konteynerə çatdırılıb.

Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) araşdırmasına əsasən, 2022-ci ildə Qazaxıstanın Aktau və Bakı limanları arasında konteyner daşımalarının ümumi həcmi təxminən 33 min TEU təşkil edib. Qazaxıstanın cənubundan (Orta Dəhliz vasitəsilə) 18 min TEU, şimalından isə 15 min TEU keçib. Proqnozlara görə, 2025-ci ildə konteyner daşımaları 80 min TEU, 2030-cu ildə 110 min TEU, 2035-ci ildə isə 125 min TEU səviyyəsində gözlənilir.

Xatırladaq ki, Azərbaycan SPECA çərçivəsində həyata keçirilən layihələrin gerçəkləşməsində hər zaman fərqlənib. Məsələn, 2022-ci ildə respublikamızın SPECA ölkələri ilə ticarət dövriyyəsi 3,6 dəfə artaraq 1,3 milyard dollara çatıb. Cari ilin keçən 10 ayında isə həmin göstərici ötən ilin eyni dövrünə nisbətən təxminən 16 faiz artaraq 1,2 milyard dollar təşkil edib.

Azərbaycan proqram çərçivəsində ixracın həcminə görə də müsbət nəticələrə nail olub. Belə ki, keçən ilin eyni dövrünə nisbətən bu ilin ötən 10 ayında respublikamızın proqram iştirakçısı olan ölkələrə ixracı təxminən 82 faiz yüksəlib. Bu sahədə daha yüksək nəticələr əldə etmək üçün imkanlar da genişlənib.

Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi tədbirlərin reallaşdırılması yuxarıda qeyd edilən məsələlərin gerçəkləşməsinə mühüm töhfələr verib. İqtisadiyyat naziri Mikayıl Cabbarov forumdakı çıxışında bu barədə ətraflı məlumat verərək SPECA çərçivəsində ölkəmizin Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla ikitərəfli faydalı iqtisadi-ticarət tərəfdaşlığı və bu sahədə mövcud potensial barədə fikirlərini bildirib. O, Azərbaycanın artan nəqliyyat-tranzit potensialını ölkəmizin Mərkəzi Asiya ilə əlaqələrinin gücləndirilməsinə mühüm töhfəsi kimi dəyərləndirib. Mikayıl Cabbarov, eyni zamanda, Azərbaycanın Milli Prioritetlərinin, əlverişli biznes və investisiya mühitinin, ərazilərimizin azad edilməsinin yaratdığı yeni reallıqların bu kontekstdə önəmini diqqətə çatdırıb.

Azərbaycanın timsalından aydın görünür ki, SPECA ölkələrinin qlobal ticarətdə rolu ildən-ilə artıb, iqtisadiyyatları nəzərəçarpacaq dərəcədə inkişaf edib. Proqram iştirakçısı olan dövlətlərin davamlı iqtisadi inkişafı üçün bir sıra məsələlərə diqqət artırılıb. Eyni zamanda, müasir dövrün tələbləri ilə bağlı müəyyən layihələrin gerçəkləşdirilməsi qarşıya mühüm vəzifələr kimi qoyulub. Buraya rəqəmsal transformasiya, təchizat zəncirindəki problemlərin aradan qaldırılması, “yaşıl iqtisadiyyat”a keçidin sürətləndirilməsi və digər istiqamətlər daxil edilib.

Hazırda perspektivdə reallaşdırılacaq tədbirlərin icrasını sürətləndirmək məqsədilə SPECA Fondunun yaradılması üzərində iş aparılır. Həmin fonda daxil olacaq vəsaitin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə yönəldiləcəyi nəzərdə tutulur.

***V.BAYRAMOV***
***XQ***

**Hüquq lüğətlərində qeyd edilir ki, qrant humanitar, sosial və ekoloji inkişaf proqramlarını maliyyələşdirmək üçün əvəzsiz verilən maddi vəsaitdir. Bu maliyyə dəstəyi elmi tədqiqatlar, təhsil, səhiyyə, mədəniyyət, hüquqi yardım, informasiya işi, idman kimi sahələrdə modern texnologiyaların tətbiq olunmasını təşviq etmək üçün nəzərdə tutulub. Bir sözlə, cəmiyyətin rifahına xidmət edən proqramları stimullaşdırmaq məqsədi daşıyır.**

# Qərb təsisatlarının qrant maxinasiyaları

*“Abzas Media” ətrafında baş verənlər ciddi suallar doğurur*



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media üzrə eksperti***

Qrant haqqında anlayışlarda birmənalı şəkildə qeyd edilir ki, o, hakimiyyət uğrunda mübarizə məqsədləri, hər hansı siyasi təşkilatın və ya şəxsin seçki kampaniyasının maliyyələşdirilməsi üçün istifadə edilə bilməz. Ümumiyyətlə, siyasi partiyalara xarici ölkələrdən maliyyə yardımının göstərilməsi qanunla məhdudlaşdırılır. Problem ondadır ki, ABŞ və onun yedəyində olan Qərb dövlətlərində təsis edilmiş “donor təşkilatlar” məhz bu bəndi intensiv şəkildə pozurlar. Ayrı-ayrı ölkələrdə siyasi proseslərə təsir göstərmək, onu öz maraqları istiqamətinə yönəltmək üçün “çirkli qrant”lardan istifadə edirlər.

Qərb təsisatları maraqlarına cavab verən siyasi təşkilatları, onların üzərindən siyasi prosesləri maliyyələşdirmək üçün çaşdırıcı mexanizmlər qurublar. Sifarişlə işləyən siyasi mərkəzlərin ətrafında “peyk QHT-lər”, “peyk KİV-lər” cəmləşdiriblər. Çünki, siyasi partiyalardan fərqli olaraq, qanun vətəndaş cəmiyyəti qurumlarına, o cümlədən KİV-lərə qrant vəsaiti ayrılmasını qadağan etmir. ABŞ və digər Qərb institutları da bu məqamdan yararlanırlar. USAİD, NED, “Soros Fondu” və digər donor təşkilatlar tərəfindən “peyk QHT və KİV-lərə” humanitar, sosial, ekoloji, demokratik inkişaf proqramları adı altında “qrant” vəsaiti ayrılır. Bu yolla, qrant vəsaitinin hədəf ölkələrə çatdırılması leqallaşdırılır. Sonda isə vəsait “layihə almış QHT və KİV-lər”in vasitəçiliyilə siyasi mərkəzlərə ötürülür.

Gürcüstanda, Ukraynada törədilən “məxməri inqilablar”, 5 il öncə Ermənistanda gerçəkləşdirilən siyasi çevriliş, Türkiyədə ciddi iz buraxmış “Gəzi parkı” olayları və onlarla digər səs-li-küylü insidentlər məhz belə mexanizmlər vasitəsilə hazırlanaraq həyata keçiriliblər.

Qeyd edək ki, qanunsuz qrant vəsaitləri sifarişlə işləyən siyasi mərkəzlər üçün təkcə maliyyə mənbəyi deyil. Peyk QHT və KİV-ləri maliyyələşdirməklə, partiyalar üçün həm də sosial baza formalaşdırılır. Təlimatlandırılan, maliyyələşdirilən “QHT və KİV” təmsilçiləri bir sifarişlə küçələrə tökülüb xaos yarada bilirlər.

1990-cı illərdən, müstəqilliyin ilk illərindən etibarən Azərbaycanda da belə mexanizmlər tətbiq edilib. Qərb instituları qanunları pozaraq, müxalifət partiyalarını, siyasi çaxnaşmalar törədən mərkəzləri maliyyələşdiriblər. Hüquqi məsuliyyətdən yayınmaq üçün ötürdükləri vəsaitləri “qarant” adı ilə pərdələyiblər. Yəqin ki, əksər oxucular 1990-cı illərdə müxalifət partiyalarının – AXCP, Musavat, Sosial Demokrat- ətrafında qurulmuş peyk QHT və KİV-ləri xatırlayırlar.

Azərbaycan dövləti 2000-ci illərdən etibarən bu mexanizmi ifşa edib, onun aradan qaldırılması üçün tədbirlər görüb. Milli donor institutlarını yaratmaqla, QHT və KİV-ləri xaricin maliyyə asılılığından qurtarıb. 2014-cü ildə isə qanunvericiliyi yeniləyib, xaricdən qrant almaq prosedurlarını sərtləşdirib. Digər zəruri tədbirlər də görülüb.

Amma indi bəlli olur ki, Azərbaycan dövləti ehtiyat tədbirləri gördüyü kimi, “qrant şəbəkəsi” də çevik tərpənib. Qeyri-leqal vəsaitin ölkəyə gətirilib təsir dairəsində olan siyasi mərkəzlərə çatdırılması üçün son 6 il ərzində tamamilə yeni metodlardan faydalanıblar. 2014-cü ildən etibarən qeydiyyatsız qrantların Azərbaycana Gürcüstan üzərindən ötürülməsi həyata keçirilib. Təyinatı şübhə doğuran, milli maraqlara zidd olan “qrantlar”ın Azərbaycanda qeydə alınması çətinləşdiyi üçün, Azərbaycanda xarici sifarişləri icra edən QHT və KİV-lərə xüsusi imtiyazlar tanıyıblar. Onlar öz “qrantlarını” Gürcüstanda qeydiyyata aldırırlar. “Qrant üçün”, daha doğrusu, siyasi çaxnaşmalar üçün nəzərdə tutulmuş vəsaiti Gürcüstanda qəbul edirlər. Sonra həmin vəsaiti nəğdlaşdıraraq Azərbaycana gətirirlər, siyasi sifarişlər üçün xərcləyirlər. Bu fakt öz təsdiqini tapıbdır. Belə işləri icra edənlər üzərində cinayət işləri açılaraq, hüquqi ölçü götürülübdür.

Problem ondadır ki, Qərb institutları təkcə “Gürcüstan yolu” versiyasından istifadə etməyiblər. KİV-də yayılmış son məlumatlardan bəlli olur ki, qeydiyyatsız qrantlar digər fərqli üsullarla da realizə edilir. Bunun üçün çox hiyləgər variantlar hazırlanıbdır. Məsələn, qeydiyyatsız vəsaiti dövlətlərarası təşkilatlar vasitəsilə ölkəyə keçiriblər. Gətirilmiş vəsaiti hüquqi məsuliyyətdən yayındırmaq üçün “işbaz QHT-lərlə” sövdələşmələrə gediblər. Xaricdən aldıqları qrantları diqqətdən yayındıraraq daxili qrant kimi icra ediblər. Bunun



üçün partnyor QHT və KİV-lərə şərait yaradıblar. Vəsaitin bank yolu ilə deyil, nəğd şəkildə öütürülməsi onları hüquqi nəzarətdən yayındıra bilib.

Narahatlıq doğuran hal odur ki, ABŞ-ın təxribatçı “donor” institutları bu prosesləri Azərbaycanda marginal qruplarla əməkdaşlıq şəraitində icra ediblər. Məsələn, öz məqsədlərinə çatmaq üçün “radikal feministləri” təşkilatlandıraraq aktivləşdiriblər. Belə qruplar Azərbaycan zehniyyəti üçün zərərlidirlər. Milli maraqların ziddinə hərəkət edirlər. Yəni Qərb institutları bir tərəfdən qanunları pozaraq siyasi proseslərə maliyyə ayırırılarsa, digər tərəfdən cəmiyyətimizə zərər verəcək şəbəkələr formalaşdırırlar.

Azərbaycan hüquq-mühafizə orqanları qeyd edilən istiqamətə şübhəli hallar aşkarlayıblar. Yayılan məlumatlardan belə nəticə çıxır ki, “Abzas Media” redaksiyasında aparılan istintaq tədbirləri də bu amillə bağlıdır. Onun redaksiyasından götürülərək sənədləşdirilmiş 40 min Avro dəyərində vəsaitin mənbəyi bilinmir. “Qanunsuz qrant transferi” ilə əlaqəsi olduğundan şübhələnilir.

Biz, istintaqın hansı nəticələrlə bitəcəyini, faktların təsdiqini tapıb-tapmayacağını söyləyə bilmərik. Amma istintaqın davam etdirilməsi, 4 aylıq həbs qətiimkan tədbirinin seçilməsi əldə ciddi şübhələrin olmasından xəbər verir.

Bu məqamda düşündürücü suallar ortaya çıxır: ABŞ və onun yan təşkilatları Azərbaycandan nə istəyirlər? İndilik bilinən budur ki, ABŞ və onun Qərbdəki yançılarının niyyəti Azərbaycan xalqının iradəsinə təsir göstərmək, xalqımızın qələbəsinə kölgə salmaqdır. Onlar xalqla dövlət arasında inamsızlıq yaratmaq, cəmiyyəti parçalamaq və ölkəni qarşıdurma zonasına çevirmək niyyətindədirlər. Azərbaycan Ordusunun əzib dağıtdığı Ermənistan ordusunu yenidən dirçəldirlər. Qalib Azərbaycanın deyil, məğlub və işğalçı Ermənistanın şərtlərinə uyğun sülh müqaviləsi bağlatdırmaq istəyirlər.

Azərbaycan cəmiyyəti ayıq-sayıq olmalı, məkrli oyunların mahiyyətini bilməlidir.

# “Gənc Fest” – gənclərin idman bayramı

**Gənclər və İdman Nazirliyi və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə Su İdmanı Sarayı ərazisində yerləşən Avropa Oyunları Parkında “Gənc Fest” festivalı start götürüb.**





Dörd gün davam edəcək və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, gənclərlə görüşünün 30 illiyinə həsr olunan festivala respublikanın müxtəlif regionlarından gənclər qatılıblar. Tədbirin açılış mərasimindən əvvəl Azərbaycanın Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

**Açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini İndira Hacıyeva festivalın əhəmiyyətindən danışıb. Gənc nəslin düzgün yetişdirilməsinin ölkə siyasətində mühüm yer tutduğunu bildirən nazir müavini, qeyd edib ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir:**

– Gənclərimiz ölkəmizdə cəmiyyətin aparıcı qüvvəsi kimi öndə addımlayır, həyatın bütün sahələrində özlərini doğruldurlar. Bu gün gənclərin bayramıdır. Ulu öndər Heydər Əliyevin gənclərlə görüşünün 30 illiyinə həsr olunan bu festivalın təşkilində əsas məqsəd gənclərimizin daha da inkişaf etməsinə təkan verməkdir. Azərbaycanda bütün sahələr kimi, idman da sürətlə inkişaf edir, idmançılarımız böyük nailiyyətlər qazanırlar. Ötən 30 il ərzində gənclər siyasəti sahəsində böyük işlər görülüb. Bu gün Bakıda, eləcə də, bölgələrdə idmanla məşğul olmaq üçün geniş infrastruktur var. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılıb və bu iş davam edir. Bütün bunlar gənclərin hərtərəfli inkişafı üçün böyük əhəmiyyət daşıyır.

**Azərbaycan Gənclər Fondunun icraçı direktor vəzifəsini müvəqqəti icra edən Qədir Xəlilov isə vurğulayıb ki, ölkəmizdə gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, onların sağlam həyat tərzinin təşkili hər zaman diqqət mərkəzindədir. Gənclərimiz də dövlət qayğısını daim öz üzərlərində hiss edirlər:**

– Gənclərimiz daim öz üzərlərində işləyir, qazandıqları nailiyyətlərlə onlara bəslənilən etimadı doğruldurlar. Regionlarımızda gənclər üçün düşərgələr, seminarlar, festivallar təşkil edilir ki, bu da onların öz asudə vaxtlarını səmərəli keçirmələri üçün geniş imkanlar yaradır.

Festivalın ilk günündə effektiv komanda işi, yanğın təhlükəsizliyi, ilkin tibbi yardım, ilkin hərbi hazırlıq və teatr sənəti haqqında təlimlər keçirilib. Növbəti günlərdə isə “Bərpa Olunan Enerji”, “Nüvə Enerjisi”, “Su Çatışmazlığı”, “Texnoloji İnnovasiyalar” kimi ekoloji mövzularda debatların keçirilməsi planlaşdırılıb. Sonda proqramı uğurla başa vurmuş şəxslər müvafiq sertifikat alacaqlar.

*L.AMİN*
*XQ*

Yeni kitablar

# “Azərbaycan dilinin Meğri şivələri”

**Qərbi Azərbaycanla bağlı mənəvi sərvətlərimizin yenidən dövriyyəyə gətirildiyi günlərdə mərhum tədqiqatçı-pedaqoq Əhmədəli Əliyevin “Azərbaycan dilinin Meğri şivələri” monoqrafiyasının yoxlanılmış və təkmilləşdirilmiş ikinci nəşri işıq üzü görüb.**




Ana dilimizin tədqiqi sahəsində dəyərli mənbələrdən biri sayılan kitabın redaktoru Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Abbas Abbasov, rəyçiləri filologiya elmləri doktorları, professor Elbrus Əzizov və professor İbrahim Bayramovdur. Monoqrafiyada ilk dəfə olaraq qədim Zəngəzurun cənubunda yerləşən Meğri ərazisindəki Nüvədi, Aldərə, Vartanizor, Ernəzir, Lehvaz, Maralzəmi, Tuğut kənd şivələri öyrənilib. Müəllif bu şivələrin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərini zəngin dil materialları əsasında tədqiq etməklə yanaşı, ərazinin, bütövlükdə, türkmənşəli toponimlərini əhatəli şəkildə oxuculara çatdırıb. Bunlar dilimizin tarixinin tədqiqi, qədim türk ərazilərinin öyrənilməsi baxımından çox qiymətli materiallardır.

Tədqiqatın birinci fəslində Meğri rayonu şivələrində nitq prosesində qarşıya çıxan sait səslər və onların variantları, sait səslərin bir-birilə asanlıqla əvəzlənməsi, daha doğrusu, ön sıra saitlərinin arxa sıra saitləri ilə və yaxud arxa sıra saitlərinin ön sıra saitlərilə əvəzlənməsi, dodaqlanmayanların dodaqlananlarla, açıq saitlərin qapalılarla əvəzlənməsi və s. qeyd edilir. Eləcə də bəzi sözlərin əvvəlində, ortasında və sonunda təsadüf edilən səs artımı (proteza) hadisəsi misallarla göstərilir.

Kitabın ikinci fəsli Azərbaycan dilinin Meğri şivələrinin qrammatikasından bəhs edir. Orada əsas nitq hissələri sadalanır, hər bir izah şivə nümunələri ilə tamamlanır. Əsərin üçüncü fəsli isə “Sintaksis” bəhsinə həsr olunub. Orada mürəkkəb söz birləşmələri, o cümlədən təyini söz birləşmələrinin növləri sadalanır. Yarımbaşlıqlarda, ümumiyyətlə, cümlə, mürəkkəb cümlənin növləri haqqında izahlar, omonimlər, sinonimlər, habelə ayamalar, müxtəlif məzmunlu ağız ədəbiyyatı nümunələri barədə də maraqlı misallar diqqətə çatdırılır.

Monoqrafiyanın əlavə bölməsində Meğri şivələrinin zəngin leksika əksini tapıb. Lüğətə daxil edilmiş material minə yaxın söz və söz birləşmələri şəklində şərh edilir.

Yeni nəşrin redaktoru, professor Abbas Abbasov XQ-yə bildirdi ki, bu monoqrafiya müstəqil Azərbaycan dövlətinin apardığı məqsədyönlü “Qərbi Azərbaycana Qayıdış” strategiyasının tərkib hissələrindən biri kimi dəyərləndirilə bilər. Əsər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəngəzur dəhlizinin açılması, Türk Dövlətlər Birliyinin birbaşa quru yolla əlaqələrinin möhkəmlənməsi, Şərqlə Qərb arasında açılacaq yeni yola elmi dəstəkdir.

Bu monoqrafiyanı elmi ictimaiyyət Zəngəzurun bir hissəsi olan Meğri rayonunun qədim türk torpaqları olmasının təsdiqi haqqında nadir bir salnamə kimi qəbul edib. Bu qiymətli qaynağın ilk nəşri Ulu öndər Heydər Əliyevin anadan olmasının 80 illiyinə hədiyyə edilmişdi. Yeni nəşr isə Ümummilli liderin 100 illik yubileyinə töhfədir.

*XQ*

# “Qərbi Azərbaycan toponimləri”

## *Tarixin bu torpaqlardakı möhürü*

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə “Qərbi Azərbaycan toponimləri” mövzusunda respublika elmi konfransı keçirilib. Tədbirdə Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli “Torpağın dili – toponimlər” mövzusunda çıxış edərək bildirib ki, toponomika coğrafiya, tarix və dilçiliyin kəsişməsindən yaranan, inkişaf edən bir elmdir, mənşəyinə görə coğrafiyaya borcludur.**



Natiqin sözlərinə görə, toponimlər coğrafi adların etimologiyasının linqvistik mərhələsi kimi tanınmalıdır. Toponimik sistemin etnik təcrübə, xalqın inkişaf tarixinin və həyatının xüsusiyyətləri ilə müəyyən edilən mədəni və tarixi-etnoloji kateqoriyası dünyanın linvistik mənzərəsinin tərkib hissələrindən biridir.

Sonra, professorlar Sayalı Sadıqova, İlham Tahirov, İsmayıl Məmmədli, Kifayət İmamquliyeva, Elçin İsmayılov və digər tətqiqatçıların “Göyçə mahalının qədim toponimləri”, “Qərbi Azərbaycan toponimlərinin semantik-sahə strukturu”, “Göyçə mahalının etnotoponimləri”, “Qərbi azərbaycanlıların deportasiyası: şivələr və toponimlər”, “Qərbi Azərbaycan toponimlərinin izi ilə” və s. mövzularında məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, toponimlər xalqın tarixinin dəqiqləşdirilməsində, əcdadlarımızın ulu keçmişi haqqında biliklərin genişlənməsində mühüm rol oynayır, tarixi abidə kimi xalqın formalaşmasını, mənşəyini özündə qoruyub saxlayır.

Tədqiqatçıların fikrincə, Qərbi Azərbaycanda işlənən toponimlər də azərbaycanlıların qədimdən yaşadığı yerlərdən biri olduğunu sübut edən faktlardır. Coğrafi adlardan tutmuş toponimlərin formalaşmasında iştirak edən sözlərin hər biri burada yaşayan xalqların tarixini özündə yaşadır.

Təqdirəlayiq haldır ki, Dilçilik İnstitutunda Toponimika sektorunun əsasında yaradılmış Toponimika şöbəsi Qərbi Azərbaycanda ermənilər tərəfindən adları dəyişdirilmiş toponimlərin bərpası istiqamətində tədqiqatlar aparır.

Konfransda belə bir məqama da toxunuldu ki, Qarabağda zaman-zaman Azərbaycan tarixinə aid toponimlər kütləvi şəkildə dəyişdirilib, işğal dövründə bəzi adlar tərcümə edilib, bəzilərinə isə yeni erməni adları qoyulub. Xoşbəxtlikdən, xalqımızın 44 günlük tarixi savaşdakı parlaq qələbəsindən sonra ermənilərin bu istiqamətdəki saxta fəaliyyətinə son qoyulub.

*Fidan SALMANOVA*
*XQ*

# Elm xəbərləri

### Qardaşlığın elmi körpüsü

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Qırğız–Türk Manas Universitetinin rektoru, professor Alpaslan Ceylan ilə görüş keçirilib.**



Məclisdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türkiyə və Qırğızıstanın birgə ali təhsil ocağı olan Manas Universitetinin ortaq türk dəyərlərinin qorunması, öyrənilməsi və inkişaf etdirilməsi baxımından fəaliyyətini diqqətə çatdırıb. O, Qırğız–Türk Manas Universitetinin son illərdə Qırğızıstan, Türkiyə və Azərbaycan ali təhsil ocaqları ilə geniş əlaqələr qurduğunu və birgə layihələr həyata keçirdiyini qeyd edib. AMEA ilə də həmin universitetin əməkdaşlığı gözəl nəticələr verir.

Sonra Qırğız–Türk Manas Universiteti haqqında videoçarx nümayiş olunub. Professor Alpaslan Ceylan Türk tarixinin Anadoludakı mövcudluğu ilə bağlı araşdırmalar apararkən Azərbaycan, Gürcüstan və İran tarixinin də dərindən öyrənilməsi zərurətini nəzərə alaraq, bu ölkələrdə 10 ilə yaxın fəaliyyət göstərdiyini diqqətə çatdırıb. O, Qırğız–Türk Manas Universitetinin son 2 ildə dünyanın ilk 1000 universiteti siyahısında yer aldığını və 2025-ci ilədək bu siyahıda ilk 500-likdə olmasının hədəfləndiyini bildirib.

Görüşdə Türk ölkələri arasında əsas problemlərdən olan ünsiyyət dili və əlifba birliyi məsələsinə də toxunularaq bu sərhədlərin qısa zamanda aradan qaldırılmasına, türk birliyinin daha da güclənməsinə nail olunacağına əminlik ifadə edilib.

### DİM-də dövlət qulluğuna dəstək təlimi

**“Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək” texniki yardım layihəsi çərçivəsində “Səriştələrə əsaslanan vasitələrin hazırlanması və ötürülməsi üzrə potensialın artırılması” tərəfindən 19 dövlət orqanı nümayəndələri üçün təlim başa çatıb.**

Bu mövzuda beynəlxalq ekspertlər Eduard Zaxarçenko, Raçel Frost və Veselin Kantçev çıxış ediblər. Təlimin ilk hissəsi noyabrın əvvəlində olub. Ekspertlər iştirakçılarla müzakirələr aparıb və onların təlimdən gözləntiləri müəyyənləşdirilib. Təlimin davamında qurumun strateji planlarından qaynaqlanan ORCE qiymətləndirmə metodları ilə bağlı son vəziyyət dəyərləndirilib. Sonra ekspertlər onlayn formatda təlim keçiblər. Test sisteminin əhəmiyyətini, onun məzmununu və yanaşmalarını vurğulamaq üçün Situasiya Mühakimə Testləri (SJT) və səriştə ölçülməsində istifadə olunan qiymətləndirmə alətlərinin uyğunluğu müzakirə edilib.



Təlimin ikinci hissəsində obyektiv–subyektiv seçimlər və planlaşdırma ilə bağlı təqdimatlar olub. Ekspertlər tərəfindən onlayn formatda müsahibələr aparılıb və nəticələr qiymətləndirilib. Sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Xatırladaq ki, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda dövlət qulluğu sistemində islahatlara dəstək” 2022–2023 texniki yardım layihəsi “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya”nın həyata keçirilməsinə töhfə vermək məqsədi daşıyır.

### Qrant layihələri hesabatı

**İnformasiya Texnologiyaları İnstitutunda Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondu tərəfindən maliyyələşdirilən qrant layihələri çərçivəsində aparılan tədqiqatların hesabatına həsr olunmuş seminar keçirilib.**



AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev kollektivin əsas fəaliyyət istiqamətlərindən biri olan qrant layihələrinin əhəmiyyətindən danışıb. Alim qeyd edib ki, toplantının əsas məqsədi qrant layihələri üzrə görülmüş işlərin monitorinqini aparmaq, elmi nəticələri qiymətləndirmək və yeni vəzifələri müəyyənləşdirməkdir.

Sonra institut əməkdaşları müvafiq qrant layihələri çərçivəsində əldə olunmuş nəticələrə dair hesabatlarını təqdim ediblər. Hər bir layihə icraçısı qarşısına qoyulan məsələ, çap olunmuş məqalə və tezislər, eləcə də gələcək tədqiqatlar barədə məlumat verib. Hesabatlarla bağlı fikir mübadiləsi aparılıb, çoxsaylı suallar cavablandırılıb. Əldə olunan nəticələrin nüfuzlu, yüksək istinad indeksli jurnallarda çap olunmasının vacibliyini vurğulayıb.

*Ə.DOSTƏLİ*
*XQ*

Təqdimat

# Köçkün şairin yurd həsrəti

**İsmayıl İmanzadə imzası ötən əsrin 60-cı illərindən ədəbi ictimaiyyət arasında tanınır. Kitablarında onun duyğularını ifadə edən qanadlı misralar oxucu ürəyinə yol tapıb. Yazıçılar Birliyinin Natəvan klubunda tanınmış qələm sahibinin “Ömür muncuq düzümüdür”, uşaqlar üçün yazdığı “Hər çəməndən bir çiçək” və ədəbi yaradıcılığından bəhs edən məqalə və rəylərdən ibarət “Halal insanın söz halallığı” kitablarının təqdimat mərasimində bu barədə ətraflı danışılıb.**






Dünyaya göz açdığı Cəbrayıla qırılmaz tellərlə bağlı olan şairin şeirlərində hər cığırı, hər dolayı ona doğma olan yerlərin mənzərəsi – şəlalənin nəğməsi, çayların şırıltısı, bulaqların zümzüməsi, meşələrin payız pərişanlığı, torağaylı çöllərin yay duyğuları, gənclik illərinin sevdası ilə yanaşı, yurd sevgisi də öz əksini tapıb. Doğma torpağın işğalından sonra Mingəçevirə pənah apararaq “arzularından özünə dam tikən”, “ağrı-acısına bürünüb yatan”, “Kürü Araz, Bozdağı Diri dağ bilən” şair məcburi köçkün taleyi yaşayıb. Vətən müharibəsində xalqımızın qazandığı möhtəşəm Zəfərdən sonra onun şeirlərinə nikbin ruh, qürur dolu misralar əlavə olunub.

Doğma yurdu tərk edəndə evinin açarları ilə çıxan və onu əziz bir xatirə kimi özündə saxlayan İsmayıl İmanzadə indi yenidən ata-baba ocağına dönməyə, hər daşını, qayasını, kol-kosunu yaddaşına həkk etdiyi Mərcanlı kəndində çıraq yandırmağa tələsir. Şairin özünün də dediyi kimi, axı “ömür muncuq düzümüdür, harda qırıla-qırıla...”

Yazıçılar Birliyin katibi Elçin Hüseynbəyli, filologiya elmləri doktoru, professor Rüstəm Kamal, filologiya üzrə fəlsəfə doktoru Tariyel Abbaslı, şair Musa Ələkbərli və başqaları şairin yaradıcılıq məziyyətləri, indiyədək işıq üzü görən 30-dan artıq kitabı barədə bəhs ediblər. Müəllifin uşaqlar üçün yazdlığı şeirlərdə sadəlik, axıcılıq, dil rəvanlığı ilə yanaşı, etnoqrafik detallar xüsusilə diqqəti cəlb edir. Çıxış edənlər Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri kimi fəaliyyət göstərən İsmayıl İmanzadənin rəhbərlik etdiyi yaradıcılıq qurumuna çoxlu istedadlı gənc cəlb etdiyini və onların yaradıcılıq məhsullarından ibarət bir neçə almanax və jurnalın çap edildiyini də vurğulayıblar.

Mərasimin sonunda şair İsmayıl İmanzadə təşkilatçılara və onun yaradıcılığına yüksək dəyər verənlərə minnətdarlığını bildirib.

*Süleyman QARADAĞLI*

# Kibertəhlükəsizlik virtual məkanın sipəridir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycanın regionda və dünyada nüfuzu kəskin artıb. Düşmən üzərində ədalətli Qələbəmizi həzm edə bilməyən bəzi ölkələr informasiya təhlükəsizliyi sahəsində də müəyyən problemlər yaratmağa çalışırlar. Bu kimi məsələlər elektron təhlükəsizliyin təmin edilməsini vacib şərt kimi önə çəkir.**

Virtual dünyada var olmaq indi artıq bizdən məlumatlarımızın təhlükəsizliyini qorumağı tələb edir. İstər fiziki şəxslər, isər dövlət qurumları, istərsə də bizneslər texnologiyanın gətirdiyi üstünlüklərlə daxili və xarici kiber hücumlardan özlərini müdafiə etməyə çalışırlar.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası"nda da kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsinə xüsusi yer verilib. Həmçinin son illər bu istiqamətdə görülən işlər, qəbul edilən normativ hüquqi aktlar, yaradılan kibermərkəzlər də bunun bariz nümunəsidir. Ölkəmizdə kibertəhlükəsizliyin vacibliyi nəzərə alınaraq bir çox tədbirlər həyata keçirilib. Məsələn, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi və Beynəlxalq "Alqoritmika" qurumu birgə "İT Akademiya" formalaşdırıblar və yaxın müddətdə 3000 mütəxəssis hazırlamağı hədəfləyiblər. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində informasiya texnologiyalarının tədrisi üzrə Azərbaycan–İsrail Təlim Mərkəzi kibertəhlükəsizlik sahəsində İsrail mütəxəssislərinin köməyi ilə kadr hazırlamağı planlayıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşəbbüsü ilə 2021-ci ildən "Technest" layihəsinə start verilib. Məqsəd İT üzrə milli kadrların yetişdirilməsini sürətləndirməkdir. Nazirlik "İKT Lab" Tətbiq və Tədris Mərkəzi, "Code Academy", İsrail–Azərbaycan Təlim Mərkəzi, Tech Academy, "ABB Tech" ilə bu istiqamətdə əməkdaşlıq edir.

Eləcə də, kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlığı məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin tanınmış "Technion" Universiteti arasında müqaviləyə əsasən fəaliyyətə başlayacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi növbəti 3 il ərzində 1000-dən çox peşəkar mütəxəssis hazırlamağı hədəfləyib.

Elektron Hökumətin İnkişafı Mərkəzi, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və "B.EST Solutions" şirkəti birgə memorandum imzalayıb və Estoniyanın kibertəhlükəsizlik şirkəti – "CybExer" ilə birgə sahə üzrə təlimlər verməyi planlaşdırır, Azərbaycan Texniki Universitetində Elmi Şuranın qərarı ilə Kibertəhlükəsizlik İnstitutu və Kibertəhlükəsizlik kafedrası yaradılıb. XRİT Dövlət Xidməti ilə əməkdaşlığa başlanıb. Burada artıq Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası ilə birgə kadr hazırlığına başlanıb. Elm və Təhsil Nazirliyi "Code Academy" ilə birgə BDU və AzTU-da İT sahəsi üzrə xüsusi kurslar təşkil edib.

"Heydər Əliyev İli" çərçivəsində Bakı Konqres Mərkəzində keçirilmiş kiberfestival ("Critical İnfrastructure Defence Challenge 2023") mövzunun əhəmiyyətini bir daha diqqətə çatdırmış olub. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən tədbir kiber sahə üzrə yerli və xarici şirkətləri, dövlət və özəl sektorda fəaliyyət göstərən qurumları, tələbə və ekspertləri bir araya toplamışdı. Kiberfestivalın məqsədi dövlət qurumları, kritik infrastrukturlar, maliyyə və telekommunikasiya sektorları əməkdaşlarının informasiya təhlükəsizliyi üzrə təcrübə, bilik və bacarıqlarının təkmilləşdirilməsi, dövlət və özəl sektorlararası şəbəkələşmənin və koordinasiyanın gücləndirilməsi idi.

Tədbir çərçivəsində 14-ü yerli və 27-si xarici olmaqla, ümumilikdə, 41 şirkət, 5 dövlət qurumu və 8 startapın qatıldığı "Kibertəhlükəsizlik" sərgisi, "Hack the future" ("Gələcəyi hədəf seçin") proqramı üzrə müxtəlif bilik səviyyələrinə və yaş kateqoriyalarına uyğun İT üzrə ustad dərsləri təşkil olundu və iştirakçılara kiberdünyada qlobal çağırışlar, kibertəhdidlər üzrə panel müzakirələrini dinləmək imkanı yaradıldı.

Eyni zamanda, festivalda Azərbaycanda ilk dəfə kiberhücumların simulyasiyası ilə virtual müharibədə dövlət qurumlarının, kritik infrastrukturların, bankların, telekommunikasiya müəssisələrinin İT üzrə 3–5 nəfər tərkibli 20 komandası 2 gün ərzində yarışdılar. Qalib komandalara 30 min manat (1-ci yer 15000, 2-ci yer 10000, 3-cü yer 5000 azn)sanballı məbləğdə pul mükafatları verildi. İlk yerin qalibi Dövlət Neft Şirkətinin "UEİB" komandası oldu, 2-ci yeri "Azercell" şirkətinin "Cybercell" komandası,3-cü yeri isə Azərbaycan Prezidentinin Təhlükəsizlik Xidmətinin "Dəmir Yumruq" ("Iron Fist") komandası tutdu. Həmçinin, təşkilatçılar tərəfindən informasiya təhlükəsizliyi mövzusunda 10 təqdimat, 5 panel müzakirəsi və 6 fərqli sahə üzrə ödənişsiz təlimlər keçirildi.

Festivalda qərara alındı ki, tədbirlər növbəti illərdə də həm səhvi infrastrukturlar üçün xüsusiləşdirilmiş formada, həm də beynəlxalq səviyyəli kibermühəribə yarışı formatında davam etdirilsin.

Sadalanan tədbirlər görülmüş və görüləcək işlərin bir qismini əhatə edir. Hazırda vətəndaşların, dövlər və özəl qurumların kibertəhlükəsizliyi prioritet məsələ seçilərək, bu istiqamətdə yeni layihələr üzərində də çalışılır.




**Ekspert rəyi**

**Osman GÜNDÜZ, Azərbaycan İnternet Forumunun prezidenti**



Azərbaycanda kibertəhlükəsizliklə bağlı infrastrukturun və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılıb. Son bir-iki il ərzində ölkədə informasiya texnologiyaları, xüsusilə də kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanmasında sanki bir yarış başlandığı müşahidə olunur. Əvvəllər bu sahədə universitetlər və az sayda qurumlar, "Step İT Academy", "Code Academy" və sair, bu tip qurumlar peşəkar İT hazırlığı ilə məşğul olurdular. İndi xeyli sayda yeni qurumlar bu istiqamətdə fəaliyyətə başlayıblar.

Hətta Elm və Təhsil Nazirliyindən fərqli bir çox dövlət qurumları da peşəkar İT təhsil sektoruna baş vurublar. Bilmirəm, bəlkə də bu yaxşıdır. Çünki ölkəmizdə bu sahədə mütəxəssis qıtlığı var. İnanmaq istərdim ki, keyfiyyət də unudulmayacaq. Ümid edirəm, bu sektorda yeni olan iddialı qurumlar keyfiyyətli mütəxəssis hazırlığı sahəsində qarşıya qoyulan məqsədlərə çata biləcəklər.

**Ekspert rəyi**

**Kənan YUSUBOV, Mobil Platforma üzrə mütəxəssis**



Ənənəvi platformadan elektrona keçid üstünlüyü ilə yanaşı, təhlükələrlə də bizi qarşılayır. Elektron məlumatlar elə qorunmalıdır ki, kiber hücumların qurbanına çevrilməsin. Məsələn, hansısa bankda təhlükəsizlik baxımından kiçik boşluq milyon, milyardlarla manat pulların mənimsənilməsinə gətirib çıxaracaq. Təhlükəsizlik qurumlarının məlumatlarının ələ keçirilməsi isə dövlət üçün təhdid və təhlükə yarada bilər. Bütün bunları nəzərə alaraq vurğulanmalıdır ki, bu və bu kimi festivalların önəmi olduqca yüksəkdir.

Azər¬baycanda virtual sahəyə həvəs və maraq artmaqdadır. Qanunvericilik baza-sının təkmilləşdirilməsi, ali və orta-ixtisas təhsili müəssisələrində bu istiqamətdə kadrların hazırlanması atılan önəmli ad¬dımlardandır. Prezident İlham Əliyevin müxtəlif vaxtlarda imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar rəqəmsal aləmdə çalışanların inkişafı üçün yeni imkanlar yaradıb.

# Süni intellekt təhsili daha əlçatan və faydalı edə bilir



**Günümüzün reallığı sayılan internetin əhatə dairəsi genişlənməkdədir. Bu şəbəkə vasitəsilə yaradılmış süni intellekt təhsilin də formasını dəyişərək, şagirdlərin öyrənmə və təhsilləri ilə qarşılıqlı əlaqədə inqilab etmək potensialına malikdir. Fərdiləşdirilmiş tədris təcrübələri gənclərə akademik məqsədlərinə və tam potensiallarına çatmaqda kömək edə bilər.**

Bakıdakı A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyin təlim-tərbiyə işləri üzrə direktor müavini, STEAM müəllimi, rəqəmsal bacarıqlar və ARTİ layihələri üzrə təlimçi, Elm və Təhsil Nazirliyinin VI qrant müsabiqəsinin qalibi Çinarə Kazımova ilə söhbətimiz bu barədədir.

***– Çinarə xanım, öncə təhsildə süni intellektin əhəmiyyətindən danışardınız.***

– Adaptiv öyrənmə platformaları tələbələrə fərdiləşdirilmiş öyrənmə təcrübəsi təqdim etmək üçün süni intellektdən istifadə edir. Bu platformalar öyrənmə ehtiyaclarını və tərəqqini təhlil edir, onların tədris metodlarını hər bir şagirdin, tələbənin ehtiyac və qabiliyyətlərinə uyğunlaşdırır. Ümumilikdə, süni intellekt hər kəsin öyrənmə nəticələrini yaxşılaşdırmaq və ümumi tədris təcrübəsini artırmaqla təhsili dəyişdirmək potensialıdır. Süni intellektlə işləyən sistemlər qiymətləndirmə və planlama kimi inzibati tapşırıqları sadələşdirməyə, müəllimlərin tədrisə və tələbə dəstəyinə diqqət ayırmaq üçün vaxtını azad etməyə kömək edə bilər.

***– Süni intellekt hansı sahələrə tətbiq etmək olar?***

– Suni intellekt elmin ən müasir sahələrindən biridir. Əhatə etdiyi elmi istiqamətlərə öyrənmə və qavrama kimi ümumi xarakterli məsələlərdən tutmuş, şahmat oynamaq, riyazi teoremləri isbat etmək, bədii əsərlər yazmaq və xəstəliklərin diaqnostikası kimi məsələlər daxildir.

Den Broun "Başlanğıc" əsərində baş qəhrəman professor Lanqdonun dili ilə süni intellekt robotu Vinstona belə sual verir: "Sənin ümidlərin və xəyalların varmı?". Bəli, insan yalnız intellektual zəkadan ibarət canlı deyil. Onun ümidləri, xəyalları, arzuları, duyğuları, ən əsası, ruhu var. İnsanı maşından, robotdan fərqləndirən də elə budur. Duyğulara və ruha sahib insan isə ruhsuz və duyğusuz hər cür robot və maşından həmişə bir addım öndə olacaq.

***– Nəticə olaraq, süni intellektə təhsildə inqilab etmək, şagird və tələbələrə fayda vermək potensialına malik sahə deyə bilərikmi?***

– Süni intellektin gücündən istifadə etməklə biz təhsili gənclər üçün cəlbedici və səmərəli edə bilərik. Çünki süni intellekt insan məntiqini maşınlarda təqlid etmək məqsədi daşıyan riyazi elm və texnologiyadır. Bu elm intellektual maşın yaratmağı, xüsusən, yalnız insanlara məxsus olduğu düşünülən, yaradıcı fəaliyyət göstərən intellektual proqram yaratmağı özünə məqsəd seçib. Eyni zamanda, bu, insan intellektinin araşdırılması kimi də başa düşülür.

***– Bəs ağıllı repetitorluq sistemlərinin faydaları nədən ibarətdir?***

– Ağıllı repetitorluq sistemləri tələbələrə dəstək vermək üçün alqoritmlərdən istifadə edir. Bu sistemlər hər bir tələbənin ehtiyaclarına uyğunlaşır və onlara mürəkkəb anlayışları öz sürəti ilə öyrənməyə kömək etmək məqsədini güdür. "Duolingo" kimi dil öyrənmə proqramları gənclərə fərdi dil öyrənmə təcrübəsi təqdim etmək üçün süni intellektlə işləyən nitqin tanınması texnologiyasından istifadə edir. Bu proqramlar real vaxt rejimində tələffüz və qrammatika ilə bağlı rəy təqdim edərək yeni dili daha effektiv öyrənməyə kömək edir. "Amazon"un "Alexa" və "Google Assistant" kimi virtual köməkçiləri gənclərə müxtəlif yollarla dəstək və təlimat verə bilər. Tələbələr suallar verməklə, xatırlatmalar təyin etmək və öyrənmə resurslarına daxil olmaq üçün virtual köməkçilərdən istifadə edə bilərlər. "Çatbotlar" tələbələrə psixi sağlamlıqla bağlı məsləhət və dəstək vermək üçün istifadə olunur. "Woebot" depressiya və narahatlıq əlamətləri yaşayan gənclərə koqnitiv-davranış terapiyası təqdim edən "chatbotdur".

***– Məşhur Microsoft şirkətinin qurucularından biri Bili Geytsin proqnozlarına görə, elm və texnikanın yaxın gələcəkdə əsas inkişaf istiqaməti robototexnika olacaq. Siz necə düşünürsünüz?***

– Elədir. Robotlar hərəkət etməklə verilmiş tapşırıqları yerinə yetirən fiziki qurğulardır. Bu məqsədlə robotlar ayaqlar, təkərlər, kabellər, tutacaqlar kimi icraçı mexanizmlərlə təchiz olunur. Bundan başqa, robotlarda ətraf mühitdən verilənləri qəbul etmək üçün sensorlar da quraşdırılır.

Bugünkü robotları üç kateqoriyaya ayırmaq olar: robot manipulyatorlar, mobil robotlar və humanoid robotlar. Robot manipulyatorlar fiziki olaraq öz iş yerinə, məsələn, zavodda quraşdırma konveyerinə və ya kosmik stansiyanın bortuna bağlı olur. Avtomobil zavodlarının əksəriyyətində istehsal prosesi robot manipulyatorlar vasitəsilə idarə olunur. Mobil robotlar təkərlər, ayaqlar, yaxud analoji mexanizmlər vasitəsilə hərəkət edir. Onlardan xəstəxanalarda yemək daşımaq, yük tərsanələrində konteynerlərin yerini dəyişdirmək və digər işlərin yerinə yetirilməsində istifadə olunur. Humanoid robotlar fiziki quruluş baxımından insanı xatırladır.

# Şəhid oğlu Dünya Robot Olimpiadasında

**Dünya Robot Olimpiadasında 2-ci yeri tutan Azərbaycanın "Village Boys" komandasının 3 üzvündən biri Hacı Hacıyev Vətən müharibəsində böyük qəhrəmanlıqlar göstərən şəhid polkovnik-leytenant Abakar Hacıyevin oğludur.**



Hacı Hacıyev Akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdidir. O, Bakı şəhərində keçirilən VI Robot olimpiadasında "Future İnnavation" (Junior) kateqoriyası üzrə I yerə layiq görülüb.

Noyabrın 7-dən 9-dək keçirilən Dünya Robot Olimpiadasında isə gümüş medal qazanıb.

# Mobil telefonlar soyuqda niyə sönür?



**Müşahidələr göstərir ki, cib telefonları soyuq, şaxtalı havalarda istifadə edilən zaman müvəqqəti olaraq fəaliyyətini dayandıra bilir. Bunun əsas səbəbi aşağı temperaturun batareyaya təsiridir.**

Şiddətli don litium ionlarının keçiriciliyinin azalmasına səbəb olur. Nəticədə, batareya gərginlik təchizatının öhdəsindən gələ bilmir və mobil cihaz sönür.

Bu, baş verməsin deyə, ən yaxşı variant soyuqda mobil telefondan istifadəni dayandırmaqdır. Termometrlər 0 dərəcədən aşağıdırsa, telefonu cibinizdən və ya çantanızdan çıxarmayın. Smartfonunuzun sönməsi riskini minimuma endirmək üçün qoruyucu korpus almağınız məsləhətdir.

# Müasir texnologiya və insan

**Texnologiyanın sürətli inkişafı və onunla sıx təmas insan beyninə təsirsiz ötüşmür. Texnologiyanın insanlar üçün müsbət cəhətləri ilə yanaşı, mənfiləri də qaçınılmazdır. Bu vasitələrdən həddən çox istifadə isə beyinin elektrik fəaliyyətinə və ümumi işini poza bilər.**

Çağdaş texnologiyalar öyrənməyi sürətləndirməklə yanaşı, ictimai izolyasiyaya səbəbola, internet asılılığına gətirib çıxara bilər. Beyin təkamülünün yaşandığı hazırkı dövrdə uğurlu olmaq üçün, törənə biləcək maneələrdən qaçmaq və bu təkamülə uyğunlaşmanı təmin etmək lazımdır. Amerika tədqiqatçıları bildirirlər ki, günümüzdə texnoloji inkişafla bərabər, beynimiz də daha əvvəl heç olmadığı bir sürətlə təkamül keçirir.

Başqa bir araşdırma isə göstərir ki, internetdən istifadə edən və video oyunları oynayanlar bunları etməyənlərə müqayisədə vizual məzmunu və simvolları daha tez qavrayırlar. Bu, texnologiyanın beyinə olan faydasıdır. Lakin…

Rəqəmsal texnologiyaların ətraf mühitə yaydığı şüaların beyin hüceyrələrinə zərər verdiyi də kimsə üçün sirr deyil. Nəticədə, epilepsiya kimi bir çox xəstəliklər ortaya çıxır. Bu xəstəlik beynin elektrik fəaliyyətinin pozulması ilə əlaqədar yaranır. Araşdırmalara inansaq, texnoloji alətlər sinir yollarımıza da zərər verərək, biz nə qədər çox oxusaq da, az məlumat xatırlamağımıza səbəb olur. Bildirilir ki, cib telefonlarımızdan tutmuş digər böyükhəcmli texnoloji alətlərdən istifadə etməklə gün ərzində daha çox informasiyaya məruz qalırıq. Bu isə diqqətin çox tez dağılamasına səbəb olur. Digər tərəfdən isə düşünülür ki, texnologiya sayəsində beynimizin fiziki quruluşu hər keçən il dəyişir. Bu da zamanla duyğularımıza və insani keyfiyyətlərimizə mənfi təsir göstərir.

Həmçinin texnologiyaya bağlılıq insanları cəmiyyətdən uzaqlaşdırır. Mütəxəssislər hesab edirlər ki, azyaşlı uşaqların texnologiya ilə sıx bağlı olması onların beyinlərinin inkişafına daha çox mane olur. İnkişaf yaxşıdır, amma bu, insanlarda kortəbii vərdiş halına çevrilməsə, daha yaxşı olar.

**XQ**

***Səhifəni hazırladılar:***
***Əli NƏCƏFXANLI,***
***Rizvan FİKRƏTOĞLU,***
***XQ***

İdman

# Avropa Ədalətli Oyunlar Hərəkatının Bakı Konqresi

**Bakıda Avropa Ədalətli Oyunlar Hərəkatının Konqresi öz işinə başlayıb.**



Konqresdə iştirak etmək üçün Bakıda səfərdə olan hərəkatın rəsmiləri, üzv ölkələrin nümayəndələri, təşkilatçıları Fəxri Xiyabana gələrək xalqımızın Ulu öndəri, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri düzüblər. Həmçinin Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla anılıb.

Daha sonra qonaqlar Şəhidlər Xiyabanını ziyarət edib, ölkəmizin azadlığı uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini yad edib, "Əbədi Məşəl" abidəsinin önünə əklil qoyublar. Nümayəndə heyəti "Türk Şəhidliyi" abidəsini də ziyarət ediblər.

Qeyd edək ki, konqres çərçivəsində Avropa Ədalətli Oyunlar "Qala mükafatlandırma"sı mərasimi olacaq. İştirakçılar Avropada və ölkəmizdə ədalətli oyunların təşviqi və hərəkatın inkişafındakı xidmətlərinə görə təltif ediləcəklər.

Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası ilə Azərbaycan Gənclər və İdman Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində təşkil olunan və "İdmanda irqçiliyin aradan qaldırılması üçün Ədalətli Oyun Təhsili" mövzusunu əhatə edəcək konqres iki gün davam edəcək.

***L.QURBANOVA***
***XQ***

# Gəncə, Lənkəran və Masallının yetirmələri Milli Gimnastika Arenasında

**Heyrətamiz gözəlliyi ilə göz oxşayan, gimnastların məşqləri üçün hər bir şəraiti olan Milli Gimnastika Arenasında (MDA) bu günlər Gəncə, Masallı və Lənkəran Olimpiya idman komplekslərinin bədii gimnastika bölməsinin üzvləri təlim-məşqlər keçirlər.**



Zalda 8-13 yaşlı gimnastlar musiqi sədaları altında əşyasız, eləcə də gürzlər, top, halqa, lentlərlə müxtəlif gimnastika və rəqs hərəkətləri, elementləri yerinə yetirdikcə özlərini peşəkar idmançı kimi hiss edirlər. Qızlar yorulmaq bilmədən sonadək verilən tapşırıqları dəqiq yerinə yetirmək üçün böyük səy göstərirlər.

**Məşqdən sonra 8 yaşlı Cansu Həmidzadəyə yaxınlaşırıq. Masallı təmsilçisi artıq 2-ci dəfədir ki, burada məşq edir:**

– Burada zal çox böyük və gözəldir. Bir ildir ki, bədii gimnastika ilə məşğul oluram. Əşyalardan topla hərəkətlər daha çox xoşuma gəlir. Arzum böyük yarışlara qatılmaq və yaxşı nəticələr qazanmaqdır.

**Lənkəran Olimpiya Kompleksinin yetirməsi Mədinə Hüseynova 7-ci sinifdə oxuyur. İdmanla məşğul olmaq dərslərinə mane olmur. Bədii gimnastika ilə 8 yaşdan məşğul olur:**

– Gimnastika ilə məşğul olmaq insana xüsusi zövq verir. Məşqlərə böyük həvəslə qatılıram. Bir sıra yarışlarda nailiyyətlər də qazanmışam. Burada məşqlər çox xoşuma gəlir. Milli Gimnastika Arenası möhtəşəmdir. Zal geniş və işıqlıdır.

**Gəncəli Mətanət Namazlının 13 yaşı var. 9 yaşdan bədii gimnastika ilə məşğul olur. Deyir ki, gimnastikaya maraq yarışlardan yaranıb:**

– Uşaqlıqdan gimnastika yarışlarına baxmağı xoşlayırdım. Çox istəyirdim ki, lent, top və digər alətlərlə hərəkətləri öyrənim, onları əsl gimnastlar kimi məharətlə icra edim. Valideynlərim bu istəyimi nəzərə alıb məni gimnastika məşqlərinə yazdırdılar. Artıq 4 ildir ki, bədii gimnastika ilə məşğul oluram və nəticələrim var. Ustalığımı artırmaq üçün ciddi səy göstərirəm. Milli Gimnastika Arenasında məşq etmək bizə xüsusilə zövq verir.

**Masallı və Lənkəran Olimpiya idman komplekslərinin bədii gimnastika üzrə məşqçisi Mərziyə Mustafazadə "XQ"yə açıqlamasında bildirdi ki, Masallıda 35, Lənkəranda 40-a yaxın idmançı bədii gimnastikanın sirlərinə yiyələnir:**

– Təmsilçilərimiz artıq bir sıra yarışlara qatılaraq nailiyyətlər də əldə ediblər. Ülkər Quliyeva keçən il I beynəlxalq "Ocaq kuboku"nda 1-ci yeri tutub. Mədinə Hüseynova isə "Ocaq" Sport Klubunun açıq birinciliyində 3-cü nəticə göstərib. Təmsilçilərimiz, həmçinin bölgələrarası kubok yarışlarında da yüksək səviyyədə iştirak edirlər. Hazırda rəhbərliyim altında istedadlı gimnastlar yetişir. MDA-da təlim-məşqlərdə gimnastlarımız böyük həvəs və maraqla məşq edirlər. Onlar özlərini burada əsl peşəkar gimnastlar kimi hiss edirlər.

**Gəncə Olimpiya İdman Komleksinin və Gəncə Olimpiya İdman Klubunun məşqçisi Nurcahan Əliyeva birgə təlim-məşqə 10 gimnastla qatıldıqlarını bildirdi:**

– Gəncədə son illər bədii gimnastikanın inkişafı və kütləviləşməsi istiqamətində məqsədyönlü işlər aparılır. Hazırda Olimpiya kompleksi və klubda ümumilikdə 40-50 arası gimnast bu idman növünün sirlərini öyrənir. I beynəlxalq "Ocaq kuboku"nda Nazlı Məmmədzadə qalib adını qazanıb. Aylin Novruzova gümüş, Nəzrin Məmmədova bürünc medala, Əfruz İbrahimova taca sahib olublar. Nazlı Məmmədzadə II beynəlxalq "Ocaq kuboku"nda 3-cü yeri tutub. MDA-da məşqlərimiz üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, arenada təlim-məşqlər noyabrın 25-dək davam edəcək. Hazırlığın təşkilində əsas məqsəd regionlarda gimnastikanın inkişaf etdirilməsi, idmançıların hazırlığının daha da gücləndirilməsidir.

***Q.LEYLA***
***XQ***

# "Cığır" Daşkəndə çatdı...

**Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzindəki Heydər Əliyev muzeyində yazıçı-publisist, türkoloq alim, tarixi romanlar müəllifi Yunus Oğuzun özbək dilində çap edilən "Cığır" romanının təqdimatı keçirilib.**



Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə çap edilən, Şuşa şəhərinin inşa edilməsinin 270 illiyinə və 44 günlük Vətən müharibəsinə həsr olunan kitabı orijinaldan özbək dilinə dosent Gülbahar Aşurova çevirib.

Mərkəzin əməkdaşı Kərim Məmmədzadə Yunus Oğuzun yaradıcılığı haqqında ətraflı məlumat verib, bu gün sevincini yaşadığımız Zəfər tariximizdən bəhs edən əsərin əhəmiyyətindən danışıb.

Alim və tərcüməçi Babaxan Şərif bildirib ki, bundan əvvəl Yunus Oğuzun özbək dilində "Əmir Teymur", "Şah arvadı və cadugər", "Sultan Alp Arslan", "Atabəy Eldəgiz", "Ovçu" romanları işıq üzü görüb və populyarlıq qazanıb. Əminəm ki, Yunus Oğuzun bundan sonra da yeni-yeni əsərləri özbək dilində çap ediləcək.

Alim "Cığır" romanının bədii dəyəri haqqında da söhbət açıb, gələcəkdə tarixi araşdırmaq üçün dəyərli bir mənbə olacağını qeyd edib.

Gülbahar Aşurova Yunus Oğuzun Özbəkistanda yaxşı tanındığını diqqətə çatdırıb. O bildirib ki, Y.Oğuz Özbəkistanda çap olunan ilk kitabı – "Əmir Teymur" romanı ilə məşhurlaşıb. O, özbək tarixi ilə bağlı elə bir kitab ortaya qoyub ki, onu sevməmək mümkün deyil.

Digər çıxış edənlər Yunus Oğuzun yaradıcılığı haqqında söhbət açıblar.

Sonda müəllif özü çıxış edərək kitab üzərindəki işindən danışıb. Y.Oğuz əsərin çapına və təqdimat mərasiminə görə Mədəniyyət Mərkəzinə və muzeyə toplaşanlara minnətdarlığını bildirib.

Tədbirdə Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, soydaşlarımız, jurnalistlər iştirak edib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qapı,pəncərə və jalüz sistemləri üçün ehtiyat hissələrinin təchizatı və quraşdırılması işlərinin satın alınması üçün elan edilmiş kotirovka sorğusu satınalmalar komissiyasının 22 noyabr 2023-cü il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi
## Azərbaycan Milli Konservatoriyası boş olan ştat üçün
## MÜSABİQƏ ELAN EDİR

**Fortepiano kafedrası üzrə:**
Kafedra müdiri

## Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

*2024-cü ildə mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. 2024-cü ildə mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədilə tələb olunan müxtəlif növ malların satın alınması.

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs – Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 8000,00 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İştirakçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 90 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqli təqdim edilməlidir);
- pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir) ;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,-yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- anbar sahəsinin olması barədə məlumat;
- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat.

-AZSİSO sertifikatı : 9001

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 29 dekabr 2023-cü il saat 11.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 11 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2024-cü il saat 11.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti Və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

*2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması məqsədilə*

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. 2024-cü il üçün Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki,öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 12000,00 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərfləin açıldığı tarixdən sonra azı 120 bank günü müddətində qüvvədə olmalıdır);
-tender təklifinin 1 faizi həcmində bank təminatı ;
- tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqli təqdim edilməlidir) ;
- pul vəsaitlərinin hərəkəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
-iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-dövlət satınalmaları müsabiqəsində son 3 ildə iştirak etmiş oxşar işlərə aid azı 5000000 manat dəyərində bağlanmış müqavilələrin surəti (təsdiqli formada);

satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin,habelə işlərini idarə edənlərin,qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;

- tədarük-təchizat zəncirinin idarə olunması üçün müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən – əlavə 2);
-mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat;
- AZSİSO sertifikatları : 9001, 14001, 45001, 50001.
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması barədə sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 27 dekabr 2023-cü il saat 10.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 11 yanvar 2024-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 yanvar 2024-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 256 (30372) 24 noyabr 2023-cü il, cümə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


MUSİQİ

# Motsartın qəsri – 13,1 milyon dollara



**Dünyaca məşhur bəstəkar Volfqanq Amadey Motsartın sonuncu qəsri hərraca çıxarılıb. Məlumata görə, qəsr 50 otaq və zirzəmidən ibarətdir.**

Xatırladaq ki, məhz həmin qəsrdə dahi bəstəkar əsrarəngiz “Rekviyem” əsərini tamamlayıb. Burada məşhur insanlar qonaq olublar. Onların arasında Napoleon Bonapart və Papa VI Pius da olub.

Sonda qeyd edək ki, belə zəngin keçmişi olan rezidensiya 13,1 milyon dollar dəyərində qiymətləndirilib.

*XQ*

İDMAN XƏBƏRLƏRİ

# Ölkə voleybolunda II turun təqvimi

**Qadın voleybolçuların Azərbaycan çempionatında II turun oyunlarının təqvimi müəyyənləşib.**



Oyunlar noyabrın 25-də Bakı və Gəncədə təşkil ediləcək. Ev oyunlarını Gəncə Olimpiya İdman Kompleksində keçirən “Gəncə” “Azərreyl”lə qarşılaşacaq. Bakıda həmin gün Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində “Murov Az Terminal” və “Milli Aviasiya Akademiyası” komandaları üz-üzə gələcəklər. Digər görüş isə “Abşeron”la UNEC arasında olacaq.

# “Dinamo”nun futbolçusu cəzalandırılıb

**II Liqa komandası olan “Dinamo”nun futbolçusu cəzalandırılıb.**



Yusif Cəfərovun diskvalifikasiyasına səbəb Azərbaycan Kubokunun I təsnifat mərhələsində “Göygöl” ilə oyunda hakimləri təhqir etməsi olub. Belə ki, futbolçu matçın 84-cü dəqiqəsində qırmızı vərəqə aldıqdan sonra hakimlərin ünvanına qeyri-etik ifadələr işlədib. Y.Cəfərov AFFA İntizam Komitəsi tərəfindən 4 oyunluq cəzalandırılıb, komanda 300 manat cərimə edilib.

Bildirək ki, rəqibinə 1:2 hesabı ilə uduzan “Dinamo” ölkə kubokunda mübarizəni dayandırıb.

# Bakıda dünyanın 26 güləşçisi yarışacaq

**Bakıda “Sərhədçi” İdman Mərkəzində noyabrın 27-dən dekabrın 3-dək hərbçilər arasında keçiriləcək güləş üzrə 36-cı dünya çempionatında iştirak edəcək Azərbaycan yığmasının heyəti müəyyənləşib.**



Dövlət Sərhəd Xidmətindən “XQ”yə bildiriblər ki, 7 gün davam edəcək yarışda 26 idmançı iştirak edəcək. Belə ki, sərbəst güləşdə Əliabbas Rzazadə (57 kq), Ceyhun Allahverdiyev (61 kq), Əli Rəhimzadə (65 kq), Hacı Əliyev (70 kq), Turan Bayramov (74 kq), Orxan Abbasov (79 kq), Fərid Cabbarov (86 kq), İbrahim Yusubov (92 kq), Zəfər Əliyev (97 kq), Rahid Həmidli (125 kq) güclərini sınayacaqlar. Yunan-Roma güləşində Fərid Sadıxlı (55 kq), Nihad Quluzadə (60 kq), Ziya Babaşov (63 kq), Həsən Məmmədli (67 kq), Ülvi Qənizadə (72 kq), Qurban Qurbanov (77 kq), Azad Əliyev (82 kq), Laçın Vəliyev (87 kq), Murad Əhmədiyev (97 kq), Sərxan Məmmədov (130 kq) çıxış edəcəklər. Qadın güləşində isə Elnurə Məmmədova (50 kq), Gültəkin Şirinova (53 kq), Nərgiz Səmədova (55 kq), Jalə Əliyeva (57 kq), Ruzanna Məmmədova (59 kq) və Birgül Soltanova (62 kq) ölkəmizi təmsil edəcəklər.

*Leyla SABİRQIZI*
*XQ*

KOSMOS

**NASA-nın kosmik gəmisi 10 milyon mil məsafədən lazer şüası göndərib. Bununla da agentlik üçün kosmosun tədqiqi istiqamətində yeni platforma yaradıb. Agentlik bildirib ki, sınaq məlumatları ilə kodlaşdırılan lazer şüaları “Psyche” kosmik gəmidən göndərilib. Bu informasiyaları Kaliforniyanın Palomar Rəsədxanasındakı “Hale” teleskopu qəbul edib.**




Qeyd edək ki, “Psyche” kosmik gəmisi 2023-cü ilin oktyabrında buraxılıb. Bu stansiyanın vəzifəsi başqa kosmik obyektlərlə toqquşmadan sağ çıxmış nəhəng N adlı asteroidi öyrənməkdir. Alimlərin fikrincə, asteroid toqquşmadan əvvəl planetin nüvəsini təşkil edib.

“Psyche” layihəsi 2017-ci ildə hazırlanıb və kosmik gəmi asteroidə 2028-ci ildə yaxınlaşacaq. Gəmi obyektə doğru hərəkət edərkən, NASA mühəndisləri digər astronomik problemləri həll etmək üçün “Psyche”dən fəal şəkildə istifadə edirlər. Məsələn, lazer şüaları vasitəsilə kosmik cisimlər haqqında məlumatlar Yerə ötürülür. Bu vaxtadək məlumatlar radiodalğalar vasitəsilə ötürülürdü. Lakin bu metoddan istifadə etməklə böyük həcmdə məlumat ötürmək mümkün deyil və siqnalın sürəti çox aşağıdır. Bu səbəbdən də daha müasir metoda ehtiyac vardı və bu metod da tapıldı.

Alimlər uzun illərdir ki, lazerin imkanları haqqında düşünüblər, lakin belə bir ideyanı həyata keçirmək çox çətin idi. Nəhayət ki, NASA alimləri lazerdən istifadə edərək Yerdən 16 milyon kilometr uzaqlıqda olan “Psyche” ilə əlaqə yarada biliblər. Bununla da yaxın gələcəkdə kosmosun dərinliklərindən böyük miqdarda məlumatlar əldə ediləcək.

Beləliklə, təcrübə zamanı NASA mühəndisləri “Psyche”dən kiçik bir mesaj almağa və həmçinin gəmiyə siqnal göndərməyə nail olublar. Bu başlanğıcdır.

*P.ƏFƏNDİ*
*XQ*

MEMARLIQ

# UNESCO-da Əcəminin yubileyi qeyd olunacaq

**2024–2025-ci illərdə UNESCO-nun yubileylər proqramı çərçivəsində təşkilatın baş qərargahında Azərbaycanın görkəmli şəxsiyyəti, memar Əcəmi ibn Əbubəkr Naxçıvaninin anadan olmasının 900 illiyi və “Divani-lüğəti-türk”ün isə 950 illiyi qeyd ediləcək.**



Hər iki tədbir UNESCO-nun Baş konfransının 42-ci sessiyasında müvafiq qərarla yubileylər siyahısına daxil edilib. UNESCO 1956-cı ildən etibarən görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileylərini qeyd edir.

İndiyədək Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, Seyid Yəhya Bakuvi, Yusif Məmmədəliyev, Mir Cəlal Paşayev, Musa Əliyev, Səttar Bəhlulzadə kimi dahi şəxsiyyətlərin, eləcə də “Kitabi-Dədə Qorqud” dastanının, “Leyli və Məcnun”, “Arşın mal alan” operalarının yubileyləri UNESCO tərəfindən beynəlxalq səviyyədə qeyd edilib.

Yubileylər proqramı çərçivəsində keçirilən tədbirlər ölkəmizin zəngin mədəniyyətinin UNESCO tərəfindən tanınmasına və Azərbaycanın görkəmli şəxsiyyətləri və əlamətdar hadisələri barədə geniş auditoriyaya məlumatın çatdırılmasına imkan yaradır.

*XQ*

HAVA




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 24-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 7-10°, gündüz 13-16° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 757 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında arabir yağış yağacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 12-17° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 7-12° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

SAĞLAMLIQ

# Feyxoa – cana min bir fayda

**Braziliyada XX əsrdə kəşf edilmiş və portuqal alimi Silva Feyxonun şərəfinə adlandırılmış feyxoa Azərbaycanda da yetişir.**



Feyxoa fol turşusu, dəmir, yod, kalsium, maqnezium və C vitamini ilə zəngindir. Meyvə nə qədər dənizə yaxın ərazidə yetişirsə, tərkibində o qədər çox yod olur.

Bundan əlavə, feyxoada A, E, K, B qrup vitaminlər, sink, marqans, xrom, bor var. O, bədəni vitamin-minerallarla təmin edir, orqanizmə antioksidant təsir göstərir.

Feyxoanın qabığı daha faydalıdır. Bu meyvə, həm də antibakterial təsir edir. Tərkibindəki efir maddələr hətta stafilakokk kimi təhlükəli bakteriyaları öldürür.

Bioloji fəal maddə və polifenollarla zəngin olduğundan antixərçəng təsir göstərir.

Feyxoa iltihab əleyhinə təsir edərək, bağırsaqda xroniki iltihabı azaldır.

İmmuniteti möhkəmləndirir, leykositlərin sayını artırır.

*Z.HÜSEYNLİ*
*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi rayonundan Rafil Hüseynov Milli Məclisin sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi rayonundan Rafil Hüseynov Samux rayon Sərkar bələdiyyəsinin sədri Şəmistan Yusifova həyat yoldaşı

**ŞƏLALƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4806
SİFARİŞ 3058
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00